# Heydər ƏLİYEV: "Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək"

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 221 (9966) 15 oktyabr 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Savaşın da, barışın da qalibi



Tarix çox qələbələrə şahidlik edib. Ancaq onların az bir qismində xalq qələbəni məhz milli vəhdət sayəsində qazanıb. Xalqımız və onun güclü lideri bütün dünyaya sübut edə bildi ki, Azərbaycan milli birlik yaratmağa, milli vəhdətə nail olmağa, bir "dəmir yumruq" kimi birləşməyə qadir xalqdır. Danılmaz faktdır ki, Azərbaycan dövlət kimi mövcudluğundan bəri bu qədər güclü, bu qədər müstəqil və azad olmayıb.

İlham Əliyev Vətən müharibəsindəki Zəfərlə bağlı xalqa müraciətində "Biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır" söyləməsi bütün xalqımızı qürurlandırdı. Çünki o, qoca zamanı öz hökmünü dəyişməsinə məcbur etdi. Bəli, bu gün dünyanın ən qüdrətli dövlətləri sırasındayıq.

7

## Sabitliyin, inkişafın və Zəfərin yolu



Prezident İlham Əliyevin uzaqgörən və milli maraqlara söykənən siyasəti nəticəsində dövlətimiz ən böyük strateji məqsədinə, ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına nail oldu. 2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqımızın birliyi və ordumuzun qəhrəmanlığı sayəsində möhtəşəm Zəfərlə başa çatdı. Azərbaycan otuz ilə yaxın işğal altında qalan torpaqlarını azad etdi, tarixi ədalət bərpa olundu, milli qürur və birliyimiz yenidən dirçəldi. 2023-cü ilin aprelində Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsinin yaradılması ilə ölkəmizin ərazi bütövlüyü təmin olundu. Həmin ilin sentyabrında isə Qarabağda keçirilən lokal antiterror tədbirləri nəticəsində dövlət suverenliyimiz tam bərpa edildi.

8



# Əzəmətli yüksəliş, möhtəşəm Zəfər, beynəlxalq ehtiram

## Bunlar son iyirmi iki ilin möcüzələridir

İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkənin sosial-iqtisadi həyatında köklü və hərtərəfli islahatların obyektiv zərurətə çevrildiyi tarixi dövrə təsadüf edir. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında müstəqil dövlət quruculuğu prosesinin uğurla başa çatması, yeni iqtisadi, siyasi və hüquqi islahatların həyata keçirilməsi, Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, liberal iqtisadiyyatın qərarlaşması müstəqil dövlət quruculuğu mərhələsinin başa çatmasını əks etdirən əsas məqamlar idi. XXI əsrin əvvəllərində ölkənin yeni inkişaf dövrünə qədəm qoyması və bununla əlaqədar olaraq zamanın ehtiyaclarını və başlıca inkişaf meyillərini əks etdirən strategiyanın cəmiyyətə təqdim edilməsi həyati zərurət kimi dərk edilirdi.

Yeni yanaşma və daha kreativ fəaliyyət formaları tələb edən məqamlar sırasında Heydər Əliyevin dərin zəkasının və iradəsinin məhsulu olan "Əsrin müqaviləsi"nin bəhrə verməyə başlaması Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin işə salınması hesab oluna bilər. Haqqında söhbət gedən sazişin sayəsində Azərbaycan nəinki beynəlxalq iqtisadi inteqrasiya prosesinin fəal tərəfdaşı statusunu qazanırdı, geosiyasi dividendlər əldə edirdi, habelə dövlətin xəzinəsinə on milyardlarla dollar neft vəsaitlərinin daxil olması dövrün maliyyə reallığına çevrilmişdi. Bu imkanların düzgün dəyərləndirilməsi, ən faydalı şəkildə onlardan istifadə edilməsi isə böyük təmkin, uzaqgörənlik və müdriklik kimi keyfiyyətləri nəzərdə tutur.

Ədalət naminə deməliyəm ki, İlham Əliyev cəmiyyətə təqdim etdiyi seçki proqramında yeni dövrün inkişaf strategiyasının ən əsas məqamlarını insanların diqqətinə çatdırmağı bacardı. Yoxsulluğa son qoyulması, işsizliyin aradan qaldırılması üçün radikal addımların atılması, o dövrün ən acı mənzərəsi olan çadır şəhərciklərinin ləğv edilməsi, Qarabağ münaqişəsini ədalətli şəkildə həll etmək naminə ordu quruculuğunun dövlətin və cəmiyyətin əsas prioritetinə çevrilməsi və s. sözügedən proqramın başlıca istiqamətlərini təşkil edirdi.

Sadalanan vəzifələrin hər biri XXI əsrin ilk illərinin ictimai rəyində mühüm yer tutan sosial və iqtisadi xarakterli hədəflər sayılırdı. Başqa sözlə ifadə edilsə, İlham Əliyevin seçki proqramı, əslində, xalqın mütləq əksəriyyətinin istək və arzularını özündə əks etdirən manifest adlandırıla bilər. Ölkə əhalisinin bütün təbəqələri - qadınlar, gənclər, bir milyona yaxın qaçqın və məcburi köçkünlər bu proqramda özlərinin gələcəyə baxışlarını görür, xəyallarında yeni Azərbaycanın əsas konturlarını canlandıra bilirdilər. Bu baxımdan təqdim olunan seçki proqramının ictimai dəstəyinin kifayət qədər yüksək olması elə ilk andan hər hansı şübhə doğurmurdu.

Onu da ayrıca vurğulamaqda fayda olduğunu düşünürəm ki, İlham Əliyevin seçki proqramı gözəl və cəlbedici vəd yox, konkret hədəflərə ünvanlanan fəaliyyət planı təəssüratı yaradırdı. Ölkəyə daxil olmağa başlayan neft pullarının onun reallaşmasının maliyyə əsasları kimi nəzərdən keçirilməsi proqrama ictimai inamı daha da gücləndirən məqam kimi qiymətləndirilməlidir.

5

## Anda sədaqət



Sözü ilə əməli bir olan, doğma xalqından güc alan lider sonda əsl qəhrəmana çevrilir. Xalq öz oğluna inanır, etibar edir, güvənir. Əmin olur ki, dövlət adlı gəminin sükanı etibarlı əldədir. İlham Əliyev rəhbərlik etdiyi dövləti fırtınalardan, qasırğalardan keçirməyə, qələbəyə qovuşdurmağa qadirdir. Çünki şərəflə xidmət etdiyi doğma xalqından güc alır. Həmin gücün mənbəyi isə tükənməzdir, əbədidir.

11



## 44 günlük Vətən müharibəsi

## Düz 5 il əvvəl həmin gün

15

# Qarabağ XXI əsrin dayanıqlı inkişaf məkanı kimi formalaşır

## 5-ci Azərbaycan Beynəlxalq "Q arabağın Bərpa, Yenidənqurma və İnkişafı" - "Rebuild Karabakh" sərgisinin iştirakçılarına

Hörmətli sərgi iştirakçıları!

Sizi 5-ci Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" - "Rebuild Karabakh" sərgisinin açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram.

Bu il biz "Xəzər İnşaat Həftəsi" çərçivəsində 5-ci "Rebuild Karabakh" və 30-cu "Azərbaycan Beynəlxalq İnşaat "Baku Build" yubiley sərgilərini keçiririk.

Builki 5-ci "Rebuild Karabakh" sərgisi Azərbaycan Respublikasının dövlətçilik tarixində əlamətdar bir dövrə - suverenliyimizin və milli birliyimizin təcəssümü olan mühüm ildönümlərinə təsadüf edir. Biz Konstitusiyamızın qəbulunun otuz illiyini və Vətən müharibəsində qazandığımız tarixi Zəfərin beş illiyini böyük qürur hissi ilə qeyd edirik. Əldə etdiyimiz bütün bu nailiyyətlər xalqımızın sarsılmaz iradəsini, həmrəyliyini və strateji hədəflərə doğru irəliləmək əzmini təsdiq etməklə yanaşı, bizi həm də yeni bir missiya - Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi ətrafında səfərbər edir.

Hazırda "Böyük qayıdış" proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə uğurla aparılan genişmiqyaslı bərpa və quruculuq işləri regionun simasını köklü şəkildə dəyişir. Müasir şəhərsalma konsepsiyalarına uyğun şəhərlər salınır, yeni məktəblər, xəstəxanalar, yol-nəqliyyat və kommunikasiya infrastrukturu inşa olunur, iş yerləri açılır, "yaşıl enerji" zonaları və sənaye parkları yaradılır. Qarabağ artıq yalnız milli qürurumuzun rəmzi deyil, həm də XXI əsrin dayanıqlı inkişaf məkanı kimi formalaşır.

"Rebuild Karabakh" sərgisinin yerli və beynəlxalq iştirakçılar üçün əhəmiyyətinin ildən-ilə artması məmnunluq doğurur. Sərgidə müasir texnologiyalar və qabaqcıl innovativ həllər təqdim olunur, birgə layihələr və tərəfdaşlıq imkanları müzakirə edilir, regionun sosial-iqtisadi inkişafı üçün gələcəyə yönələn yeni fürsətlər yaradılır. Artıq beşinci dəfə keçirilən bu tədbir Azərbaycanın əldə etdiyi nailiyyətləri dünyaya nümayiş etdirməklə yanaşı, ölkəmizin qlobal miqyasda investisiya, texnologiya və innovasiya mərkəzi kimi mövqeyini daha da möhkəmləndirir.

Hər il keçirilən bu mötəbər sərgi davamlı quruculuğun, tərəqqinin və sülhün reallığını təcəssüm etdirən, eyni zamanda gələcəyə istiqamətlənmiş önəmli tədbirdir. Burada qurulan tərəfdaşlıqlar insanlar və xalqlar arasında qarşılıqlı etimadı möhkəmləndirir, yeni əməkdaşlıq körpüləri yaradır və Qarabağı dayanıqlı inkişaf gündəliyinin mərkəzinə çevirir.

Əminəm ki, bu sərgi bütün iştirakçılar arasında tərəfdaşlıq münasibətlərinin qurulmasına, müasir inkişaf və investisiya təşəbbüslərinin müəyyən edilməsinə təkan verərək Qarabağın, eləcə də bütün regionun dirçəldilməsi baxımından bundan sonra da vacib rol oynayacaqdır.

Bu xoş fürsətdən istifadə edərək, 5-ci yubiley sərgisi münasibətilə bütün təşkilatçıları və iştirakçıları bir daha ürəkdən təbrik edir, "Rebuild Karabakh" sərgisinə qarşıdakı illərdə də uğurlar və yeni-yeni nailiyyətlər arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 oktyabr 2025-ci il*

# "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə İslam İnkişaf Bankı Qrupu arasında Azərbaycan Respublikası Hökuməti (ev sahibi ölkə) tərəfindən İİB Qrupunun 2026-cı ildə keçiriləcək İllik Toplantıları üçün təminatlara dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il mayın 22-də Əlcəzair şəhərində imzalanmış "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə İslam İnkişaf Bankı Qrupu arasında Azərbaycan Respublikası Hökuməti (ev sahibi ölkə) tərəfindən İİB Qrupunun 2026-cı ildə keçiriləcək İllik Toplantıları üçün təminatlara dair Anlaşma Memorandumu" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında" 2020-ci il 27 mart tarixli 975 nömrəli, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli və "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2024-cü il 29 iyul tarixli 163 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I); 2024, № 2, maddə 147, № 3, maddələr 259, 262, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 8, maddə 944, № 12 (II kitab), maddə 1359; 2025, № 6, maddə 541) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 3.0.26-cı yarımbəndində "13" rəqəmləri "14" rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1510 (Cild I); 2024, № 7, maddə 821, № 9, maddə 1005, № 11, maddə 1205; 2025, № 2, maddə 129, № 4 (I kitab), maddə 343) ilə təsdiq edilmiş "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə"nin 3.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.51-ci yarımbənddən ",qanunla müəyyən edilmiş hallarda və qaydada su ehtiyatlarından istifadəyə icazə vermək" sözləri çıxarılsın;

2.2. aşağıdakı məzmunda 3.1.51-1-ci yarımbənd əlavə edilsin:

"3.1.51-1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa 3 nömrəli əlavə - "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 13-cü maddəsində nəzərdə tutulmuş icazəni, onun dublikatını və əlavəsini vermək, habelə həmin icazəni yenidən rəsmiləşdirmək, dayandırmaq, bərpa və ya ləğv etmək, həmçinin verilmiş icazənin şərtlərinə riayət olunmasına nəzarətin həyata keçirilməsini təmin etmək;".

3. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 iyul tarixli 163 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 822) ilə təsdiq edilmiş "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 3.1.29-cu yarımbəndində "ehtiyatlarından istifadəyə icazələrin" sözləri "obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 oktyabr 2025-ci il*

# "İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 2 iyun tarixli 180 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 299** **Bakı şəhəri, 13 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 2 iyun tarixli 180 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 843 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədə "və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti" sözləri ", "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydası"nın 2.7-ci bəndində "və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti" sözləri", "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi (işğaldan azad edilmiş ərazilərdə yaradılmış sənaye parklarına münasibətdə)" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi "İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən istifadəyə görə maliyyə yardımı göstərilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 may tarixli 2131 nömrəli Fərmanının 1-ci hissəsinə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə yaradılmış sənaye parklarında istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara istehlak olunan kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) üzrə maliyyə yardımının 2023-cü il yanvarın 1-dən ödənilməsi üçün tədbirlər görsün.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Ozon qatını dağıdan maddələr haqqında" Monreal Protokoluna 2016-cı il 15 oktyabr tarixli Kiqali Düzəlişinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Ozon qatını dağıdan maddələr haqqında" Monreal Protokoluna 2016-cı il 15 oktyabr tarixli Kiqali Düzəlişi təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

# "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının (ÜTİK-25) keçirilməsi, təşkili və maliyyələşdirilməsi ilə bağlı Saziş"in təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il iyunun 25-də Cenevrə şəhərində və 2025-ci il iyulun 11-də Bakı şəhərində imzalanmış "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının (ÜTİK-25) keçirilməsi, təşkili və maliyyələşdirilməsi ilə bağlı Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

# Taksi minik avtomobilləri ilə sərnişin daşımaları üçün icazələrin əlavələrinin sayına məhdudiyyətlər tətbiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 300** **Bakı şəhəri, 13 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, avtomobil nəqliyyatı xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması, habelə ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə daşımalarda nəqliyyat növləri üzrə sərnişin axınlarının paylanmasının optimallaşdırılması məqsədilə "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanının 2.1-2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Bakı şəhərinin inzibati ərazi vahidi üzrə taksi minik avtomobilləri ilə sərnişin daşımaları üçün verilən icazələrin əlavələrinin say həddi 25.000 (iyirmi beş min) müəyyən edilsin.

2. Taksi minik avtomobilləri ilə sərnişin daşımaları fəaliyyəti üçün icazələrin əlavələri Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinə, "Lisenziyalar və icazələr haqqında" və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq və müraciət zamanı növbəlilik nəzərə alınmaqla verilsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Bakı şəhərinin inzibati ərazi vahidi üzrə taksi minik avtomobilləri ilə sərnişin daşımaları üçün icazələrin əlavələrinin say həddinə dair təkliflərini hər təqvim ili avqustun 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Bu Qərar 2025-ci il noyabrın 1-dən qüvvəyə minir və bu Qərarın 1-ci hissəsində qeyd olunan icazələrin əlavələrinin yeni say həddinin müəyyən olunduğu tarixədək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan, İran və Rusiya nümayəndə heyətləri Astarada "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin infrastruktur obyektlərinə birgə baxış keçiriblər

**Oktyabrın 14-də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin, Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçukun və İran İslam Respublikasının yol və şəhərsalma naziri Fərzanə Sadiqin başçılıq etdikləri nümayəndə heyətləri Astara şəhərində "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin vacib infrastruktur obyektlərinə birgə baxış keçiriblər.**



AZƏRTAC xəbər verir ki, nümayəndə heyətləri 2023-cü ilin dekabrında Azərbaycan-İran sərhədində Astaraçay üzərində açılan avtomobil körpüsünə baş çəkiblər. Körpünün buraxılış imkanı hər tərəfə gündə 500 ədəd giriş və 500 ədəd çıxış olmaqla, ümumilikdə 1000 ədəd yük nəqliyyat vasitəsi təşkil edir.

Daha sonra İranın Astara şəhərində yerləşən və Azərbaycan Dəmir Yollarına məxsus Cənub Yük Terminalının tikinti işlərinin gedişi ilə tanışlıq olub. Terminalın hazırkı illik yükaşırma imkanı 1 milyon ton təşkil edir və onun 5 milyon tona qədər artırılması nəzərdə tutulur. Tikinti işlərinin 2025-ci ilin sonuna qədər başa çatdırılması planlaşdırılır.




Nümayəndə heyətləri həmçinin İran ərazisində Rəşt-Astara dəmir yolunun tikintisinə baxış keçiriblər.

# Pakistan Prezidenti Asif Zardari Milli Məclisin Sədri Sahibə Qafarovanı və Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşu qəbul edib



**Pakistan İslam Respublikasının Prezidenti Asif Zardari İslamabad şəhərində Azərbaycan, Pakistan və Türkiyə Parlament Sədrlərinin Üçüncü Üçtərəfli Görüşündə iştirak edən Milli Məclisin Sədri Sahibə Qafarovanı və Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşu qəbul edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz və xalqlarımız arasındakı əlaqələr, o cümlədən parlamentlərarası əməkdaşlığın daha da gücləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Vurğulanıb ki, sıx siyasi təmaslar və uğurlu əməkdaşlıq xalqlarımızı və dövlətlərimizi bir-birinə daha da yaxınlaşdırır.

Söhbət zamanı parlamentlərimiz arasında münasibətlərin ölkələrimizin dostluq və qardaşlıq əlaqələrinə mühüm və müsbət təsirləri qeyd edilərək, bu mənada, Azərbaycan, Pakistan və Türkiyə parlament sədrlərinin üçtərəfli əməkdaşlıq mexanizminin xüsusi əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb. Azərbaycan, Pakistan və Türkiyə qanunvericilik orqanlarının beynəlxalq parlament təşkilatlarında da uğurlu əməkdaşlığı məmnunluqla vurğulanıb.

Görüşdə Azərbaycan və Pakistan arasında ikitərəfli, o cümlədən üçtərəfli əməkdaşlığın mövcud yüksək səviyyəsindən məmnunluq ifadə olunub, bu çərçivədə parlamentlərimizin töhfələri müsbət qiymətləndirilib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Pakistanın Pəncab əyalətinin baş naziri ilə görüş olub



**Oktyabrın 14-də Milli Məclisin Sədri Sahibə Qafarova, Pakistan Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiq və Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş Pakistanın Lahor şəhərində Pakistanın Pəncab əyalətinin baş naziri Məryəm Nəvaz Şərif ilə görüşüblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz arasında əlaqələr və parlament əməkdaşlığının genişləndirilməsi müzakirə olunub. Bildirilib ki, xalqlarımızın mədəni, dini və mənəvi yaxınlığı ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin əsasını təşkil edir. Vurğulanıb ki, dövlət başçıları arasında sıx siyasi təmaslar, dostluq münasibətləri bütün sahələrdə əlaqələrin inkişafına böyük təsir göstərir, xalqlarımızı və ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır.

Söhbət zamanı Azərbaycan, Pakistan və Türkiyə parlament sədrlərinin İslamabadda keçirilən üçtərəfli görüşünün və orada müzakirə olunan məsələlərin əhəmiyyəti qeyd edilib. Bildirilib ki, parlament sədrlərinin bu üçtərəfli əməkdaşlıq mexanizmi, keçirilən görüşlər, qarşılıqlı səfərlər, o cümlədən nüfuzlu beynəlxalq parlament təşkilatlarında deputatlarımızın birgə fəaliyyəti, prinsipial məsələlərdə ortaq mövqe sergiləməyi ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin parlament müstəvisində də gücləndirilməsinə xidmət edir.

Görüşdə ikitərəfli və üçtərəfli formatda əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan-Pakistan münasibətləri dostluq və qardaşlıq prinsiplərinə əsaslanaraq uğurla inkişaf edir

## Milli Məclisin Sədri Sahibə Qafarova Pakistan İslam Respublikası Senatının Sədri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarovanın Pakistan İslam Respublikasına işgüzar səfəri çərçivəsində ölkə Senatının Sədri Syed Yusuf Raza Gilani ilə görüşü olub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz arasında münasibətlərin dostluq və qardaşlıq prinsiplərinə söykənərək uğurla inkişaf etməsindən məmnunluq ifadə olunub.

Əlaqələrimizin yüksək səviyyəyə çatmasında ölkə liderlərinin qarşılıqlı səfərlərinin mühüm rol oynadığı diqqətə çatdırılıb. Bu münasibətlərin inkişafında parlamentlərin xüsusi roluna diqqət çəkən spikerlər qanunverici orqanlarımızın həm ikitərəfli əsasda, həm də müxtəlif platformalarda əməkdaşlığını yüksək qiymətləndiriblər.



Söhbət zamanı Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin Üçüncü Üçtərəfli Görüşünün keçirilməsi münasibətlərimizin daha da genişləndirilməsinə töhfə kimi dəyərləndirilib, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan və Türkiyə parlament sədrləri Lahora səfər ediblər

**Azərbaycan, Pakistan və Türkiyə parlament sədrlərinin üçtərəfli görüşündə iştirak etmək məqsədilə Pakistanda səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova və Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş oktyabrın 14-də Lahor şəhərinə gediblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarovanın başçılıq etdiyi Azərbaycan parlament nümayəndə heyətini Lahor şəhərinin Əllamə İqbal Beynəlxalq Hava Limanında Pakistanın Pəncab Əyalət Məclisinin sədri Malik Əhməd Xan, Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarova və Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyətləri Lahor şəhərində əvvəlcə Pakistanın mənəvi qurucusu, ictimai-siyasi xadimi, filosofu və şairi Əllamə Məhəmməd İqbalın məqbərəsini ziyarət ediblər. Məqbərənin önünə əklil qoyan spikerlər xatirə kitabını imzalayıblar.

Sonra Badşahi məscidinə baş çəkən qonaqlar burada Pakistanın tarixi keçmişinin və dini irsinin əzəmətini seyr ediblər.

Səfərin davamında nümayəndə heyətləri Pəncab Əyalət Məclisinə gələrək məclisin inzibati binası və burada yaradılan şəraitlə tanış olublar.

*"Azərbaycan"*







# Parlament sədrləri Pakistanın Fəlakətlərin Milli İdarəetmə Agentliyində olublar

**Azərbaycan, Pakistan və Türkiyə parlament sədrlərinin İslamabadda keçirilən üçtərəfli görüşü başa çatandan sonra tədbir iştirakçıları Pakistanın Fəlakətlərin Milli İdarəetmə Agentliyində olublar.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan, Pakistan və Türkiyə parlament sədrləri, eləcə də nümayəndə heyətlərinin üzvləri agentliyin fəaliyyəti ilə yaxından tanış olublar.

Qonaqlara agentliyin fəlakətlərin idarə olunması üzrə iş prinsipləri, fövqəladə hallara operativ reaksiya mexanizmləri və beynəlxalq əməkdaşlıq imkanları barədə ətraflı məlumat təqdim edilib.

Parlament sədrləri agentliyin işini yüksək qiymətləndirərək bu sahədə təcrübə mübadiləsinin və əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıblar.

*"Azərbaycan"*





# Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin Üçüncü Üçtərəfli Görüşünün sonunda İslamabad Bəyannaməsi qəbul olunub

**Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin Üçüncü Üçtərəfli Görüşü İslamabad Bəyannaməsinin qəbul olunması ilə başa çatıb.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Üçtərəfli Görüşün yekun iclasında çıxış edən Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiq tədbirin üç qardaş ölkə arasında bir sıra aktual məsələlərin ətraflı müzakirəsi baxımından yaxşı imkanlar yaratdığını bildirib. O, bu platformanın əhəmiyyətini, üç dost və qardaş ölkə parlamentləri arasında əlaqələrin daha da genişləndirilməsində mühüm rolunu qeyd edib.

İclasda çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova Üçtərəfli Görüşdə regionda və ümumən beynəlxalq aləmdə baş verən proseslərin və ölkələrimiz arasındakı əlaqələrin nəzərdən keçirildiyini, ortaq maraq kəsb edən məsələlərə dair fikir mübadiləsi aparıldığını söyləyib.

Ölkələrimiz arasındakı əlaqələrin - istər Azərbaycan-Türkiyə və Azərbaycan-Pakistan, istərsə də Türkiyə-Pakistan əlaqələrinin, o cümlədən qarşılıqlı dəstək, birlik və həmrəyliyin ən yüksək səviyyədə olduğunu deyən Milli Məclisin Sədrinin sözlərinə görə, bu əlaqələr dövlətlərarası münasibətlərin bütün istiqamətlərini əhatə edir və günbəgün daha da möhkəmlənir və dərinləşir. Bu əlaqələrdə diqqət çəkən əsas məqam odur ki, ölkələrimiz arasındakı bütün məsələlər məhz dostluq və qardaşlıq prizmasından nəzərdən keçirilir.

Çıxışında Azərbaycan Prezidenti İlham Əliyevlə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasındakı bu il sentyabrın 1-də Çinin Tiencin şəhərində keçirilən görüşdə səsləndirdiyi fikirləri xatırladan Sahibə Qafarova deyib ki, Azərbaycanın dövlət başçısı Ayaz Sadiq Hindistan üzərində qələbəsi münasibətilə təbrik edərkən, belə bir fikir səsləndirdi ki, "ölkəmizin Pakistana göstərdiyi dəstəyə cavab olaraq Hindistan beynəlxalq təşkilatlarda Azərbaycandan qisas almağa çalışır. Bunun ölkəmiz üçün heç bir əhəmiyyəti yoxdur, çünki Azərbaycan üçün qardaşlıq münasibətləri hər şeydən üstündür".

O, eyni zamanda cari ilin may ayında Laçında keçirilmiş Üçtərəfli Zirvə Görüşündə ölkə liderlərimizin - İlham Əliyevin, Rəcəb Tayyib Ərdoğanın və Məhəmməd Şahbaz Şərifin qətiyyəti sayəsində qardaş ölkələrimiz arasındakı əlaqələrin artıq üçtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib. Onun sözlərinə görə, dünyanın geosiyasi xəritəsinə nəzər yetirsək, hər halda, belə yaxın əlaqələri heç başqa üç ölkəyə çox az rast gələrik. Azərbaycan, Pakistan və Türkiyə arasındakı bu üçtərəfli əlaqələr həqiqətən də strateji tərəfdaşlıq xarakteri daşıyır.

Spiker Sahibə Qafarova qardaş ölkələrimiz arasındakı əlaqələrə uyğun olaraq, parlamentlərimizin də üçtərəfli əməkdaşlığının mövcud vəziyyəti və gələcək perspektivləri, bu mexanizmi daha da gücləndirmək, parlament diplomatiyasının effektiv alətlərindən birinə çevirmək yolları haqqında fikirlərini tədbir iştirakçıları ilə bölüşüb.

Parlament üzvləri arasında müzakirə olunan mövzulara toxunan Milli Məclisin Sədri ərazi bütövlüyü və suverenliyinin müdafiəsi, xarici təhdidlərə qarşı həmrəylik məsələsini ölkələrimiz arasında qardaşlığın və qarşılıqlı dəstəyin ən yaxşı şəkildə nümayiş etdirən bir məsələ olduğunu qeyd edib və bu istiqamətdə müzakirələri faydalı hesab edib.

Spiker həmçinin iqlim dəyişiklikləri və dayanıqlılıq mövzusunun əhəmiyyətini qeyd edərək, ölkəmizin bu sahədə gördüyü işlər, o cümlədən Azərbaycanın qardaş Türkiyədə baş vermiş zəlzələ, Pakistandakı daşqınlar zamanı öz qardaşlıq dəstəyini göstərdiyini vurğulayıb. O, digər tərəfdən, COP29 çərçivəsində Azərbaycanın qazandığı nailiyyətləri xüsusi qeyd edib. Parlament üzvlərimizin bu məsələlər haqqında müzakirələrini faydalı hesab edərək, gələcək əməkdaşlıq çərçivəsində iqlim dəyişiklikləri və təbii fəlakətlərə qarşı mübarizə məsələsinin daha çox əhatə olunmasının vacibliyini vurğulayıb.

Azərbaycan parlamentinin spikeri, həmçinin Üçüncü Üçtərəfli Görüşün yekunu olaraq, qəbul olunan İslamabad Bəyannaməsinin ölkələrimiz arasındakı qardaşlıq əlaqələrinin bütün aspektlərini əhatə etdiyini, parlamentlərimizin birgə fəaliyyətinin əhəmiyyətini vurğuladığını, o cümlədən əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yeni imkanları təsbit etdiyini söyləyib. Onun sözlərinə görə, bəyannamə həmçinin regional və qlobal proseslərə münasibətdə ortaq baxışlarımızı əks etdirir.

Milli Məclisin Sədri sonda bir daha vurğulayıb ki, parlamentlərimiz arasındakı bu səmərəli əməkdaşlıq formatı birgə səylərimizlə bundan sonra da uğurla davam edəcək. Bu əməkdaşlıq xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır, ölkələrimizin maraqlarına xidmət edir, onlar arasındakı dostluq və qardaşlıq əlaqələrinin, birlik və həmrəyliyin daha da güclənməsinə töhfə verir.

Sonra çıxış edən Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş da ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da dərinləşdirilməsi üçün parlament diplomatiyasının imkanlarından istifadə edilməsinin vacibliyini qeyd edib. O, Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin Üçüncü Üçtərəfli Görüşünün uğurla nəticələndiyini qeyd edərək vurğulayıb ki, görüşün nəticələri gələcək əməkdaşlıq üçün çox faydalı olub.

*"Azərbaycan"*

# Bakı bu payız növbəti möhtəşəm tədbirə evsahibliyi edəcək!

## "Bakıya Uçuş. İncəsənət Həftəsonu: Gələcəyi İNDİ Duy" tədbiri təşkil olunacaq!

**Oktyabrın 31-dən noyabrın 2-dək Bakı incəsənət, mədəniyyət və ekologiyanı bir araya gətirən növbəti immersiv miqyaslı tədbirə evsahibliyi edəcək.**




AZƏRTAC xəbər verir ki, "Bakıya Uçuş. İncəsənət Həftəsonu: Gələcəyi İNDİ Duy" (Fly to Baku. Art Weekend. Sense the Future NOW) tədbiri şəhəri müasir yaradıcılıq, dialoq və kəşflərin canlı səhnəsinə çevirən əlamətdar hadisə olacaq.

Heydər Əliyev Fondu və IDEA İctimai Birliyinin rəhbərliyi ilə təşkil olunacaq üçgünlük incəsənət festivalının ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva dır. O, tədbirin əhəmiyyətini belə dəyərləndirir: "Bakıya uçuş - İndi duy. Bu çağırış dinləmək, görmək, hiss etmək və təsəvvür etmək üçündür. Bu, xatirə ilə təsəvvürü, irs ilə yeniliyi, qəlbləri ümidi birləşdirən bir körpüdür".

Tədbirin əsas mövzusu - suyu həyatın, yenilənmənin və davamlılığın simvolu kimi araşdırmaqla yanaşı, okean və dənizlərdəki ekoloji vəziyyətə incəsənətin dili ilə diqqət yönəltməkdir.

Oktyabrın 31-də Heydər Əliyev Mərkəzində "Fly to Baku Art Weekend. Sense the Future NOW" incəsənət festivalının açılışı olacaq. Elə həmin gün kolumbiyalı modern rəssam, heykəltaraş Fernando Boteronun sərgisi ilə yanaşı, BMT və IDEA-nın birgə təqdimatı ilə Azərbaycanın qabaqcıl rəssamlarının ekoloji məsuliyyət və davamlılıq mövzusunda əsərlərini əhatə edən "My Seas, My Oceans" adlı sərginin də açılışı olacaq.

Tədbirdə eyni zamanda Nigar Sultanovanın təqdimatında əlilliyi olan və olmayan şəxslərin birgə keçirdiyi rəqs və digər nümayişlər vasitəsilə inklüziv cəmiyyətin inkişafına töhfə verən "Dance Ability" qrupunun festival üçün hazırlanan immersiv tamaşası nümayiş olunacaq. Həmçinin rəsmi açılış zamanı Amerikadan əfsanəvi Cheryl "Pepsii" Riley (Şeril "Pepsii" Rayli) ilə "Interplay" qrupunun ifasında "R&B" və caz improvizasiyasının unikal qarışığından ibarət unudulmaz konsert baş tutacaq.

Festival müddətində Bakının bir çox simvolik abidəsi - Heydər Əliyev Mərkəzi, Daş Salnamə Muzeyi, İçərişəhər, Şirvanşahlar Sarayı, Dənizkənarı Milli Park, Milli İncəsənət Muzeyi və şəhərimizdə fəaliyyət göstərən müxtəlif qalereyalar 40-dan çox təsviri incəsənət, performans, musiqi, poeziya və immersiv texnologiyaları əhatə edən çoxşaxəli proqramlarla canlanacaq. Məkan xüsusi qurğular, performanslar, təhsil proqramları və icma təşəbbüsləri vasitəsilə "İncəsənət həftəsonu" layihəsi həm Azərbaycanın mədəni irsini, həm də müasir yaradıcılığının əks-sədasını ön plana çıxaracaq.

Festivalın proqramı olduqca zəngindir. Üçgünlük tədbir müddətində xarici və yerli sənətsevərlərin diqqətinə Elvin Nəbizadənin "Sonuncu dalğa" kinetik instalyasiyası, Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində ədəbiyyat, sənətkarlığı və ekologiyanı birləşdirən çoxşaxəli "Püstə ağacı: yaddaşın kökləri" layihəsi, Nigar Həsənzadənin başçılığı ilə poeziya gecələri, Firuzə Sultan-zadənin təqdimatında 3-14 yaş qrupu uşaqlar üçün incəsənətin müxtəlif sahələrini əhatə edən maraqlı, rəngarəng və faydalı məşğuliyyətlərdən ibarət xüsusi proqram, "Baku Steel Art 2025" festivalının iştirakçılarının əsərləri təqdim edilənək. Tədbir sərgi və performanslardan əlavə, inklüziv bir platforma yaradaraq, mühazirələr, ekskursiyalar, ekoloji seminarlar və studiya ziyarətləri də təqdim edəcək.

"Bakıya Uçuş. İncəsənət Həftəsonu: Gələcəyi İNDİ Duy" yalnız mədəniyyət tədbiri deyil, o, keçmiş ilə gələcəyi, yerli ilə beynəlxalqı, ənənəvilik ilə yeniliyi özündə birləşdirən bir körpüdür. Tədbir bütün dünyanı Azərbaycanın yaradıcılığını ən canlı və çoxşaxəli şəkildə kəşf etməyə çağırır.

"İncəsənət həftəsonu"nun proqramına daxil olan bəzi sərgilər oktyabrın 29-dan etibarən fəaliyyətə başlayacaq. Tədbirin ümumi planını və proqramlarını yaxın zamanda təqdim olunacaq rəsmi saytdan izləmək mümkün olacaq. Hazırda bütün sual və təkliflər üçün info@bakuartweekend.az ünvanına müraciət edə, həmçinin bu səhifə - https://www.instagram.com/bakuartweekend?igsh=MWVwZDhnZ3p6c2JvdQ yeniliklərini izləyə bilərsiniz.

# "Azərbaycanın MDB məkanında fəallığı ölkəmizin xarici siyasət xəttinin tərkib hissəsidir"

**Azərbaycan üzv olduğu bütün beynəlxalq təşkilatların ən fəal üzvlərindəndir. Prezident İlham Əliyevin istər qlobal, istərsə də regional müstəvilərdə keçirilən tədbirlərdə irəli sürdüyü təkliflər dünya ictimaiyyəti tərəfindən maraqla qarşılanır. Dövlətimizin başçısının təşəbbüsləri beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır, ölkələrin və xalqların hüquqlarına hörmət olunmasına, ümumiyyətlə, bəşəriyyətin üzləşdiyi problemlərin həllinə xidmət edir. Prezident İlham Əliyev hər zaman dünyada haqqın, ədalətin tərəfdarı olub və milli maraqlarımızı üstün tutub.**



Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin Tacikistan lideri Emoməli Rəhmonun dəvətilə Düşənbəyə səfərini, səfər çərçivəsində keçirdiyi ikitərəfli və çoxtərəfli görüşləri, eləcə də MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışını dövlətimiz və xalqımız üçün çox əlamətdar hadisə kimi qeyd etmək olar: "Tacikistanda baş tutan görüşlərdə də ölkəmizin başçısının böyük lider, qətiyyətli, siyasi iradəyə malik şəxsiyyət, güclü siyasətçi olduğunun şahidi olduq. Ötən ilin dekabrında Qroznı üzərində təyyarəmizin Rusiya hərbçiləri tərəfindən vurulması çoxsaylı insan təlafatı ilə nəticələnmişdir. Baş vermiş hadisə ilə bağlı dövlətimizin başçısı Rusiya Federasiyasına qeyri-konstruktiv mövqeyinə görə qəti etirazını bildirmişdi. Bu qətiyyətli mövqedən sonra Düşənbədə Rusiya Prezidenti Vladimir Putinin İlham Əliyevlə görüşdə Azərbaycan tərəfinin haqlı tələblərini qəbul etməsi heç də təsadüfi sayılmamalıdır".

Ekspert qeyd edib ki, MDB Dövlət Başçıları Şurasının iclasında çıxış edən Prezident İlham Əliyev Azərbaycanın quruma üzv dövlətlərin hər biri ilə istər çoxtərəfli, istərsə də ikitərəfli formatda əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayıb. Bildirilib ki, Azərbaycan MDB-yə üzv dövlətlərin hər biri ilə siyasi, iqtisadi əlaqələrin yüksəlməsinə xidmət edən siyasət həyata keçirir.

Azərbaycanın MDB platformasında fəallığının ölkəmizin xarici siyasət xəttinin tərkib hissəsi olduğunu deyən K.Əliyeva vurğulayıb ki, son dövrlər MDB məkanında Azərbaycanın rolu bütün sahələrdə artmaqdadır: "Bu baxımdan Prezident İlham Əliyevin Tacikistan səfəri iqtisadi tərəfdaşlığa yanaşı, təhlükəsizlik baxımından da çox önəmlidir. Tacikistanda keçirilən MDB Dövlət Başçıları Şurasında bir daha şahidi olduq ki, bu nüfuzlu platformada da Azərbaycan sözlərin dövlətdir".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*



# Zəngəzur dəhlizinin xəritəsi hazırlanıb

**"Azərbaycan Kartoqrafları" İctimai Birliyi Zəngəzur dəhlizinin xəritəsini hazırlayıb. Xəritənin altlığı yüksəkkeyfiyyətli kosmik şəkillər əsasında tərtib edilib.**

Bu barədə "Azərbaycan Kartoqrafları" İctimai Birliyinin sədri Müqabil Bayramov açıqlama verib. O deyib ki, xəritədə Azərbaycan, Ermənistan, İrandan müvafiq hissələr - yaşayış məntəqələri, yollar, çaylar, dağlar verilib. Xəritədə həmçinin Araz dəhlizi öz əksini tapıb. Kartoqrafik əsər Azərbaycan və ingilis dillərindədir.

*"Azərbaycan"*




# Rusiyalı politoloq: "Azərbaycan-Rusiya münasibətlərinin normallaşması regionda sabitliyin bərpası baxımından xüsusi əhəmiyyət daşıyır"

**"Azərbaycan-Rusiya münasibətlərinin son dövrlər müşahidə olunan normallaşması prosesi regionda sabitliyin bərpası baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlət başçılarının Düşənbə görüşündə nümayiş etdirilən qarşılıqlı hörmət, üzrxahlıq jesti və konstruktiv dialoq iki ölkə arasında qarşılıqlı etimad mühitinin bərpa olunduğunu göstərir. Bu, təkcə Azərbaycan və Rusiya üçün deyil, ümumilikdə regional təhlükəsizlik arxitekturası üçün də müsbət siqnaldır".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında rusiyalı politoloq, Rusiya Federasiyasının birinci dərəcəli dövlət müşaviri, siyasi elmlər doktoru Tatyana Poloskova səsləndirib.

Onun sözlərinə görə, bəzi Qərb dairələri və Rusiyada fəaliyyət göstərən proermənі qruplar iki ölkə arasında münasibətlərin gərginləşməsində maraqlı olublar. "Mən heç vaxt şübhə etməmişəm ki, Azərbaycan və Rusiya prezidentləri ortaq dil tapacaqlar. Siyasi və iqtisadi əməkdaşlıq son aylarda da dayanmayıb. Təəssüf ki, bəzi səriştəsiz şəxslər məsuliyyətsiz bəyanatlarla bu münasibətlərə zərbə vurmağa çalışdılar. Onlar guya dövlət strukturlarından Azərbaycana və azərbaycanlılara qarşı hörmətsiz mövqe sərgiləmək üçün "icazə" aldıqlarını düşünürdülər. Əslində isə bu, həqiqətə uyğun deyil", - deyə T.Poloskova vurğulayıb.

O qeyd edib ki, erməni lobbisinin nümayəndələrinin Rusiya informasiya məkanında uzun illər fəaliyyət göstərməsinə baxmayaraq, bu gün onların təsir imkanları əhəmiyyətli dərəcədə azalıb. "Mən "Krokus"da törədilmiş terror aktı ilə bağlı ASALA izinə dair versiyanı səsləndirəndə bəzi radikal erməni fəallar tərəfindən təhdidlər alsam da, erməni icmasının məsul nümayəndələri özləri mənə yazaraq bu təhdidlərə əhəmiyyət verməməyimi istədilər. Bu terror aktında erməni izi ehtimalını səsləndirməyimin səbəbi də hadisənin üslubu və eyni anda orada Azərbaycan diasporunun tədbirinin keçirilməsi idi", - deyə politoloq bildirib.

Tatyana Poloskova vurğulayıb ki, Rusiya informasiya məkanında bəzi "ekspertlər" real vəziyyəti təhlil etmək əvəzinə, şəxsi reytinqlərini artırmaq məqsədilə qalmaqallı açıqlamalara üstünlük verirlər. Belə yanaşma isə nə dövlət maraqlarına, nə də peşəkar etika prinsiplərinə uyğun gəlir. Cənubi Qafqaz mövzularında çıxış edən bəzi "ekspertlər"in proqnozları reallıqla üst-üstə düşmür və belə şəxslər dövlətin reputasiyasına zərər vururlar.

"Azərbaycan-Rusiya münasibətlərinin sabitləşməsi hər iki dövlət, xüsusilə də Rusiya üçün həm siyasi, həm də iqtisadi baxımdan faydalıdır. Zəngəzur dəhlizi kimi yeni logistik imkanlar Rusiyanın regional iqtisadi maraqlarına əlavə üstünlüklər qazandıracaq. Mən bu ilin sonunadək azərbaycanlı tərəfdaşlarla birlikdə Bakıda kommersiya müəssisəsi açmağı planlaşdırıram və bunun doğru qərar olduğuna inanıram", - deyə müşavir qeyd edib.

Politoloq əlavə edib ki, Moskvada azərbaycanlıların öldürülməsi ilə bağlı hadisə iki ölkənin müvafiq qurumları tərəfindən birgə araşdırılır. Rusiyada yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsində diaspor təşkilatları daha fəal olmalıdır. Onlar yalnız mədəni və idman tədbirləri ilə məhdudlaşmamalı, real hüquqi və ictimai fəaliyyət də göstərməlidirlər.

"Mən yaxşı bilirəm ki, Azərbaycanda ruslara qarşı heç vaxt ayrı-seçkilik olmayıb. Onlar Azərbaycanı sevir, bu ölkəni öz vətənləri hesab edirlər. Eyni zamanda Rusiyada Azərbaycana, onun inkişafına hörmətlə yanaşan çoxsaylı insanlar var", - deyə politoloq əlavə edib.

Tatyana Poloskova xatırladıb ki, Azərbaycan və Bakı nefti olmasaydı, İkinci Dünya müharibəsində qələbə mümkün olmazdı. "Mənim babam Ural Könüllü Tank Korpusunun döyüşçüsü olub və bunu çox yaxşı anlayıram", - deyə ekspert bildirib.

Azərbaycan-Rusiya əməkdaşlığının qarşılıqlı maraqlara əsaslanan, strateji baxımdan mühüm tərəfdaşlıq olduğunu vurğulayan T.Poloskova bu münasibətlərin gələcəkdə daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.



# MÖHTƏŞƏM 22 İL 2003 2025



# Əzəmətli yüksəliş, möhtəşəm Zəfər, beynəlxalq ehtiram

## Bunlar son iyirmi iki ilin möcüzələridir

**Azərbaycanın son onilliklərinin tarixi xalqın və onun liderlərinin zəngin irsinin, bir-birini əvəzləyən uğur və zəfərlərin məcmusunda ifadə olunur. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin möhtəşəm qayıdışı ilə əsası qoyulan, 2003-cü ildə Prezident İlham Əliyevə dərin xalq etimadı ilə davam etdirilən müasir Azərbaycan tarixi uğurlu liderlik fəlsəfəsinin ən gözəl nümunəsi hesab olunmağa layiqdir. Düşünürəm ki, cənab İlham Əliyevin prezidentlik fəaliyyətinə başlamasının 22-ci ildönümü bu fikirləri səsləndirmək üçün əlverişli fürsətdir.**

### Xalqın müdrik seçimi

Xalqın taleyini təyin edən mühüm amillər sırasında doğru seçim haqqının müstəsna əhəmiyyətinin isbata ehtiyacı yoxdur. Bu haqq Azərbaycanın müasir tarixində dəfələrlə sınaqdan çıxmış, demək olar ki, aksioma çevrilən həyat fəlsəfəsi statusuna sahib olmuşdur. Zaman müstəqil Azərbaycanın tarixində təsadüfi seçimlərin gətirdiyi fəlakətlərin şahidi olduğu kimi, müdrik seçimlərin əvəzsiz rolunu da dəfələrlə sübuta yetirə bilmişdir. Ölkəmizdə insanlar müstəqilliyin qorunub saxlanmasına, seperatizmin, anarxiyanın, vətəndaş müharibəsi təhlükəsinin aradan qaldırılmasına, iqtisadi tənəzzülün cilovlanmasına görə 1993-cü ildə böyük siyasətçi, dahi insan Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışına vəsilə olan müdrik xalq seçiminə minnətdarlığını dəfələrlə ifadə edib və bu gün də etməkdədir.

Müasir tariximizdə yeni, əzəmətli dönüş nöqtəsinə təkan olan digər müdrik seçim nümunəsi isə 2003-cü ilin oktyabr ayına təsadüf edir. İlham Əliyevə qətiyyətlə və böyük çoxluqla səs verən insanlarımız növbəti müdrik seçim haqqını yenidən nümayiş etdirməklə Azərbaycanın sıçrayışlı inkişafına misilsiz töhfə verdilər.

2003-cü il seçiminin tarixi və taleyüklü əhəmiyyəti, ilk növbədə, Ümummilli Liderin zəngin siyasi irsinin və idarəçilik sisteminin növbəti illərdə ardıcıl surətdə və yaradıcılıqla davam etdirilməsi zərurətindən irəli gəlirdi. Həqiqət bundan ibarətdir ki, xalq müstəqil Azərbaycan dövlətinin gələcək taleyini, əldə olunan nailiyyətlərin qorunub saxlanılmasını, ölkənin ərazi bütövlüyünün təmin edilməsini və digər həyati əhəmiyyət kəsb edən vəzifələrin həllini Heydər Əliyev siyasətindən ayrılıqda təsəvvür etmir və etmək istəmirdi. Bu fikirlərin təsdiqi qismində mən 2003-cü ilin əvvəllərində o zaman Azərbaycanda fəaliyyət göstərən Beynəlxalq Respublikaçılar İnstitutunun sifarişi ilə tanınmış ABŞ şirkəti tərəfindən özlərinin daxili istifadəsi üçün keçirdikləri sosioloji sorğunu xatırlamaq istəyirəm. Sorğunun nəticələrinə görə, xalqın seçkiərəfəsi rəyi qəti şəkildə Heydər Əliyev siyasətinin alternativsizliyi amili üzərində qərarlaşırdı. Bu isə öz növbəsində siyasi varislik problemini 2003-cü il seçkilərinin başlıca siyasi şərti dərəcəsinə yüksəldə bilmişdi.

2003-cü il seçkilərinin mühüm əhəmiyyətini təyin edən digər vacib amil ölkənin qədəm qoymağa hazırlaşdığı yeni inkişaf mərhələsinə uyğun strategiyanın işlənib hazırlanması ehtiyaclarından qaynaqlanırdı. Ulu Öndər Heydər Əliyevin müdrikliyi və titanik fəaliyyəti sayəsində Azərbaycan dərin iqtisadi, siyasi və diplomatik böhrandan çıxaraq əhəmiyyətli inkişaf yoluna qədəm qoymuşdu. Müstəqil Azərbaycan dövlətçiliyi təkcə hüquqi-siyasi reallıq deyil, habelə iqtisadi və sosial gerçəklik olaraq qərarlaşmışdı. Bununla əlaqədar olaraq şərtlərin və vəzifələrin dəyişməsi yeni yanaşma və inkişaf strategiyasının tətbiq edilməsini obyektiv zərurət kimi qarşıya qoyurdu.

Sadalanan məqamlar siyasi fəallığı ilə cəmiyyətdə kifayət qədər tanınan və rəğbət qazanan İlham Əliyevin ictimai rəydə ən uğurlu namizəd kimi qəbul olunmasına etibarlı zəmanət verirdi. Onun yüksək intellekti, mükəmməl təhsili, dövlət idarəçiliyi sahəsində təcrübəsi ilə yanaşı, Heydər Əliyev siyasətinə sədaqəti xalqın seçiminin formalaşmasında həlledici amil rolunu oynayırdı.

2003-cü ilin oktyabrın 15-də keçirilən növbəti prezident seçkilərindən 22 il ötür. Arxada qalan illərin ən ibrətamiz və eyni zamanda qürurlandırıcı nəticəsi öz təsdiqini Prezident İlham Əliyevin insanların ona bəslədiyi bütün ümidləri doğrultmasında, Azərbaycan xalqına ləyaqətlə xidmət etməsində, ölkənin inkişafına xüsusi töhfə verən inkişaf strategiyasını işləyib hazırlamasında və uğurla həyata keçirilməsinə nail olmasında tapır.

Son 22 il ərzində əldə olunan müstəsna nailiyyətlər ölkəmizin yeni tarixinin fundamental əsasını təşkil etməkdədir. Azərbaycanın qüdrətli iqtisadiyyata çevrilməsi, dünyanın ən uğurlu gənc dövləti statusunu qazanması, insanların rifahının əhəmiyyətli dərəcədə yüksəlməsi, ölkənin simasının tanınmaz dərəcədə dəyişməsi və müasirləşməsi, onun regional liderliyinin birmənalı şəkildə etiraf edilməsi, habelə beynəlxalq iştirakçılıq səviyyəsinin artması əsası 2003-cü il seçimində qoyulan dəyişikliklərin məntiqi nəticəsi hesab edilməlidir.

2003-cü il seçiminin tarixi taleyinin ən parlaq təntənəsi isə özünü Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərdə, ölkənin ərazi bütövlüyünün bərpasında, 2023-cü ilin antiterror əməliyyatı sayəsində uzun illər Azərbaycanın ərazisində qanunsuz əməllər törədən seperatçı rejimin kökünün kəsilməsində büruzə verir.

Bu gün inkişaf edən, iqtisadi qüdrəti və diplomatik təşəbbüsləri ilə yüksək beynəlxalq etimada layiq bilinən qalib Azərbaycan 2003-cü ilin müdrik xalq seçiminin bəhrələrindən faydalanır, firavan gələcəyinə doğru inamla irəliləyir.

### Yeni dövrün yeni Lider baxışları

İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkənin sosial-iqtisadi həyatında köklü və hərtərəfli islahatların obyektiv zərurətə çevrildiyi tarixi dövrə təsadüf edir. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında müstəqil dövlət quruculuğu prosesinin uğurla başa çatması, yeni iqtisadi, siyasi və hüquqi islahatların həyata keçirilməsi, Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, liberal iqtisadiyyatın qərarlaşması müstəqil dövlət quruculuğu mərhələsinin başa çatmasını əks etdirən əsas məqamlar idi. XXI əsrin əvvəllərində ölkənin yeni inkişaf dövrünə qədəm qoyması və bununla əlaqədar olaraq zamanın ehtiyaclarını və başlıca inkişaf meyillərini əks etdirən strategiyanın cəmiyyətə təqdim edilməsi həyati zərurət kimi dərk edilirdi.

Yeni yanaşma və daha kreativ fəaliyyət formaları tələb edən məqamlar sırasında Heydər Əliyevin dərin zəkasının və iradəsinin məhsulu olan "Əsrin müqaviləsi"nin bəhrə verməyə başlaması Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin işə salınması hesab oluna bilər. Haqqında söhbət gedən sazişin sayəsində Azərbaycan nəinki beynəlxalq iqtisadi inteqrasiya prosesinin fəal tərəfdaşı statusunu qazanırdı, geosiyasi dividendlər əldə edirdi, habelə dövlətin xəzinəsinə on milyardlarla dollar neft vəsaitlərinin daxil olması dövrün maliyyə reallığına çevrilmişdi. Bu imkanların düzgün dəyərləndirilməsi, ən faydalı şəkildə onlardan istifadə edilməsi isə böyük təmkin, uzaqgörənlik və müdriklik kimi keyfiyyətləri nəzərdə tutur.

Ədalət naminə deməliyəm ki, İlham Əliyev cəmiyyətə təqdim etdiyi seçki proqramında yeni dövrün inkişaf strategiyasının ən əsas məqamlarını insanların diqqətinə çatdırmağı bacardı. Yoxsulluğa son qoyulması, işsizliyin aradan qaldırılması üçün radikal addımların atılması, o dövrün ən acı mənzərəsi olan çadır şəhərciklərinin ləğv edilməsi, Qarabağ münaqişəsini ədalətli şəkildə həll etmək naminə ordu quruculuğunun dövlətin və cəmiyyətin əsas prioritetinə çevrilməsi və s. sözügedən proqramın başlıca istiqamətlərini təşkil edirdi.

Sadalanan vəzifələrin hər biri XXI əsrin ilk illərinin ictimai rəyində mühüm yer tutan sosial və iqtisadi xarakterli hədəflər sayılırdı. Başqa sözlə ifadə edilsə, İlham Əliyevin seçki proqramı, əslində, xalqın mütləq əksəriyyətinin istək və arzularını özündə əks etdirən manifest adlandırıla bilər. Ölkə əhalisinin bütün təbəqələri - qadınlar, gənclər, bir milyona yaxın qaçqın və məcburi köçkünlər bu proqramda özlərinin gələcəyə baxışlarını görür, xəyallarında yeni Azərbaycanın əsas konturlarını canlandıra bilirdilər. Bu baxımdan təqdim olunan seçki proqramının ictimai dəstəyinin kifayət qədər yüksək olması elə ilk andan hər hansı şübhə doğurmurdu.

Onu da ayrıca vurğulamaqda fayda olduğunu düşünürəm ki, İlham Əliyevin seçki proqramı gözəl və cəlbedici vəd yox, konkret hədəflərə ünvanlanan fəaliyyət planı təəssüratı yaradırdı. Ölkəyə daxil olmağa başlayan neft pullarının onun reallaşmasının maliyyə əsasları kimi nəzərdən keçirilməsi proqrama ictimai inamı daha da gücləndirən məqam kimi qiymətləndirilməlidir.

Ulu Öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin alternativsiz olduğu qədər də daim təkmilləşməyə, yenilənməyə, müasir baxışlarla zənginləşməyə ehtiyac duyulduğunu Prezident İlham Əliyev aydın şəkildə dərk edirdi. Heydər Əliyevə məxsus məşhur "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisinin yaradıcılıqla inkişaf etdirilərək "sürətli iqtisadi yüksəliş müasir dövrün tələbidir" formasında cəmiyyətə təqdim etməsi haqqında söhbət gedən yaradıcı yanaşmanın sadəcə bir ifadəsidir. Məhz bunun sayəsində 2005-2015-ci illər arasında Azərbaycanın iqtisadiyyatı təxminən 3 dəfə artdı, ölkəmiz dünyanın ən uğurlu gənc dövləti statusuna sahib oldu.

Azərbaycanın sürətli inkişafı nəinki ölkənin iqtisadi qüdrətini artırdı, dövlətin dünya birliyində hörmətini yüksəltdi, eyni zamanda cəmiyyətin ictimai fəallıq əmsalına təkan verdi, yeni inkişaf modelinin formalaşmasına vəsilə oldu. Hesab edirəm ki, Azərbaycanın inkişaf modeli Prezident İlham Əliyevin yeni idarəetmə konsepsiyasının ilk və ən parlaq təntənəsi sayıla bilər.

Prezident İlham Əliyevin nöqteyi-nəzərincə, ölkənin iqtisadi sıçrayışının ən mühüm nəticəsi, eyni zamanda Azərbaycanın inkişaf modelinin xarakterik cəhəti mütləq şəkildə əhalinin rifahının yüksəlməsində özünün ifadəsini tapmalıdır. Bununla əlaqədar olaraq yoxsulluq səviyyəsinin azaldılması yeni siyasətin başlıca hədəfləri sırasında xüsusi yer tutmalı idi və təbii ki, tutmuş oldu. Dövlət başçısının fəaliyyətinin ilk illərində Azərbaycanda yoxsulluq səviyyəsi 49 faizdən təxminən 5 faizə endirildi və beləliklə, sosial sahədə gənc dövlətimizin uğur modelinin tanıtım nişanı rolunu oynaya bildi.

Yüksək iqtisadi inkişafı ölkənin sosial simasının dəyişməsindən ayrı təsəvvür etmək mümkün olmadığı kimi, yeni cəmiyyəti də müasirləşmədən kənarda qavramaq ağlabatan deyil. Ölkənin paytaxtı Bakının simasının qısa vaxtda inanılmaz dərəcədə müasirləşməsi yeniləşən Azərbaycanın sıçrayışlı inkişafının çox qabarıq təzahürü missiyasını uğurla yerinə yetirirdi və bu gün də yerinə yetirməkdədir desək, düşünürəm ki, səhv etmərik. Müasir Bakı, digər bölgələr dövlətin qüdrətinin, cəmiyyətin yeniləşməsinin, habelə Prezident İlham Əliyevin yeni baxışlarının ümumiləşmiş simvolu qismində bugünkü Azərbaycanın dünyaya yeni konsepsiyada təqdimatı kimi qəbul edilir.

İlham Əliyev tərəfindən Heydər Əliyev siyasətini yeni şəraitdə zənginləşdirməsinin ayrıca istiqaməti özünü ordu quruculuğunda daha aydın göstərməkdədir. Ənənəvi ordu quruculuğu formatından çıxaraq ən müasir döyüş üsullarına və texnologiyaya yiyələnən orduya üstünlük verilməsi bu yanaşmanı fərqləndirən xüsusiyyət sayıla bilər. Bunun sayəsində ordumuz həm Azərbaycanın iqtisadi qüdrətini, xalqın vətənpərvərliyini və milli ruhunu, həm də ən yeni hərbi texnikanı özündə birləşdirməklə tarixi Qələbəmizin başlıca təminatçısı vəzifəsini uğurla yerinə yetirməyə nail oldu.

Müasir dövlət anlayışını təyin edən amillər sırasında diplomatiyanın ayrıca rolu danılmazdır. Heydər Əliyev böyük səyləri nəticəsində Azərbaycan dövlətini özündən əvvəlki hakimiyyətdən miras qalan diplomatik təcriddən çıxara bildi. İlham Əliyev isə Heydər Əliyevin bu tarixi xidmətini daha da inkişaf etdirərək, hücumçu diplomatiya konsepsiyasını irəli sürdü. Ölkəmizin Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Qoşulmama Hərəkatına iki dönəm sədrlik etməsi, müasir dünyanın ən mötəbər tədbirlərindən sayılan BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflər Konfransına (COP29) evsahibliyi etməsi İlham Əliyev diplomatiyasının böyük uğurlarının yalnız kiçik siyahısıdır.

### Əsrə sığmayan möhtəşəm Zəfər

Müasir Azərbaycan tarixinin ən şərəfli və parlaq səhifəsini Vətən müharibəsində qazanılan əzəmətli Zəfər təşkil edir. Bu Qələbə 200 illik tariximizdə yeni mərhələnin başlanmasının, xalqın öz taleyinə fərqli fəlsəfə prizmasından yanaşmasının, əbədi qəhrəmanlıq və milli dəyanət ideallarının simvolu sayılır.

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycan torpaqlarının bir qisminin Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilməsi cəmiyyətin həyatında və dövlətinin fəaliyyətinin motivasiyasında köklü dəyişikliklərlə yadda qalmışdır. 30 ilə yaxın davam edən erməni işğalı dövründə həlledici siyasi amil milli təhlükəsizlik vəzifələrindən qaynaqlanırdı. Eynilə də, hakimiyyət fəlsəfəsi, onun uğur mənbəyi, ictimai dəstəyi və tarixi missiyası problemləri işğala qarşı mübarizə və onun həqiqi vəziyyəti ilə sıx əlaqədə nəzərdən keçirilirdi. Problemin həlli istiqamətində real addımlar ata bilməyən hakimiyyətin yaşamaq ehtimalının ciddi şübhə altında olmasının ictimai rəydən irəli gələn ağır siyasi hökm kimi qiymətləndirilməsi qaçılmaz idi. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin tarixi qayıdışına qədər ölkədə baş verən ardıcıl hakimiyyət dəyişiklikləri, əslində, yuxarıda qeyd olunan səbəblər məcmusuna malik olmuşdur.

Çoxsaylı siyasi böhran və hakimiyyət dəyişiklikləri fonunda Heydər Əliyev iqtidarının dayanıqlılığının əsas səbəbləri sırasında erməni təcavüzünün dayandırılması, atəşkəs rejiminin tətbiq olunması müstəsna rola malikdir. 1994-cü ildə qərarlaşan atəşkəs əvvəla, erməni işğalına qarşı ilk ciddi əks-təsir tədbiri təsiri bağışlayır, ikincisi isə, gələcək revanş üçün həyati vacib zaman qazanmaq fürsəti hesab edilirdi.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev özünün siyasi missiyasının Qarabağ münaqişəsinin uğurlu həllindən ibarət olduğunu aydın şəkildə dərk edirdi. Onun seçkiqabağı proqramında "Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsindən çox olacaq" sözlərində ifadə olunan hərbi doktrinası, əslində, münaqişənin həllinə gələcək prezidentin yanaşmasının həm sərtliyini, həm də kifayət qədər praqmatikliyini əks etdirirdi. Azərbaycanın ərazi bütövlüyünün uğurlu həlli siyasətinin əsas hədəfinin müasir ordunun yaradılmasına və onun ən yeni silahlarla təchiz edilməsinə yönəldiyi aydın şəkildə sezilməkdə idi.

Milli təhlükəsizliyi qorumaq kimi vacib vəzifəni yerinə yetirən ölkələr və onların rəhbərlərinin atdığı ilk addım, adətən, ordunu gücləndirməkdən ibarət olur. Bu xüsusda Prezident İlham Əliyevin ordu quruculuğuna həssas yanaşması tarixdən məlum olan nəhəng sərkərdələrə xas strateq düşüncəsinin yeni və uğurlu nümunəsi sayıla bilər və sayılmalıdır. Dövlətin hərbi gücü onun yenilməz ordusundadır. Lakin dünya hərb tarixi ordunun sərkərdəsiz, onun strateq düşüncəsindən, müdrikliyindən və qətiyyətindən kənarda yaradılmasına dair bir nümunə belə göstərə bilmir. Yenilməz ordu sərkərdə müdrikliyinin və qətiyyətinin ifadəsi olduğu qədər də nəticəsidir. Bu həqiqət 44 gün davam edən Vətən müharibəsində bir daha öz təsdiqini tapdı. Qazanılan möhtəşəm Zəfər İlham Əliyevin rəhbərliyi altında dünyanın müasir və yüksək döyüş qabiliyyətinə malik Azərbaycan Ordusunun qüdrətinin nümayişi olmaqla yanaşı, həm də dövlət başçısının nəhəng sərkərdə düşüncəsinin təntənəsinə çevrildi.

Qeyd etməyi vacib sayıram ki, Azərbaycan Qarabağ münaqişəsinin nizama salınması yönündə illər boyu kifayət qədər iradə və qətiyyət göstərib, siyasi-diplomatik imkanlardan, beynəlxalq vasitəçilərin missiyasından faydalanmağa çalışıb. Bununla belə Qarabağ münaqişəsinin nizama salınması, ədalətin bərpa olunmasında hərbi-siyasi vasitələrdən istifadə olunması ehtimalı heç zaman nəzərdən qaçırılmamışdır. Beynəlxalq vasitəçilərin "Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolu yoxdur" tezisinə qarşı Azərbaycanın Prezidenti İlham Əliyev tərəfindən "münaqişənin həllinin hərbi-siyasi yolu var" tezisinin irəli sürülməsi yuxarıda qeyd edilən fikrin ən bariz ifadəsi sayıla bilər. Uzun illər ATƏT-in Minsk qrupunun həmsədrlərinin öz missiyasına kifayət qədər məsuliyyətlə yanaşmaması və problemin həllinin diplomatik üsulunu tapa bilməməsi hərbi-siyasi yolun qaçılmazlığına inamı artıran əsas amil idi. Azərbaycanın Silahlı Qüvvələrinin gücləndirilməsi, ən müasir silahlarla təchiz edilməsi, əsgər və zabitlərin döyüş qabiliyyətinin və vətənpərvərlik ruhunun yüksəldilməsi aktuallığını nəinki saxlayır, həm də daha böyük məna kəsb edirdi. Azərbaycanın artmaqda olan iqtisadiyyatı isə öz növbəsində ordu quruculuğunun qarşısında yeni imkanlar açırdı. Bir neçə il ərzində Azərbaycanın hərbi büdcəsinin Ermənistanın dövlət büdcəsini üstələməsi, hər şeydən əvvəl, bu iki dövlətin imkan və resurslarının ciddi şəkildə fərqləndiyini göstərirdi. Lakin haqqında söhbət açdığımız mənzərəni yalnız imkanlar arasında fərqin nəticəsi kimi qiymətləndirmək düzgün olmazdı. Bu, daha çox seçilmiş yolun və strategiyanın məntiqi yekunu baxımından nəzərdən keçirilməlidir. Həyat, Möhtəşəm Zəfər Prezident İlham Əliyevin bu strategiyasının müdrikliyini və ləyaqətliliyini bütünlüklə sübuta yetirdi.

Prezident İlham Əliyevin rəhbərliyi altında işlənib hazırlanan düzgün strategiya, formalaşan müasir güclü ordu, Azərbaycanın iqtisadi qüdrəti, əsgər və zabitlərin döyüş ruhu və şücaəti, nəhayət, xalqın birliyi və yüksək milli ruhu 22 ilin ən böyük möcüzəsi olan möhtəşəm Zəfəri təmin etdi. Nəinki işğal edilən torpaqlar geri qaytarıldı, habelə yüz illər ərzində bölgədə dəfələrlə fəlakətlərə səbəb olan millətçi-seperatçı dəstə ləğv edildi. İnanırıq ki, əvvəlki dövrlərdə olan analoji münaqişələrin nizamlanmasından fərqli olaraq, sülh Azərbaycana artıq birdəfəlik gəlib. Vətən müharibəsində Zəfərin və 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror əməliyyatının tarixi əhəmiyyəti onilliklərlə deyil, əsrlərlə ölçülən parametrlərə malik olduğu kimi, sülhün əbədiliyinə inam da kifayət qədər ciddi əsaslara istinad edir. Onu möcüzəyə çevirən əsrə sığmayan məna, dəyər və əhəmiyyət kəsb etməsi, Azərbaycanın gücünün və onun lideri İlham Əliyevin qüdrətinin ifadəsi olmasıdır.

### Prezident İlham Əliyevin sülh və əməkdaşlıq təşəbbüsləri

Azərbaycanın son 22 il ərzində möcüzəni xatırladan iqtisadi, sosial, siyasi inkişafı, Qarabağ münaqişəsinin ədalətlə və milli maraqlar baxımından şərəflə həll edilməsi dövlətin beynəlxalq iştirakçılığının əhəmiyyətli dərəcədə həm fəallaşmasına, həm coğrafiyasının genişlənməsinə, həm də forma rəngarəngliyinin zənginləşməsinə böyük imkanlar yaradıb. Ölkənin sürətli transformasiya mərhələsinə daxil olması aydın şəkildə özünü büruzə verməkdədir. İqtisadi gücün hərbi-siyasi gücə, sonuncunun isə yeni iqtisadi imkanlara keçid etməsi tarixi təcrübədə dəfələrlə müşahidə olunub və olunmaqdadır. Azərbaycan nümunəsi bu tarixi qanunauyğunluğu yeni şəraitdə bir daha təsdiq etməklə onu daha da zənginləşdirmişdir. 2005-2020-ci illər arasında ölkənin artan iqtisadi imkanları hərbi-siyasi gücə çevrilərək tariximizin ən şərəfli səhifələrindən olan möhtəşəm Zəfərin qazanılmasına gətirib çıxarmışdır. İndi isə güclü ordu və qalib dövlət amilləri Azərbaycanın regional və beynəlxalq təşəbbüslərinin yolunu açmaqla yeni iqtisadi imkanlarının yaranmasına etibarlı zəmin hazırlayır. Regional lider kimi formalaşan Azərbaycan bu gün Cənubi Qafqazda sülh və əməkdaşlığın etibarlı qarantı rolunu oynamaqdadır.

Qarabağ münaqişəsinin həll olunması regionun həyatında və regiondaxili münasibətlərdə fərqli meyillərin meydana çıxması ilə müşayiət olunmaqdadır. Münaqişə və qarşıdurma münasibətlərinin sülh gündəliyi ilə əvəzlənməsi üçün qeyri-adi fürsət yaranıb. İbrətamiz haldır ki, 30 il erməni hərbi təcavüzünə məruz qalan, böyük məhrumiyyətlərlə və itkilərlə üzləşən Azərbaycan bu gün keçmiş təcavüzkar da daxil olmaqla regionun bütün xalqlarına əməkdaşlıq çağırışları ilə həqiqi tolerantlıq və praqmatiklik mövqeyi nümayiş etdirir.

Ayrıca vurğulamaqda fayda var ki, münaqişə və müharibə dövrünün qətiyyətli Lideri missiyasını yüksək ləyaqətlə yerinə yetirən Prezident İlham Əliyev postmünaqişə dövrünün sülhsevər Lideri funksiyasını da eyni uğurla yerinə yetirməkdədir. 2020-ci ilə qədərki Azərbaycanın qələbə gündəliyi sülh və əməkdaşlıq hədəflərinə ünvanlanıb.

Azərbaycanın hərbi qələbəsinin müəllifi olan Prezident İlham Əliyevin sülh və əməkdaşlıq gündəliyinin qurucusu kimi tamamilə yeni tarixi missiyanı öz üzərinə götürməsi onun Lider müdrikliyinin və uzaqgörənliyinin yeni təzahürü kimi qiymətləndirilməlidir. Qələbənin qazanılmasında gücün alternativi olmadığı kimi, iqtisadiyyatın inkişafı yolunda sülh və əməkdaşlıq kimi amillərin müstəsna rolu da əvəzolunmazdır.

Qarabağ münaqişəsinin başa çatması, postmünaqişə dövründə Cənubi Qafqazda sülh və əməkdaşlıq mühitinin formalaşması ilə yanaşı, ölkənin artan beynəlxalq nüfuzu Prezident İlham Əliyevin yeni təşəbbüslərinə əlavə təkan verir. Avqust ayının 8-də Vaşinqtonda keçirilən görüşlər, paraflanan sənədlər, dünyanın superdövlətinin Azərbaycanın regional inkişaf proqramlarının həyata keçirilməsinə zəmanət verməsi ölkəmizi gözləyən yeni möcüzənin müjdəsi sayıla bilər.

*Zaman Prezident İlham Əliyevin haqqını və haqlı olduğunu dəfələrlə təsdiq edib. Lideri haqlı və güclü olan dövlətin uğur və ucalmağını tale özü niyaz edir. Mən 22 il Azərbaycana uğurlar bəxş edən Prezident İlham Əliyevin yeni nailiyyətlərə öz möhürünü vuracağına dərindən inanıram.*

***Əli ƏHMƏDOV,***
***Milli Məclis Sədrinin birinci müavini,***
***Yeni Azərbaycan Partiyası Sədrinin müavini***



# MÖHTƏŞƏM 22 İL 2003 2025



# Azərbaycanın bugünkü və sabahkı inkişafının təminatçısı

**Vaxtilə Ulu Öndər Heydər Əliyev xalqa öz tarixi müraciətində demişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək".**

2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə xalq öz səsini Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə və ölkədə sabitliyin qorunmasına verdi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. Özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi Prezident, Ali Baş Komandan tək Ümummilli Liderin deyil, hər bir azərbaycanlının ümidlərini doğrultdu. Xalqımız ona etimad göstərməklə həm də öz seçimində yanılmadığını gördü. İlk andiçmə mərasimində "hər bir azərbaycanlının Prezidenti "olacağına söz verən dövlət başçısı öz andına sadiq qaldı.

O zamandan 22 il ötür. Bu gün Azərbaycan özünün ən şərəfli, məsuliyyətli və tarixi dövrünü yaşayır. Bu dəyişən dünyada yeni ictimai-siyasi baxış və islahatların keçirilməsi zərurəti yaranır. Proses davamlı, dayanıqlı və Azərbaycanın maraqlarına uyğun olmalıdır. Dövlət başçısının irəli sürdüyü və həyata keçirdiyi davamlı inkişaf konsepsiyası dövlətimizin və xalqımızın tərəqqisinə, onun parlaq gələcəyinə hesablanmışdır. Cənab İlham Əliyev öz fəaliyyəti ilə həm partiya sədri, həm Prezident, həm də Ali Baş Komandan kimi hər bir vətəndaşımızın maraqlarını müdafiə etmiş, hər bir azərbaycanlının Prezidenti olduğunu dəfələrlə sübuta yetirmişdir.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin ideyalarını daha da inkişaf etdirərək uğurlu daxili və xarici siyasət həyata keçirir. Bunun nəticəsində Azərbaycan müstəqil dövlət olaraq daha da güclənir, dünya miqyasında söz sahibi olan dövlətə çevrilir. 30 ilə yaxın həsrətində olduğumuz torpaqlarımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin erməni işğalından azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Bu, Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Qələbədir! Bu bizim qəhrəman, igid əsgər və zabitlərimizin, Ali Baş Komandan, Prezident İlham Əliyevin siyasi qətiyyəti nəticəsində baş verdi. 2023-cü ildə təxminən 1 gün davam edən lokal xarakterli antiterror tədbirləri keçirərək suverenliyimiz tam bərpa olundu. Artıq xalqımız daha işğal günlərini qeyd etmir. Bu gün hər birimiz tarixi Qələbəyə görə Müzəffər Ali Baş Komandana və ordumuza minnətdardır.

Bir məsələni də unutmaq olmaz ki, keçən dövr elə də asan olmayıb. Azərbaycanı hər zaman daxildən parçalamaq, onu inkişafdan geri salmaq, ən əsası isə Qarabağın işğalı ilə barışmağa məcbur etmək kimi çətinliklərə və təhlükələrə baxmayaraq, Prezident İlham Əliyev bütün bu problemləri həll etməyi bacardı. Bu isə böyük siyasi məharət, iradə, qətiyyət tələb edirdi. Azərbaycan bu illər ərzində özünü müstəqil dövlət kimi təsdiq edə bildi. Və ildən-ilə biz dövlət başçısının həm daxili, həm də xarici siyasətində əldə etdiyi nailiyyətləri görürük. Bunu həm də dünya görür. Baxmayaraq ki, Azərbaycan kiçik bir ölkədir, lakin Prezident İlham Əliyevin siyasi müdrikliyi nəticəsində hazırda bütün maraqların kəsişdiyi coğrafi məkana çevrilir. Bu gün əksər regional və ya beynəlxalq layihələr Azərbaycanın iştirakı olmadan reallaşmır. Azərbaycanın rəhbəri Cənubi Qafqazda yeni siyasi və iqtisadi vəziyyət yarada bildi və bu, dünya dövlətləri tərəfindən də qəbul edilir.

Qalib liderin qəbul etdiyi milli strategiyanın nəticəsidir ki, hazırda ölkəmiz yeni inkişaf dövrünü yaşayır. Xarici və daxili siyasətdə əldə olunan uğurlar bu strategiyanın nə qədər düzgün və aydın planlaşdırıldığını nümayiş etdirir. Cənab İlham Əliyev ölkəmizə rəhbərliyi dövründə hər bir azərbaycanlının prezidenti olduğunu dəfələrlə sübut etmişdir. "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" deyərək bütün fəaliyyəti, amalı qurub-yaratmaq, xalqımızı daha xoş günə, daha firavan həyata qovuşdurmaq olan dövlət başçısı dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi, daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilən elektron xidmətlərə keçidin sürətləndirilməsini təmin etdi. Təsadüfi deyil ki, Azərbaycan brendi olan "ASAN xidmət" brendindən sonra DOST konsepsiyası da növbəti bir uğurlu layihə kimi vətəndaşları məmnun edir. Hər iki layihə dünyada böyük maraq doğurub və bu təcrübə bir sıra ölkələr tərəfindən öyrənilir. Həyata keçirilən sosial layihələr əhalinin, xüsusilə də həssas təbəqədən olan vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin daha da gücləndirilməsinə öz mühüm və müsbət təsirini göstərir. Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı tədbirlər gördü. Nəhəng infrastruktur layihələri həyata keçirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. Olimpiya idman komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına, yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafına, minlərlə məktəb tikilməsi və təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi təhsilin zamanın tələblərinə uyğun qurulmasına mühüm töhfələr verdi. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı təsdiqlədiyi dövlət proqramları şəhərlə kənd arasında fərqi aradan qaldırılmış və Azərbaycanın regionları bütün zəruri infrastrukturla təmin olunmuşdur.

Ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiə edilməsi dövlət siyasətinin mühüm tərkib hissələrindən biridir. Bu istiqamətdə Azərbaycanda güclü qanunvericilik bazası formalaşmışdır. Ölkəmizdə aztəminatlı və həssas qrupdan olan ailələrə xüsusi diqqət yetirilir. Bu gün qadınların öz potensiallarını reallaşdırmaları və sosial-iqtisadi sferada fəal iştirak etmələri üçün respublikada bütün imkanlar yaradılmışdır. Xüsusilə regionlarda qadınların seçimində üstünlük təşkil edən ənənəvi sahələrin inkişaf etdirilməsi nəticəsində həm qadınlar, həm də ölkə iqtisadi cəhətdən güclənir. Dövlət başçısının sərəncam və fərmanları ilə qəbul edilmiş xüsusi dövlət proqramları və qanunvericilik aktları nəticəsində uşaqların fiziki və mənəvi inkişafına, onların təhsilinə, gündən-günə dövlət qayğısı artır.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın hər bir vətəndaşla - ağsaqqal, ağbirçək, orta nəslin nümayəndəsi, gənclər, uşaqlarla səmimi ünsiyyəti hər bir dövlət məmuruna nümunədir. Xüsusi ilə qeyd etmək lazımdır ki, Mehriban xanım Əliyevanın ölkənin birinci xanımı kimi fəaliyyəti ölkəmizin inkişafında, onun dünyada təbliğ olunması və tanınmasında, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında danılmaz rol oynayır. Yeri gəlmişkən, qeyd edək ki, Birinci vitse-prezidentlik institutunun təsis olunması dövlət idarəçilik sisteminin təkmilləşdirilməsinə xidmət edən mühüm addımdır. Dövlət idarəçiliyində funksional vahid kimi Birinci vitse-prezidentlik institutunun yaradılması Azərbaycanın müasir demokratik simasının yeni və mütərəqqi bir əlamətidir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva isə fəaliyyəti ilə dövlət idarəçilik sisteminə müasirlik qatır və peşəkarlıq amilinin aktuallığını artırır.

Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən enerji siyasəti nəticəsində reallaşan layihələr regional çərçivələrdən çıxaraq qlobal miqyas almışdır. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan "Cənub qaz dəhlizi" layihəsinin aparıcı qüvvəsi kimi çıxış etməyə başladı. Neft-qaz sahəsində qazandığı uğurları davam etdirən ölkəmiz Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə start verdi. Bununla da Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan "Cənub qaz dəhlizi" layihəsinin aparıcı qüvvəsi kimi çıxış etdi. Bundan başqa, Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkəmizin dünya enerji sənayesində həlledici rolu olduğunu bir daha təsdiqlədi. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı kimi çox böyük tarixi hadisə baş verdi. Asiyanı Avropa ilə birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, Azərbaycan neftini birbaşa dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi kimi nəhəng layihələrin icrasına nail olundu.

Prezident İlham Əliyevin müəllifi olduğu və həyata keçirdiyi davamlı inkişaf konsepsiyası dövlətimizin və xalqımızın tərəqqisinə, onun parlaq gələcəyinə hesablanmışdır. Vahid dövlətçilik siyasətinizə, əsasən, Azərbaycan iqtisadi, siyasi, mədəni, sosial, hərbi, idman və digər sahələrdə dayanmadan inkişaf edir. Əhalinin sosial rifahının yaxşılaşdırılması, qanunvericilikdə islahatların aparılması, mədəni irsin və dəyərlərin dünyada tanıdılması, beynəlxalq təşkilatlarla və dövlətlərlə ikitərəfli və çoxtərəfli əlaqələrin, strateji əməkdaşlığın genişləndirilməsi ölkədə gedən inkişafın nəticəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxtərəfli xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Həyata keçirilən praqmatik xarici siyasət strategiyası ölkəmizə beynəlxalq münasibətlər sistemində müstəqil xarici siyasət həyata keçirən milli dövlət kimi etibarlı strateji tərəfdaş imici qazandırıb. Regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsinə, bölgədəki əməkdaşlığın dərinləşməsinə xidmət edib. Milli mənafelərlə bağlı problemlərin həllinə həssas və fəal yanaşma uzaq və yaxın xaricin də diqqətindən yayınmadı. Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, dünyada beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycan Prezidentinin bu məsələdəki birmənalı mövqeyi təsdiqlədi ki, Qarabağın Azərbaycandan ayrılma mexanizmi yoxdur. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına mühüm töhfələr verir. Cənab İlham Əliyev türk dünyasının Birliyinin yaranması üçün addım-addım, çox dərindən düşünülmüş və gələcəyə hesablanmış formada, daha əsaslı şəkildə reallaşması üçün misilsiz xidmətlər göstərir.

Ötən dövr ərzində Azərbaycanın tərəqqisi naminə həyata keçirilən siyasət sayəsində ölkəmiz sosial-iqtisadi sahədə, dövlət quruculuğunda və beynəlxalq aləmdə uğurlar qazanmışdır. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Prezident İlham Əliyev düşünülmüş islahatları və müdrik qərarları ilə bir çox yeniliklərə imza atdı. Azərbaycanda siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi formalaşdırdı.

Mütəmadi olaraq siyasi partiyalarla keçirilən görüşlər ölkədə siyasi konfiqurasiyanın təmin olunması sahəsində mühüm addımlardan biridir. Siyasi islahatların dərinləşməsinə, ölkəmizin inkişaf etməsinə, dövlətimizin daha da güclənməsinə səbəb olacaqdır. Eyni zamanda Yeni Azərbaycan Partiyası da zamanın tələblərinə, dövrün çağırışlarına, eləcə də ölkədə gedən proseslərə adekvat olaraq islahatlar həyata keçirir.

Prezident İlham Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən biri də hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan nailiyyətlərdir. Bunun nəticəsində Azərbaycanda təkmil siyasi sistem bərqərar olunub. Qanunvericilik bazasının təkmilləşdirilməsi, hüquq və azadlıqların təmin olunması istiqamətində görülən tədbirlər, siyasi plüralizmin dəstəklənməsi, çoxpartiyalı sistemin inkişafı və digər istiqamətlər üzrə prioritet hesab olunan prinsiplər ölkədə davamlı demokratik cəmiyyətin inkişafından xəbər verir.

Dünyada tolerantlıq məkanı kimi tanınan Azərbaycan Prezident İlham Əliyevin xidmətləri sayəsində mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanına çevrilib. Azərbaycanda dini və milli tolerantlığın mövcudluğunu onun dövlətçilik tarixi təsdiq edir. Ölkəmizdə tarixən çoxsaylı etnosların və müxtəlif dinlərin birlikdə yaşamasına baxmayaraq, indiyə kimi heç vaxt bu ərazidə milli ayrı-seçkilik baş verməmiş və dini qarşıdurma olmamışdır. Prezident İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən müxtəlif səviyyəli tədbirlər Azərbaycanı regionda və dünyada tolerantlıq nümunəsinə çevirmişdir. Həmçinin Azərbaycanın bu təcrübəsi dünyada gedən proseslərə müsbət töhfələr verir. Dövlət başçısı çıxışı zamanı bu məsələyə xüsusi toxundu: "Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır, eyni zamanda mədəniyyətlərarası dialoqda fəal rol oynayır. Multikulturalizm dövlət siyasətimiz və həyat tərzimizdir. Azərbaycan xalqı etnik, dini mənsubiyyətindən asılı olmayaraq, digər millətlərlə hər zaman ahəngdar şəkildə, bir ailədəki kimi yaşayır". Cənab İlham Əliyevin bu fikirləri əslində, bir çox məsələyə aydınlıq gətirir. Məlumdur ki, qloballaşma prosesi hər birimizi ümumi məkanın sakinlərinə çeviribdir. Burada insanlararası, dövlətlərarası, xalqlararası dialoq məhz etik normaları, haqq-ədalət prinsipləri əsasında qurulmalıdır. Milli özünəməxsusluğu saxlamaqla bəşəri-mədəni dəyərləri mənimsəmək tolerantlığın ən vacib amilidir. Bu prinsip və normalara əməl olunmadıqda düşmənçilik, dözümsüzlük, etnik təmizləmələr, soyqırımı, müharibələr baş verir. O, dövlət quruculuğu məsələlərində beynəlxalq tendensiyaları nəzərdə saxlayaraq, ölkənin müasir inkişaf strategiyasını yaratmaqla onu qlobal təhlükələrdən qoruya bildi. Dövlət başçısı islamofob dairələrin və anti-Azərbaycan mərkəzlərin ölkəmizdə yaratmaq istədikləri "idarə olunan xaos" planını məharətlə pozdu. Bu plana qarşı dəqiq və olduqca incə düşünülmüş milli vətənpərvərlik, milli mədəni-mənəvi və ailə dəyərlərini önə çəkdi. Dünyaya "Bakı Prosesi" layihəsini təqdim etdi.

Prezident İlham Əliyevin gənclərin potensialının artırılmasına, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Mütəmadi olaraq təkmilləşdirilən gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaradıb. Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır.

Ötən dövr ərzində Azərbaycanda bir çox mötəbər tədbirlər keçirilmişdir. Lakin 2024-cü ildə COP29 kimi dünya miqyaslı tədbirə evsahibliyi etməklə təşkilatçılıq bacarığını ortaya qoydu. BMT-nin bu ali tədbirini yüksək səviyyədə təşkil edən ölkəmizin beynəlxalq nüfuzu daha da möhkəmləndi. Bakıda keçirilən COP29 sammitində gərgin iş nəticəsiz qalmadı - ekspertlər əldə olunmuş ilk razılaşmalardan məmnunluqla danışırlar. Xüsusilə, forum iştirakçıları qlobal "yaşıl" gündəliyin mühüm vəzifələrini, BMT-nin məqsədlərinə çatmaq üçün atılan addımları, qlobal temperatur artımının məhdudlaşdırılması üzrə Paris Sazişində təsbit olunmuş iqlim öhdəliklərinə sadiqliyini fəal şəkildə nümayiş etdirərək müzakirə ediblər. COP29 əvvəlki konfranslardan yaxşılığa doğru fərqlənir. Bu, ilk növbədə, iqlim layihələrinin maliyyələşdirilməsinin müzakirəsi ilə bağlıdır. COP29-da artıq 100 milyard dollar dəyərində iqlim dəyişikliyi proqramları üçün maliyyələşdirmə barədə razılığa gəlindi. Bu da onu göstərir ki, müxtəlif ölkələrin təmsil olunduğu dünya ictimaiyyəti buna bir neçə il əvvəlkindən qat-qat ciddi yanaşır. COP29-un digər uğurlarından biri də dünyanın Afrika ölkələrinin, Yaxın Şərq və Asiya dövlətlərinin səsini çox aydın eşitməsidir.

Məlumdur ki, Paris Sazişi çərçivəsində həllini tapmayan əsas məsələlərdən biri də karbon bazarlarının tənzimlənməsini nəzərdə tutan 6-cı maddə idi. COP29-da bu məsələ ilə bağlı irəliləyiş qlobal iqlim siyasəti tarixində dönüş nöqtəsi desək, yanılmarıq. Karbon kreditlərinin beynəlxalq mübadiləsi və iqlim maliyyəsi ilə bağlı mexanizmlər xüsusilə inkişaf etməkdə olan ölkələr üçün böyük əhəmiyyət kəsb edir. ABŞ və Avropa İttifaqının rəhbərliyi ilə əldə olunan razılaşma Azərbaycanın təşkil etdiyi tədbirin tarixi əhəmiyyətini daha da gücləndirdi. 2015-ci ilin dekabrında Parisdə COP21 çərçivəsində qəbul edilmiş Paris Sazişi qlobal iqlim dəyişikliyi ilə mübarizədə ən mühüm hüquqi sənəd kimi tarixə düşüb. Razılaşmanın əsas məqsədi qlobal istiləşməni Sənaye İnqilabından əvvəlki səviyyələrlə müqayisədə 2°C-dən aşağı saxlamaq və limiti mümkün qədər 1,5°C-ə yaxın saxlamaqdır. Bu məqsəd həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin birgə fəaliyyətini tələb edir və qlobal əməkdaşlıq üçün vahid çərçivə yaradır. COP29-dan əsas gözlənti iqlim maliyyəsi üçün ədalətli və iddialı Yeni Kollektiv Kəmiyyət Məqsədinin (NCQG) razılaşdırılmasıdır. COP29-un sədrliyi 14 təşəbbüs irəli sürmüşdür. COP29 zamanı əldə edilmiş iqlim maliyyəsi sazişləri qlobal səviyyədə davamlı inkişaf üçün yeni imkanlar açmışdır. Dünya Bankı maliyyə öhdəliyini 170 milyard dollara çatdıracağını açıqlayıb. Bundan əlavə, Aİ və digər beynəlxalq maliyyə institutları inkişaf etməkdə olan ölkələr üçün əlavə iqlim fondları ayırmağı öhdələrinə götürüblər. Bu vəsaitlər təmiz enerji texnologiyalarının tətbiqi, karbon emissiyalarının azaldılması və ekoloji layihələrin həyata keçirilməsi üçün istifadə olunacaqdır. Bir sözlə, dövlət başçısı İlham Əliyevin sözləri ilə desək: "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsi" kimi tarixə düşdü.

Avqustun 8-də Vaşinqtonda imzalanan Birgə Bəyannamə sülh müqaviləsi istiqamətində atılan ən mühüm addımdır. Vaşinqtonda əldə olunan tarixi nəticələr - sülh sazişinin paraflanması, ATƏT-in Minsk qrupunun ləğv edilməsi, Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə bağlı razılaşma, - onu göstərir ki, Cənubi Qafqaz bir neçə il əvvəl qeyri-mümkün görünən tektonik dəyişiklikləri yaşayır. Artıq regionumuz uzun sürən münaqişənin davamlı sülh və mehriban qonşuluq mərhələsinə qədəm qoyur. Bu yeni reallığın baş memarı hərbi-siyasi vasitələrlə ölkənin ərazi bütövlüyünü bərpa edən və bununla da bütün regional arxitekturanı yenidən yaradan Prezident İlham Əliyevdir.

*Bu gün dünya miqyasında çox az lider var ki, uzun müddət davam edən silahlı münaqişəyə son qoymağa, öz ölkələrinin ərazi bütövlüyünü bərpa etməyə, münaqişədən sonrakı inkişafa keçidi təmin etməyə nail olubdur. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan məhz belə bir nümunədir. Azərbaycanın Qarabağ nümunəsi nümayiş etdirir ki, ən çətin münaqişələri belə siyasi iradə, strateji planlaşdırma və güclü liderliklə həll etmək olar.*

*Bəli, Qalib Ali Baş Komandan İlham Əliyev təkcə dünənin və bu günün deyil, həm də gələcəyin lideridir və Azərbaycan onun rəhbərliyi ilə daha da güclənəcək, xalqın rifahı daha da yaxşılaşacaq.*

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor***



# MÖHTƏŞƏM 22 İL 2003 2025

# Savaşın da, barışın da qalibi

**15 oktyabr müasir Azərbaycan tarixinin əlamətdar günlərindən biridir. 2003-cü ildə məhz həmin gün Azərbaycan xalqı İlham Əliyevi Prezident seçib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın keçdiyi dinamik inkişaf yolu, qüdrətli dövlətə çevrilməsi və torpaqlarını işğaldan azad etməsi Ulu Öndər Heydər Əliyevin əsaslarını müəyyən etdiyi siyasi kursun dövlətimizin və xalqımızın milli maraqlarını layiqincə təmin etdiyini göstərir.**

Ümummilli Lider Heydər Əliyev xalqını düşünərək, dövlətin gələcək taleyinə biganə qalmayaraq, eyni zamanda İlham Əliyevin yüksək siyasi potensialını zamanında görüb və layiqincə qiymətləndirərək 2003-cü ildə Azərbaycan xalqına müraciət etmişdi. Müraciətdə deyilirdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu Öndərin həmin tarixi müraciətindən götürülmüş "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" ifadəsi İlham Əliyevin bütövlükdə xarakter cizgilərini, onun imkan və potensialını, böyük qabiliyyət və bacarığını ifadə edir. Yeni dövrün görkəmli siyasətçisi və dövlət xadimi kimi Prezident İlham Əliyev üçün böyük siyasətdə, beynəlxalq münasibətlərdə, ölkədaxili məsələlərin həllində, dövlət idarəçiliyində Heydər Əliyevin siyasi təlimi möhkəm təməl, ən etibarlı bünövrədir. Bu gün İlham Əliyevin qətiyyəti ilə Azərbaycan həmin qranit dövlətçilik təməli üzərində ucalır. Hadisələrə və proseslərə tarixi baxışla bir sırada dünyanın hazırkı reallıqlarının və yeni dövlətçilik təfəkkürünün işığında yanaşmaq, qiymət vermək və bütün bunlara uyğun olaraq əsaslı qərarlar qəbul etmək İlham Əliyevin dövləti idarə etməsinin əsasını təşkil edir.

Azərbaycanın ötən 22 illik tarixinin reallıqları Ulu Öndər Heydər Əliyevin nə qədər uzaqgörən və müdrik bir şəxsiyyət, güclü siyasi strateq olduğunu göstərir. Çünki ötən 22 ildə İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafı həqiqətən fərəh doğurur. Bu illər ərzində cəmiyyət həyatının bütün sahələri inkişaf edib. Prezident İlham Əliyev Ulu Öndərin bütünlüklə Azərbaycana, onun sabahına həsr edilən hakimiyyət yolunu, zəfər və şərəf yolunu ləyaqətlə davam etdirib.

İlham Əliyevin respublikamıza rəhbərliyinin ilk günündən torpaqlarımızın işğaldan azad olunmasını fəaliyyətinin prioritet istiqamətlərindən biri elan etdi və bu məsələ dövlət siyasətinin mərkəzində dayandı. Prezident bəyan etdi ki, sülh danışıqları nəticəsiz qalarsa, Azərbaycan dövləti güc yolu ilə ərazilərini işğaldan azad edəcək. Bu məqsədlə dövlətimizin hərbi məqsədlər üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi ildən-ilə artırıldı, yeni hərbi çağırışlara ordu quruculuğu həyata keçirildi, Silahlı Qüvvələrimizin döyüş hazırlığı ən müasir səviyyəyə çatdırıldı.

Ermənistanın hərbi təxribatlarından sonra başlanan İkinci Qarabağ müharibəsi Prezident İlham Əliyevin hər zaman bəyan etdiyi kimi nəticələndi - Azərbaycan dövləti güc yolu ilə torpaqlarını işğaldan azad etdi. Bununla da Prezident İlham Əliyev həm də Müzəffər Ali Baş Komandan kimi Azərbaycanın müasir tarixinin ən şərəfli salnaməsinin müəllifinə çevrildi.

Bəli, bu gün xalqımız İlham Əliyevin uğurlu rəhbərliyi və sərkərdə missiyası nəticəsində tariximizin ən şərəfli anlarını yaşamaqdan qürur duyur. Tarix isə öz şərəf səhifəsinə Ali Baş Komandanın adını qızıl hərflərlə əbədi həkk edib. Bu zəfərimizi Azərbaycan məhz özünün güclü ordusu və dövlət-xalq birliyi ilə qazanıb. Azərbaycan 30 illik erməni separatizminə son qoymaqla yanaşı, həm də işğalla üzləşmiş digər dövlətlər üçün nümunə ortaya qoyub.

Güclü iradəyə, qətiyyətə sahib olan, "Sözümüz imzamızdır" deyərək verdiyi vədlərə sadiq qalan Prezident İlham Əliyev işğal altındakı torpaqlarımızın azad olunmasını təmin etməklə həm də regionda yeni reallıqlar yaradıb. Hətta Azərbaycanı sevməyən dünya ölkələri belə, bu reallıqları qəbul etməyə məcbur olublar.

Şuşanın azad edilməsi xəbərini xalqa çatdıran zaman Prezident İlham Əliyevin söylədiyi ifadələr xalqımızın yaddaşından heç vaxt silinməyəcək. İlham Əliyev: *"Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim, Şuşanı azad etdik!"* söyləməklə xalqımızın qan yaddaşında formalaşmış, min illər boyu yaşatdığı ənənələrin davamçısı olduğunu bir daha sübut etdi.

Bu proseslərdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rolunu da xüsusi qeyd etmək lazımdır. Müharibə başlayandan bitənədək Ali Baş Komandan ilə birlikdə mübarizə aparan Mehriban xanım Əliyevanın Vətən müharibəsinin ilk günlərində xalqa müraciətində ifadə etdiyi və hər birimizin ürəyini riqqətə gətirən sözlərini yada salaq: *"Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"* Qəlbdən səsləndirilmiş bu müqəddəs dua və arzu 44 gün ərzində səngərdə döyüşən əsgərlərimizi daha da ruhlandıraraq onların döyüş ruhunu artırdı.

Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndidə dövlət bayrağını ucaltmaqla Zəfər tariximizdə daha bir şanlı səhifə yazdı. Xankəndidə xalqa müraciətində bayrağımızın ucaldılmasını tarixi hadisə adlandıran dövlət başçısı *"Xalqımızın onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik"* deyə bəyan etdi.

Bu qələbələrin söykəndiyi tarixi reallıqlar var. Bildiyimiz kimi, millət, xalq, cəmiyyət etnosun özünütəşkil modelinin müxtəlif səviyyələri olmaqla son dərəcə mürəkkəb sistemdir. Azərbaycanın qurucu liderləri tarixən ən çıxılmaz, ən mürəkkəb şəraitlərdə daim milli sistemi yaşatmağa, dirçəltməyə, milli varlığımızı məhv olmaqdan qorumağa çalışmışlar. Bu, Azərbaycan milli tarixinin yaşam fəlsəfəsidir - tarixi yaradanlardan biri olan Azərbaycan xalqı dünyanı özünün etnik-mədəni enerjisi ilə zənginləşdirməyə bəlkə də hamıdan artıq haqqı olan xalqdır. Dünya tarixi və mədəniyyətinə zəngin töhfələr vermiş xalqımız möhtəşəm milli dövlətçilik ənənələri yaratmışdır. Bu ənənələr qan yaddaşı kimi hər bir azərbaycanlının milli şüur və yaddaşının silinməz genlərini təşkil edir. Xalqın yetişdirdiyi liderin gücü - savadı, biliyi, müdrikliyi, ağlı, təcrübəsi, həyat fəlsəfəsi, millətə və milli kimliyinə olan sevgisi öz ifadəsini onda tapır ki, milli sistemi təşkil edən hər bir elementin gücünü milli vəhdət modelində qovuşdurub, vahid gücə çevirə bilsin. Bu cəhətdən körpəlikdən dünya siyasətinin nəhənglərindən biri olan Heydər Əliyevin yanında dövlətçilik, idarəçilik məktəbini keçərək onu uğurla davam etdirdi və Azərbaycan qarşısında müstəsna tarixi xidmətlərindən biri də o oldu ki, xalqımızı düşmən üzərində qələbə çalmağa bütöv millət halında apara bildi.

Tarix çox qələbələrə şahidlik edib. Ancaq onların az bir qismində xalq qələbəni məhz milli vəhdət sayəsində qazanıb. Xalqımız və onun güclü lideri bütün dünyaya sübut edə bildi ki, Azərbaycan milli birlik yaratmağa, milli vəhdətə nail olmağa, bir "dəmir yumruq" kimi birləşməyə qadir xalqdır. Danılmaz faktdır ki, Azərbaycan dövlət kimi mövcudluğundan bəri bu qədər güclü, bu qədər müstəqil və azad olmayıb.

İlham Əliyev Vətən müharibəsindəki Zəfərlə bağlı xalqa müraciətində "Biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır" söyləməsi bütün xalqımızı qürurlandırdı. Çünki o, qoca zamanı öz hökmünü dəyişməsinə məcbur etdi. Bəli, bu gün dünyanın ən qüdrətli dövlətləri sırasındayıq. Artıq yalnız Azərbaycanın deyil, dünyanı narahat edən problemlərin həll olunmasında iştirakımız var. Dünyanın ən böyük tədbirlərinə evsahibliyi edirik.

Prezident İlham Əliyevin Azərbaycan xalqının tarixində oynadığı böyük roldan danışarkən onu da qeyd etməliyik ki, məhz onun sayəsində işğal günləri qələbəmizin rəmzinə çevrilən şəhər günləri ilə əvəz edildi. Artıq Azərbaycan təqvimi qələbə günləri ilə əlamətdardır.

Azərbaycanın düzgün və tarazlaşdırılmış xarici siyasət aparması respublikamızla həm qonşu dövlətlər, həm də dünyanın bütün ölkələri arasında mehriban dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri yaratmışdır. Bunun nəticəsində ölkəmizdə transmilli iqtisadi layihələr uğurla həyata keçirilir, milli mənafelərimiz beynəlxalq aləmdə uğurla qorunur və ölkəmiz ən nüfuzlu beynəlxalq təşkilatlarda ləyaqətlə təmsil olunur. Bir sözlə, məqsədyönlü xarici siyasət nəticəsində Azərbaycan dünya birliyinin layiqli üzvünə və regionun liderinə çevrilir. Təbii ki, bütün bu uğurlarda Prezident İlham Əliyev şəxsiyyətinin, liderlik qabiliyyətinin, qətiyyət və prinsipiallığının təkzibedilməz rolu var. Apardığı ədalətli və beynəlxalq hüquqa söykənən siyasətlə onu həm Avropada, həm də Şərqdə təcrübəli siyasət adamı kimi qəbul edir, ehtiram göstərirlər.

Azərbaycanın uğurları həm də siyasi varislik konsepsiyasının müasir tariximiz üçün yeganə doğru yol olduğunu sübut edir. İlham Əliyevin türk dünyasının bütövləşməsi istiqamətində apardığı böyük siyasət də varisliyin təzahürüdür. Türk dünyasının bütövlüyünün memarlarından olan Heydər Əliyev deyirdi: "Türk dünyasının birliyi bizim tarixi köklərimizdən gələn zərurətdir. Biz bu birliyə söykənərək daha güclü, daha nüfuzlu, daha müstəqil ola bilərik".

Heydər Əliyev Azərbaycanın türk dünyası, xüsusilə müstəqil türk dövlətləri ilə əlaqələrinin gələcək inkişaf proqramını verərək aşağıdakı istiqamətlərdə birgə fəaliyyətin perspektivlərini müəyyənləşdirmişdir:

Türk xalqlarının iqtisadi, siyasi problemlərinin həlli məsələlərində türk dünyasının imkanlarından səmərəli istifadə etmək;

Türk xalqlarının inteqrasiyasının intensivliyini təmin etmək;

Türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsinə çalışmaq və beynəlxalq birlik qarşısında ümumi mövqe nümayiş etdirmək.

Heydər Əliyevin məqsədi türk xaqlarını vahid təsisat altında birləşdirmək idi. Bu arzu İlham Əliyevin gərgin fəaliyyəti ilə gerçəkləşdi. Dövlətimizin başçısı bu birliyin gerçəkləşməsində ən həlledici rola malikdir. Türk dövlətləri artıq Qarabağda quruculuq işlərində yaxından iştirak edirlər.

İşğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən quruculuq işləri və dövlət proqramlarından danışarkən bir məsələni də qeyd etmək yerinə düşərdi. Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişafa dair dövlət proqramları əhatə dairəsinə görə iki kateqoriyaya ayrılır - Azərbaycan torpaqlarının bir hissəsinin işğalda olduğu dövrdə həyata keçirilən (işğal altında olan ərazilər istisna olmaqla) strateji dövlət proqramları və 44 günlük Zəfər müharibəsindən sonra Azərbaycanın bütün ərazilərini əhatə edən dövlət proqramları.

Bütün Azərbaycan ərazilərini əhatə edən belə sənədlərdən biri də İlham Əliyev 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" kimi strateji sənəd və 16 noyabr 2022-ci il tarixində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"dır. Artıq icrasının ilkin mərhələsinin geridə qaldığı sənəddə deyilir: "Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoymuşdur. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülmüşdür". Göründüyü kimi, bu strateji sənəddə dayanıqlı sülhün təmin olunmasının vacibliyi vurğulanır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz regionda yeni reallıqlar formalaşdıraraq ədalətə, qarşılıqlı hörmətə və beynəlxalq hüququn prinsiplərinə əsaslanan sülh gündəliyini irəli sürməkdədir. Azərbaycan tərəfindən təqdim olunan sülh modeli dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı kimi bəşəriyyətin qəbul etdiyi prinsipləri özündə ehtiva edir. Bu siyasətin praktiki təzahürü kimi bu yaxınlarda Vaşinqtonda Donald Trampın təşəbbüsü ilə İlham Əliyev və Nikol Paşinyan arasında keçirilən görüşlər xüsusi qeyd olunmalıdır. Həmin görüşlər ikitərəfli münasibətlərin normallaşması ilə yanaşı, bütövlükdə Cənubi Qafqazda dayanıqlı sabitlik və barışın təmin olunması üçün əhəmiyyətli addım kimi dəyərləndirilməlidir.

Müharibədən sonrakı dövrdə Azərbaycan öz sülh modelini diplomatik müstəvidə atdığı praktiki addımlarla sübut edir. Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq işləri, yolların, tunellərin, hava limanlarının inşası, şəhərlərin və kəndlərin bərpası, məcburi köçkünlərin doğma yurdlarına qayıdışı üçün yaradılan şərait dünya ictimaiyyəti üçün barışın real nəticələrinin nümunəsi kimi təqdim olunur. Azərbaycan bu təcrübəsi ilə nümayiş etdirir ki, müharibədən sonra dağıntıların yerində tərəqqi və inkişafın təməli qoyulur.

Ulu Öndər Heydər Əliyev hələ ötən əsrdə demişdir: "Sülh olmadan inkişaf ola bilməz, sülh xalqın təhlükəsizliyinin, sabitliyin və tərəqqinin əsas təminatçısıdır". Həmin fikir bu gün də öz aktuallığını qoruyur. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yalnız regionda yox, bununla yanaşı, beynəlxalq səviyyədə sülhün, sabitliyin və əməkdaşlığın təşviqinə töhfə verən mühüm aktor statusunu daşıyır. Ölkə rəhbərinin BMT Baş Assambleyasındakı çıxışları, Qoşulmama Hərəkatına sədrlik fəaliyyəti və digər beynəlxalq platformalarda irəli sürdüyü təşəbbüslər Azərbaycanın sülhün və ədalətin qlobal müstəvidə müdafiəçisi olduğunu təsdiqləyən faktdır.

Azərbaycanın bu gün enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya xətləri, "yaşıl enerji" təşəbbüsləri və çoxtərəfli diplomatik fəaliyyəti qlobal miqyasda gedən proseslərə təsir edən əsas amillərdəndir. Bu təsir Azərbaycanı regional lider olmaqla yanaşı, həm də beynəlxalq arenada sülh və inkişafın tərəfdarı kimi tanıdır. Davamlı inkişaf, təhlükəsizlik və rifah yalnız sülh şəraitində mümkündür. Azərbaycan öz sülh modelini irəli sürərək, Qarabağda bərpa və quruculuq işləri ilə bu modelin real nəticələrini nümayiş etdirir, həm regionda, həm də qlobal miqyasda barışa töhfə vermək əzmini göstərir. Azərbaycan sabitliyin, əməkdaşlığın və qarşılıqlı etimadın tərəfdarı olaraq beynəlxalq sülhün möhkəmlənməsi istiqamətində ardıcıl addımlar atmağa davam edir.

Azərbaycan da möhtəşəm zəfərdən sonra məhz belə bir güc mövqeyindən qalib iradə ilə sülhə doğru addımlayır. Qeyd etməliyik ki, bu uğurların arxasında Müzəffər Liderin fəaliyyəti ilə yanaşı, xalqın birliyi, sədaqəti və ruhu dayanır. Vətən müharibəsi zamanı cəbhəyə könüllü yazılan gənclər, torpağına qurban gedən şəhidlər, səngərdəki əsgərlə çiynini birləşdirən ana, arxa cəbhədə yorulmadan çalışan xalq bu zəfər tarixini öz birliyi, öz rəhbəri ilə birlikdə gələcəyə olan inamı ilə yazdı. Xalqın cəsarəti və sədaqəti bu gün hərtərəfli bir siyasi qələbəyə çevrilməkdədir. Bəli, bu birlik tarix yazdı, zəfər gətirdi və bu gün də sülh qurur. Bu birlik sarsıdılmazdır.

*Azərbaycan bu strategiya ilə təkcə öz vətəndaşları üçün deyil, region üçün də sabitlik, inkişaf və əməkdaşlıq nümunəsi nümayiş etdirir. Bu gün Azərbaycan təkcə müharibədə qalib gəlmiş bir dövlət deyil, eyni zamanda sülhün qurucusu, regionun təhlükəsizlik memarı, siyasi və iqtisadi sabitliyin əsas dayağıdır. Bu reallıq təsadüfi nəticə yox, xalqın sarsılmaz sədaqətinin, Prezident İlham Əliyevin uzaqgörən və prinsipial liderliyinin, dövlətin möhkəm institusional təməllərə söykənən siyasətinin nəticəsidir.*

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***



# Strateji sabitlik və diplomatik çeviklik doktrinası

**2003-cü il oktyabrın 15-dən etibarən Prezident İlham Əliyevin Azərbaycanın regional və qlobal müstəvidə mövqelərinin möhkəmləndirilməsi, tərəfdaş və müttəfiqlərinin sayının artırılması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuzlu və ciddi təsir imkanlarına malik önəmli aktorlarından birinə çevrilməsi istiqamətində həyata keçirdiyi və yalnız milli maraqlara söykənən xarici siyasət kursu azərbaycanlılar üçün qürur, araşdırmaçılar üçün isə istinad mənbəyidir.**

Bu illər ərzində Azərbaycan tarixinin ən mürəkkəb, eyni zamanda ən parlaq inkişaf mərhələsini keçib. Əgər 2003-cü ildə qarşıda duran əsas məsələ siyasi sabitliyin möhkəmləndirilməsi, iqtisadi inkişafın dayanıqlı əsaslarının təmin edilməsi idisə, bu gün Azərbaycan regional təhlükəsizliyin təminatçısı, enerji və nəqliyyat dəhlizlərinin strateji mərkəzi, həm də geosiyasi dinamikanı formalaşdıran subyekt kimi çıxış edir.

Prezident İlham Əliyevin 22 illik dövlət idarəçiliyi modeli təkcə bir siyasi kurs deyil, bu, həm də strateji sabitlik və diplomatik çeviklik doktrinasıdır. Bu mükəmməl idarəçilik modelinin nəticəsi olaraq Azərbaycan qlobal güc mərkəzləri arasında balanslı siyasət aparmaqla, heç bir blokun peykinə çevrilmədən, öz milli maraqlarını qətiyyətlə müdafiə edib və beynəlxalq sistemdə müstəqil mövqe formalaşdırıb.

Azərbaycanın ərazi bütövlüyünün və ölkənin bütün əraziləri üzərində suveren hüquqlarının təmin edilməsindən sonra yaranan yeni reallıqlar regionun geosiyasi xəritəsini köklü şəkildə dəyişib. 2020-ci ildə ölkəmizin Vətən müharibəsindəki Zəfəri və ardınca ölkənin bütün əraziləri üzərində suverenliyin tam bərpa edilməsi təkcə hərbi-siyasi qələbə deyil, həm də müasir dövlətçilik fəlsəfəsinin təntənəsidir.

Bu reallıq fonunda 2003-cü ildən bu günə qədərki proseslərə baxış bizə bir həqiqəti nümayiş etdirir: İlham Əliyevin dövlət idarəçiliyi modeli ardıcıl, çoxvektorlu və məqsədyönlü şəkildə formalaşmış strateji ardıcıllığın nümunəsidir. Dövlətimizin başçısının qurduğu sistemdə iqtisadi, diplomatik, hərbi və ideoloji dayaqlar bir-birini tamamlayır və milli gücün ümumi mexanizmini təşkil edir. Hətta Azərbaycana qarşı qərəzli mövqedə dayanan qlobal media resurslarının analitikləri belə Prezident İlham Əliyevin geosiyasi proseslərin inkişaf istiqamətini və dinamikasını proqnozlaşdırmaq, dəqiq təhlil etmək, düzgün nəticə çıxarmaq və mövqe seçmək məharətini etiraf edirlər.

Son 22 ilin ən mühüm göstəricilərindən biri Azərbaycanın xarici siyasətdə eyni anda bir-birinə zidd qütblərlə əməkdaşlıq münasibətləri qura bilməsidir. Azərbaycan heç vaxt öz tərəfdaşlıq əlaqələrini üçüncü ölkənin əleyhinə yönəltməyib. Bakı enerji layihələri vasitəsilə Avropanın enerji təhlükəsizliyinin əsas sütunlarından birinə çevrilsə də, Rusiya ilə strateji əməkdaşlıq münasibətlərini davam etdirib, Çinlə "Bir kəmər, bir yol" təşəbbüsündə iştirak edib, Qoşulmama Hərəkatında qlobal ədalət və bərabərlik ideyalarının təbliğatçısına çevrilib.

Milli maraqların beynəlxalq sistemdə çoxşaxəli inteqrasiyası Prezident İlham Əliyevin xarici siyasətinin unikal təməl prinsipidir. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji və nəqliyyat layihələri ölkəmizin regional və qlobal nüfuzunu artırmaqla yanaşı, həm də onu yumşaq güc elementlərinin daşıyıcısına çevirib.

Prezident İlham Əliyevin 2003-cü ildən etibarən həyata keçirdiyi modernləşmə modeli milli dəyərlərlə texnokratik idarəetməni birləşdirib. Azərbaycan bu illər ərzində iqtisadi dayanıqlılıq baxımından Cənubi Qafqazın liderinə, beynəlxalq təşkilatlarda isə etibarlı tərəfdaşa çevrilib. Dünya Bankı, BMT, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Təşkilatı və Qoşulmama Hərəkatı və digər qlobal təsisatlar çərçivəsində Azərbaycanın fəallığı artıq sistemli təsir gücü yaradır.

Prezident İlham Əliyev təkcə Müzəffər Ali Baş Komandan deyil, həm də milli birliyin simvoludur. Onun liderliyində formalaşan "dəmir yumruq" modeli Azərbaycan xalqının həm hərbi, həm də mənəvi qələbəsini təmin edib. 22 illik fəaliyyətin analitik yekunu onu göstərir ki, İlham Əliyevin idarəetmə modeli təkcə bir ölkənin inkişaf xəritəsi deyil, postsovet məkanında yeni dövlətçilik məktəbinin konseptual nümunəsidir. Bu modelin mərkəzində siyasi uzaqgörənlik, milli iradə, beynəlxalq balans və xalqla dövlətin qarşılıqlı etimad sistemi dayanır.

*Azərbaycan hazırda regional sabitliyin aparıcı gücü, qlobal sistemin isə etibarlı tərəfdaşı kimi tanınırsa, bu, məhz 2003-cü il 15 oktyabrdan etibarən formalaşan strateji kursun nəticəsidir. Prezident İlham Əliyev 22 il əvvəl başladığı yolun hər mərhələsində sübut etdi ki, liderlik xalqın iradəsi ilə tarix arasında körpü salmaq bacarığıdır.*

***Elçin MİRZƏBƏYLİ,***
***Milli Məclisin deputatı***



# MÖHTƏŞƏM 22 İL 2003 2025

# Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə tariximizin şərəfli səhifələri yazılır




**Bu gün İlham Əliyevin birinci dəfə Azərbaycan Prezidenti seçilməsindən 22 il ötür. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində xalqımız İlham Əliyevin namizədliyini dəstəkləməklə Azərbaycanın etibarlı gələcəyinə səs verdi. Cənab İlham Əliyevə ümumxalq etimadının təntənəsinə çevrilən bu seçki həm də Ulu Öndər Heydər Əliyev siyasi kursunun növbəti qələbəsi oldu.**

Ötən 22 il Azərbaycanın müasir tarixini şərəfləndirən çoxsaylı hadisələrlə, misilsiz nailiyyətlərlə zəngindir. Bu hadisələri və uğurları nəzərdən keçirəndə xalqımızın 22 il öncə etdiyi seçimin nə qədər müdrik və uzaqgörən olduğunu görürük. Bu dövrdə Azərbaycanın inkişafı o qədər əzəmətlidir ki, kənardan respublikamıza sadəcə həsəd aparmaq olar. Bu yüksəlişin hər bir elementi göstərir ki, Prezident İlham Əliyev indiyə qədər verdiyi bütün vədləri layiqincə yerinə yetirən liderdir.

Xüsusilə qeyd etməliyik ki, bu illər ərzində Azərbaycan dünyanın nüfuzlu dövlətləri sırasına yüksəlib, regionda liderə, beynəlxalq müstəvidə söz sahibinə çevrilib. Bunun bir səbəbi Azərbaycanın inkişafıdırsa, digər səbəbi Prezident İlham Əliyevin özünün malik olduğu yüksək nüfuzdur. Bəli, Azərbaycan Prezidenti dünyanın ehtiramla qarşılanan nüfuzlu siyasi liderləri ilə bir cərgədə dayanır. Dövlətimizin başçısının fəaliyyətini xarakterizə edən bu ali keyfiyyətləri təsdiq və təcəssüm etdirən çoxsaylı faktlar göstərmək olar. Elə təkcə oktyabr ayında Prezident İlham Əliyevin iştirak etdiyi tədbirlər - "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısı, Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü, MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası və Yaxın Şərq Sülh Sammiti Azərbaycan Prezidentinin qlobal nüfuzunu göstərən növbəti siyasi hadisələr oldu.

Prezident İlham Əliyev ötən 22 ildə Azərbaycanı sürətlə inkişaf etməkdə olan dövlətlər sırasına yüksəltməklə yanaşı, həm də qlobal miqyasda aktuallıq kəsb edən məsələlərlə bağlı nümunələr yaradıb. Ondan başlayaq ki, Prezident İlham Əliyev, ilk növbədə, torpaqlarımızın işğaldan azad olunmasını təmin etməklə dövlətin öz milli haqqını təmin etməsinin nümunəsini yaratdı. 30 ilə yaxın işğal altında olan ərazilərimizin azad edilməsi, o cümlədən 2023-cü ildə Qarabağda erməni separatizminə son qoyulması, bütün ərazilərimiz üzərində milli suverenliyimizin bərpa olunması, keçmiş məcburi köçkünlərinin doğma yurdlarına qayıdışı prosesinin başlanması göstərdi ki, müdrik şəxsiyyətin rəhbərlik etdiyi dövlət öz milli hədəflərinə inamla çata bilir.

Torpaqlarımızın işğaldan güc yolu ilə azad edilməsi beynəlxalq arenada dövlətimizin nüfuzunu daha da artırdı. Əgər buna qədər dünya Azərbaycanı əsasən inkişaf göstəricilərinə, beynəlxalq tədbirlərə uğurlu evsahibliyi etməsinə, qlobal enerji təhlükəsizliyi məsələlərinə verdiyi töhfələrə görə qiymətləndirirdisə, torpaqlarımızın işğaldan azad edilməsindən sonra beynəlxalq ictimaiyyət Azərbaycanı həm də qalib dövlət, Prezident İlham Əliyevi isə müzəffər lider kimi tanıdı.

Torpaqlarımızın işğaldan azad olunmasının, ərazi bütövlüyümüzün bərpasının müəllifi Prezident İlham Əliyev bu gün regionda sülhü də lider qətiyyəti ilə bərqərar edir. Cari il avqustun 8-də Vaşinton şəhərində ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin paraflanması, ATƏT-in Minsk qrupunun və əlaqəli strukturların ləğv edilməsi, Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə bağlı tarixi razılaşmaların əldə olunması bir daha Prezident İlham Əliyevin qətiyyətli, milli maraqlarımızı uğurla ehtiva edən siyasi kursunun təcəssümüdür. Artıq Minsk qrupu və onunla əlaqəli strukturlar ləğv edilib. Zəngəzur dəhlizinin (TRIPP) açılması istiqamətində isə tezliklə mühüm nəticələrin əldə olunmasına şahidlik edəcəyik. Prezident İlham Əliyevin qətiyyəti sayəsində tezliklə Azərbaycanla Ermənistan arasında yekun sülh sazişi də imzalanacaq.

Beləliklə, göründüyü kimi, ərazilərimizi işğaldan azad edən Prezident İlham Əliyev regionda sülhü də inamla təmin edir. Böyük qürurla qeyd etməliyik ki, dövlətimizin başçısının sülh gündəliyi beynəlxalq səviyyədə təqdir olunur və alqışlanır. Bu, dövlətimizin başçısının "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirakı zamanı da öz təsdiqini tapdı. Bu tədbirdə Prezident İlham Əliyev Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın dəvəti ilə iştirak etdi. Həm bu dəvət, həm də dövlətimizin başçısının Kopenhagendə keçirdiyi görüşlər göstərdi ki, Avropa İttifaqı respublikamızla əməkdaşlığa xüsusi önəm verir.

Prezident İlham Əliyevin sülh gündəliyinin beynəlxalq miqyasda böyük maraq doğurması dövlətimizin başçısının Misir Ərəb Respublikasında keçirilən Yaxın Şərq Sülh Sammitinə dəvət olunması da təsdiq edir. Möhtərəm Prezidentimiz Yaxın Şərq Sülh Sammitində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə ilə iştirak etdi. Məhdud sayda dövlət və hökumət başçısının iştirak etdiyi bu tədbirə cənab İlham Əliyevin də dəvət olunması Azərbaycan Prezidentinin yüksək nüfuzunun və müəllifi olduğu sülh gündəliyinə olan beynəlxalq siyasi marağın növbəti göstəricisinə çevrildi.

Oktyabrın birinci ongünlüyündə Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü və Düşənbədə keçirilən MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası da bir daha Prezident İlham Əliyevin yüksək siyasi nüfuzunu nümayiş etdirdi. Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü fonunda özünü göstərən əsas həqiqətlərdən biri bu oldu ki, məhz Prezident İlham Əliyevin təşəbbüsləri nəticəsində son illərdə türk dövlətlərinin birliyi daha da güclənib və TDT mühüm inkişaf yolu keçib. Bəli, Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində Azərbaycanın reallaşdırdığı Bakı-Tbilisi-Qars dəmir yolu xətti, "Cənub qaz dəhlizi" kimi nəhəng infrastrukturlar respublikamızın inkişafına xidmət etməklə yanaşı, həm də türk dünyasını birləşdirir, türk dövlətləri arasındakı iqtisadi inteqrasiyanı dərinləşdirir. Zəngəzur dəhlizinin (TRIPP) açılması isə türk dövlətləri arasında həm iqtisadi əməkdaşlığı dərinləşdirəcək, həm də coğrafi bağlantıya yeni töhfə verəcək.

TDT Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə Prezident İlham Əliyev irəli sürdüyü mühüm təkliflərin - türk dövlətlərinin birgə hərbi təlimlərinin keçirilməsi və birinci Türkoloji Qurultayın keçirilməsinin 100 illik yubileyinin TDT çərçivəsində təntənəli şəkildə təşkil olunmasının reallaşması isə türk dünyasının birliyini daha da gücləndirəcəkdir.

Bunlarla yanaşı, Prezident İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iştirakı, Düşənbədə Rusiya Prezidenti Vladimir Putinlə görüşü bir daha göstərdi ki, Prezident İlham Əliyev dövlətimizin milli maraq və mənafelərini qətiyyətlə təmin edən siyasi liderdir.

Bütün bu qeyd olunanlar Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı son dövrləri əhatə edən qürurdoğuran məsələlərin bir qismidir. Bütövlükdə isə ötən 22 ildə Azərbaycanın müasir tarixinin ən möhtəşəm səhifələri yazılıb. 2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimində özünün fəaliyyət proqramını, qarşıda dayanan ümummilli hədəfləri açıqlayan cənab İlham Əliyev Azərbaycanın xoşbəxt gələcəyinə inandığını, ölkəmizin bundan sonra da inkişaf edəcəyini, daha da güclənəcəyini bəyan etmişdi. Eyni zamanda İlham Əliyev Ulu Öndər Heydər Əliyevə müraciətlə demişdi: "Əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik".

Ötən 22 ilin zirvəsindən baxanda Prezident İlham Əliyevin Ulu Öndərə 2003-cü ildə etdiyi bu müraciətinin sözün bütün mənalarında real həyata vəsiqə aldığını görürük. Geridə qoyduğumuz 22 il Azərbaycan dövlətinin və xalqının tarixində olduqca əzəmətli və möhtəşəm hadisələrlə, misilsiz nailiyyətlərlə zəngindir. Bu illər ərzində Azərbaycan cənab İlham Əliyevin bəyan etdiyi kimi güclənib, zənginləşib, hərtərəfli inkişaf edib.

Ötən 22 ildə Azərbaycanın yüksəlişi, qüdrətli dövlətə çevrilməsi xalqımızın Prezident İlham Əliyevə olan inamını daha da yüksəldib. Bu müddətdə keçirilən bütün prezident seçkilərinin nəticələri də bunu təsdiqləyir. Bu proseslərdə isə Azərbaycan ağsaqqalları da hər zaman Prezident İlham Əliyevin siyasi kursu ətrafında səfərbər olublar. Dövlət və xalq qarşısında öz mənəvi missiyasını düzgün dəyərləndirən Azərbaycan Ağsaqqallar Şurası hər zaman cəmiyyət həyatında fəallıq nümayiş etdirir, cənab Prezidentimizin yürütdüyü siyasətə özünün layiqli töhfələrini verir. Azərbaycan Ağsaqqallar Şurası milli-mənəvi dəyərlərimizin qorunması, gənc nəslin Ulu Öndər Heydər Əliyev ideyalarına sədaqət və vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində tədbirlər həyata keçirir.

*Prezident İlham Əliyevin rəhbərliyi ilə 22 ildə qazanılan uğurlar, torpaqlarımızın işğaldan azad olunması hər bir azərbaycanlının qürur mənbəyidir, tariximizin şərəfli səhifəsidir. Hər bir nailiyyətimiz Prezident İlham Əliyevin qətiyyətli siyasətinin nümunəsidir. Tarixinin sürətli yüksəliş dövrünü yaşayan Azərbaycanda Heydər Əliyevin siyasəi kursu hər zaman davam edəcək və Prezident İlham Əliyevin liderliyi ilə respublikamızın tarixi yeni və əzəmətli nailiyyətlərlə zənginləşəcək.*

***Eldar QULİYEV,***
***Milli Məclisin Hesablayıcı komissiyasının sədri,***
***Azərbaycan Ağsaqqallar Şurasının sədri, professor***

# Sabitliyin, inkişafın və Zəfərin yolu

**22 il öncə, yəni 15 oktyabr 2003-cü ildə cənab İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsi müasir dövlətimizin tarixinin ən əlamətdar hadisələrindən biri kimi dəyərləndirilir. Həmin gün Azərbaycan xalqı yalnız yeni liderə deyil, həm də Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik və inkişaf yoluna səs verdi. Bu siyasi seçimlə xalqımız sabitlik, tərəqqi, sülh və əmin-amanlıq kursuna sədaqətini nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını bir daha təsdiqlədi.**

Mövcud tarixi-siyasi, coğrafi və regional şəraitdə liderlik fenomeni milli dövlətin formalaşması və inkişafında həlledici rol oynadı. Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən müasir idarəetmə mədəniyyətinə əsaslanan, milli maraqlara söykənən rasional siyasət xəttini formalaşdırdı. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qısa müddətdə regionun siyasi, iqtisadi və hərbi mərkəzlərindən birinə çevrildi, Cənubi Qafqazın isə lideri oldu.

Bu gün regionda həyata keçirilən bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə reallaşır. Liderlik, həm də mənəvi birliyin təmin olunması, cəmiyyətdə milli ruhun və ideoloji dəyərlərin formalaşması baxımından mühüm amilə çevrilmişdir. Məhz bu keyfiyyətlərin nəticəsində ölkədə siyasi sabitlik qorunmuş, gələcək inkişaf üçün möhkəm təməl yaradılmışdır.

İlham Əliyevin prezidentliyi illərində ölkəmizin həyatının bütün sahələrində inkişaf müşahidə olunub. Sosial təminat sisteminin gücləndirilməsi və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən siyasət dövlətin sosial yönümlü mahiyyətini daha da gücləndirib.

Prezidentin təşəbbüsü ilə qəbul edilən qanun layihələri, fərman və sərəncamlar sayəsində sosial layihələr geniş vüsət almış, əhalinin həyat səviyyəsinə müsbət təsir göstərmişdir. Sürətli inkişaf dövlət quruculuğunun bütün sahələrinə sirayət etmiş, xüsusilə də regionların sosial-iqtisadi inkişafına dair proqramlar çərçivəsində respublikanın hər bir bölgəsi yeniləşmə prosesinə qoşulmuşdur. İlham Əliyevin sosial dövlət fəlsəfəsinin mərkəzində vətəndaş dayanır. Bu siyasət nəticəsində dövlətin iqtisadi dayaqları möhkəmlənmiş, milli gəlirin strukturunda qeyri-neft sektorunun payı əhəmiyyətli dərəcədə artmışdır.

Azərbaycanın beynəlxalq arenadakı mövqeləri də bu 22 il ərzində güclənmişdi. Ölkə regional əməkdaşlıq layihələrinin əsas təşəbbüskarı və ya iştirakçısına çevrilmiş, enerji, nəqliyyat və kommunikasiya marşrutlarında mühüm tranzit mərkəzi rolunu qazanmışdı. Azərbaycanın xarici siyasət kursu milli maraqlara əsaslanan, balanslı və prinsipial xətt kimi formalaşaraq, dövlətimizi etibarlı tərəfdaş və mühüm aktora çevirmişdi.

Prezident İlham Əliyevin uzaqgörən və milli maraqlara söykənən siyasəti nəticəsində dövlətimiz ən böyük strateji məqsədinə, ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına nail oldu. 2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqımızın birliyi və ordumuzun qəhrəmanlığı sayəsində möhtəşəm Zəfərlə başa çatdı. Azərbaycan otuz ilə yaxın işğal altında qalan torpaqlarını azad etdi, tarixi ədalət bərpa olundu, milli qürur və birliyimiz yenidən dirçəldi. 2023-cü ilin aprelində Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsinin yaradılması ilə ölkəmizin ərazi bütövlüyü təmin olundu. Həmin ilin sentyabrında isə Qarabağda keçirilən lokal antiterror tədbirləri nəticəsində dövlət suverenliyimiz tam bərpa edildi. Ermənistan silahlı birləşmələrinin bölgədən çıxarılması və qeyri-qanuni silahlı dəstələrin tərk-silah edilməsi Azərbaycanın növbəti tarixi qələbəsi kimi yadda qaldı. Beləliklə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz torpaqlarına qovuşdu, xalqımız dünyada mübariz, qətiyyətli və qalib xalq kimi tanındı. Şəhidlərimizin qanı yerdə qalmadı, onların xatirəsi dövlət siyasətinin mərkəzində öz əbədiliyini tapdı.

Hazırda ölkəmiz işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində tarixi missiyanı yerinə yetirir, nəhəng layihələr həyata keçirir. Prezident İlham Əliyev böyük dövlət xadimi kimi bu mərhələdə əsas diqqətini düşmənin viran qoyduğu şəhər və kəndlərin yenidən qurulmasına, doğma yurd-yuvalarından didərgin düşmüş vətəndaşların öz evlərinə qayıtmasına yönəldib. Qarabağın və Şərqi Zəngəzurun bərpasını, sosial-iqtisadi dirçəlişini hədəfləyən Böyük qayıdış strategiyası bu baxımdan yeni dövrün inkişaf modelidir. Bu proqram təkcə infrastrukturun yaradılmasını deyil, həm də regionun innovativ iqtisadi zonaya çevrilməsini nəzərdə tutur. Layihələrin müasir texnologiyalar və "ağıllı şəhər" konsepsiyaları əsasında həyata keçirilməsi Azərbaycanın gələcək inkişaf istiqamətlərini müəyyənləşdirir. Artıq beynəlxalq ictimaiyyət tərəfindən bu model nümunəvi təcrübə kimi qəbul olunur və onun effektivliyi geniş şəkildə etiraf edilir.

*Son 22 il ərzində həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan sabitliyin, tərəqqinin və milli birliyin simvoluna çevrilib. İqtisadi, siyasi, sosial və hərbi sahələrdə əldə edilən uğurlar dövlətin dayaqlarını möhkəmləndirib, vətəndaşların rifahını yüksəldib, xalq-dövlət birliyini gücləndirib. Bu illər ərzində İlham Əliyev Azərbaycanın beynəlxalq nüfuzunu artıran, milli maraqları qətiyyətlə müdafiə edən, dövlətçilik ənənələrinə sədaqət göstərən lider kimi tarixə düşüb. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni hədəflərə, daha yüksək zirvələrə doğru inamla irəliləyir, müasir, güclü, qalib və qürurlu Azərbaycan kimi...*

***Pərvin KƏRİMZADƏ,***
***Milli Məclisin deputatı***



# MÖHTƏŞƏM 22 İL 2003 2025

**Cənubi Qafqazın lideri, torpaqlarını işğaldan müharibə yolu ilə azad edən dövlət, Avropanın enerji təhlükəsizliyinin təminatçısı, kosmik klubun üzvü… Azərbaycan dövlətinin müasir gerçəkliklərini əks etdirən bu ifadələrin sayını artırmaq da mümkündür. Və bütün bunlar bu gün Azərbaycana ilk dəfə Prezident seçilməsinin 22-ci ili tamam olan Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın keçdiyi inkişaf yolunun ayrı - ayrı epizodlarıdır.**



## Bütün vədləri doğrultmaq hər liderə nəsib olmur

22 il öncə, oktyabr ayının 15-də keçirilən prezident seçkiləri Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev siyasətinə olan etimadının növbəti təsdiqi oldu. Səsvermə hüququ olan seçicilərin mütləq əksəriyyəti öz səsini İlham Əliyevə verməklə bir daha Ulu Öndərin ideyalarının ətrafında sıx səfərbər oldu, Heydər Əliyev siyasi kursuna heç bir alternativi qəbul etmədiyini göstərdi. Bu seçkinin nəticəsi həm də cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafına və qüdrətli dövlətə çevrilməsinə olan ümumxalq inamının təcəssümünə çevrildi. Geridə qoyduğumuz 22 ilin siyasi və sosial-iqtisadi mənzərəsi, tarixin ən qüdrətli Azərbaycanını ifadə edən nailiyyətlərimiz bu inamın qürur doğuran təntənəsidir.

İlham Əliyevin 2003-cü ilin prezident seçkilərindən sonra andiçmə mərasimində etdiyi çıxışı xatırlayaq. Bu, yalnız seçki prosedurundan və ya protokoldan irəli gələn çıxış deyildi. Bu çıxış hələ 22 il əvvəl elan olunan güclü Azərbaycanın yol xəritəsi idi. Bu, Azərbaycanın inkişafının və gələcək uğurlarının təməlində dayanan əsas tezislərdən ibarət bir proqram idi. Ötən 22 ilin bütün reallıqları göstərir ki, bu yol xəritəsində öz əksini tapan bütün məsələlər həyata vəsiqə alıb, Prezident İlham Əliyevin xalqa verdiyi bütün vədlər layiqincə yerinə yetirilib.

2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimində göstərilmiş bu böyük etimada görə Azərbaycan xalqına özünün dərin təşəkkürünü bildirən Prezident İlham Əliyev demişdir: "Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur".

Bəli, Prezident İlham Əliyevin rəhbərliyi ilə geridə qoyduğumuz 22 ilin ən böyük həqiqətlərindən biri Heydər Əliyev yolunun davam etdirilməsi və Ulu Öndərin ideyalarının həyata vəsiqə almasıdır. Məhz bu siyasətin qətiyyətlə həyata keçirilməsi, dövrün çağırışlarından irəli gələrək daha da zənginləşdirilməsi Azərbaycanın bu gün fəxrlə bəhs etdiyimiz yüksəlişinin, regionda lider dövlətə, dünyada söz sahibinə çevrilməsinin əsasında dayanır. Ötən 22 illik tariximizin ən böyük həqiqətlərindən biri də budur: Azərbaycan cəmiyyəti Heydər Əliyev siyasətinə heç bir alternativi qəbul etmir.

22 il əvvəlin reallıqlarından irəli gələrək Prezident İlham Əliyev bir sıra məsələləri prioritet məqsədlər olaraq bəyan etmişdi. Bu sırada regionların tarazlı sosial-iqtisadi inkişafının təmin edilməsi, yeni iş yerlərinin açılması, çadır düşərgələrinin ləğvi kimi vəzifələr növbəti beşillik üçün əsas hədəflər kimi müəyyənləşdirilmişdi. Və cənab İlham Əliyevin birinci müddət prezidentliyi dövründə bu vəzifələrin yerinə yetirilməsi istiqamətində çox mühüm uğurların əldə olunduğu artıq göz önündə idi. 2003-2008-ci illərdə artıq ölkə üzrə 741 min yeni iş yeri yaradılmışdı. 2007-ci ilə qədər isə artıq bütün çadır şəhərcikləri ləğv edilmişdi. Habelə Ulu Öndərin təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası başa çatdırılmış və Azərbaycan neftinin ixracına başlanılmışdı. 2003-2008-ci illərdə Azərbaycanda ümumi daxili məhsul 2,7 dəfə, dövlət büdcəsi isə on dəfədən çox artmışdı.

Geridə qoyduğumuz 22 ilin reallıqları fonunda isə biz daha böyük uğurlardan, daha möhtəşəm nailiyyətlərdən bəhs edirik. Bu illər ərzində Azərbaycan həm siyasi, həm iqtisadi müstəvidə regionda lider dövlətə, dünyada isə söz sahibinə çevrilib. "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars kimi nəhəng layihələrin reallaşdırılması Azərbaycanın iqtisadi inkişafında mühüm indiqatorlara çevrilməklə yanaşı, qlobal müstəvidə respublikamızın nüfuzunu və imicini yüksəldib. 2026-cı ildə Azərbaycanın dövlət büdcəsinin xərclərinin 41 milyard 548,6 milyon manat olması proqnozlaşdırılır. Azərbaycanın strateji valyuta ehtiyatları 80 milyard ABŞ dolları təşkil edir. Elə bu rəqəmlər Azərbaycanın 22 ildə keçdiyi inkişaf yolunu aydın etdirən statistik göstəricilərdir. Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət illər öncə Azərbaycanı həm də kosmik kluba üzv edib.

Bu gün dünyanın aparıcı siyasi mərkəzlərinin Cənubi Qafqaz regionundakı yaxın və strateji tərəfdaşı məhz Azərbaycandır. Əlamətdar günlərdə onların rəhbərləri tərəfindən Prezident İlham Əliyevin ünvanına gələn məktubların məzmunu da bu tərəfdaşlığın təzahürü olmaqla bərabər, dövlətimizin başçısının və Azərbaycanın yüksək qlobal nüfuzundan xəbər verir. Prezident İlham Əliyevin son aylar ABŞ və Çinə səfərləri, habelə son həftələrdə Avropa İttifaqının siyasi dialoq platformalarından olan "Avropa Siyasi Birliyi"nin Danimarkada keçirilən 7-ci Zirvə toplantısında, Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə, MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclasında və Yaxın Şərq Sülh Sammitində iştirakı bir daha dövlətimizin başçısının yüksək nüfuzunu nümayiş etdirir.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin ilk günündən qarşıya qoyduğu ən ümdə və prioritet vəzifə isə torpaqlarımızın işğaldan azad edilməsi idi. 2003-cü ildə andiçmə zamanı çıxışında bu barədə demişdi: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Prezident İlham Əliyev Azərbaycanı inkişaf yoluna çıxarmaqla həm də torpaqlarımızın işğaldan azad olunması üçün tarixi şərait formalaşdırdı. 5 il əvvəl 44 günlük Vətən müharibəsində Prezident Ali Baş Komandan kimi bu ümummilli vəzifənin də yerinə yetirilməsini təmin etməklə xalqımızın yeganə ağrılı probleminə son qoydu. Biz Vətən savaşında yalnız Ermənistana qalib gəlmədik, həm də Qərb siyasi mərkəzlərinin dəstəklədiyi dünya erməniliyini məğlub etdik. Vətən müharibəsindəki Zəfər estafetinin uğurla davam etdirilməsinin nəticəsi olaraq 2023-cü ilin sentyabrında Qarabağda erməni separatizminə son qoyuldu və bununla da Prezident İlham Əliyev Azərbaycan dövləti qarşısında növbəti tarixi missiyanı yerinə yetirərək bütün torpaqlarımız üzərində milli suverenliyimizi təmin etdi.

*Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyinin geridə qalan 22 ili tariximizi möhtəşəm uğurlarla zənginləşdirib. Bu illər ərzində Prezident İlham Əliyev bütün vədlərini qətiyyətlə və layiqincə yerinə yetirib, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib. İşğaldan azad edilmiş torpaqlarımızda davam edən sürətli quruculuq və Azərbaycanın qədəm qoyduğu yeni dövrün mənzərəsi onu göstərir ki, Prezident İlham Əliyevin liderliyi ilə qarşıda bizi növbəti nailiyyətlər gözləyir.*

**Nəsib MƏHƏMMƏLİYEV,**
**Milli Məclisin deputatı**

## Müasir Azərbaycanın parlaq yüksəliş mərhələsi

**2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkiləri müstəqil Azərbaycanın siyasi tarixində mühüm hadisə oldu. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı olan cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi dövlətçilik tariximizdə yeni bir mərhələnin başlanğıcını qoydu.**

Ulu Öndərin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikirləri müstəqil Azərbaycanın gələcək inkişaf konsepsiyasının ideya əsasını təşkil etdi. Prezident İlham Əliyev fəaliyyətə başladığı ilk gündən Ulu Öndərin siyasi irsini ardıcıl və məsuliyyətlə davam etdirərək ölkənin qüdrətlənməsi, xalqın rifahının yüksəldilməsi, dövlətçiliyin daha da möhkəmləndirilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirdi. Qısa müddət ərzində Azərbaycan regionun ən dinamik inkişaf edən dövlətlərindən birinə çevrildi.

Dövlətimizin başçısının siyasətinin əsas prioritetləri həm də ictimai-siyasi sabitliyin qorunması, dövlət idarəçiliyinin təkmilləşdirilməsi və xalqın etimadının möhkəmləndirilməsi oldu. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə sabitlik təmin edildi, sosial siyasət gücləndirildi və vətəndaş məmnunluğuna əsaslanan idarəetmə modeli formalaşdı. Daxili təhlükəsizliyin təmin olunması, qanunvericilik sisteminin müasirləşdirilməsi Prezident İlham Əliyevin strateji idarəçilik xəttinin mühüm istiqamətlərini təşkil etdi.

Milli maraqların qorunması, regional təhlükəsizliyin təmin olunması və dövlətin müdafiə qabiliyyətinin yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirildi. İqtisadi sahədə həyata keçirilən siyasət Azərbaycanın dayanıqlı inkişafını təmin edən başlıca amilə çevrildi. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən neft strategiyası ölkəmizi dünya enerji xəritəsində strateji mərkəzə çevirdi. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və TAP kimi transmilli enerji layihələri həm iqtisadi, həm də siyasi müstəqilliyin möhkəmlənməsinə mühüm töhfə verdi. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində ölkənin bütün bölgələrində infrastruktur yeniləndi, yollar, məktəblər, tibb müəssisələri və sosial obyektlər inşa olundu. Bu siyasət nəticəsində Azərbaycan paytaxtla yanaşı, regionları ilə də müasir inkişafın simvoluna çevrildi. Qeyri-neft sektoru iqtisadiyyatın əsas hərəkətverici qüvvəsinə çevrilərək, xarici investisiyalar üçün əlverişli mühit formalaşdırıldı.

Prezident İlham Əliyevin sosial siyasəti əhalinin rifahının yüksəldilməsinə yönəldi. Yoxsulluğun azaldılması, məşğulluğun artırılması və sosial təminat sisteminin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Əməkhaqları və sosial ödənişlər əhəmiyyətli dərəcədə artırıldı, insanların həyat səviyyəsi yüksəldi. İnsan kapitalının inkişafı, milli kadrların hazırlanması və gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Bu siyasət nəticəsində gənclərin potensialından səmərəli istifadə olundu və ölkənin gələcək inkişafı üçün möhkəm intellektual baza formalaşdı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri gücləndirildi, ordunun modernləşdirilməsi və hərbi qüdrətin artırılması istiqamətində mühüm tədbirlər həyata keçirildi. 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu Ali Baş Komandanın uzaqgörən siyasəti, strateji planlaşdırma bacarığı və xalqın birliyi sayəsində tarixi Zəfər qazandı. Qarabağ münaqişəsinin həlli Prezident İlham Əliyevin qətiyyətli iradəsi və diplomatik məharəti nəticəsində təmin olundu, ölkənin ərazi bütövlüyü bərpa edildi.

Azərbaycanın beynəlxalq nüfuzu Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil və balanslaşdırılmış xarici siyasət nəticəsində əhəmiyyətli dərəcədə yüksəldi. Ölkəmiz BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatında fəal mövqe nümayiş etdirdi. 2025-ci ilin yayında ABŞ-də Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin iştirakı ilə sülh sazişinin paraflanması regionda dayanıqlı sülhün təmin olunması istiqamətində mühüm addım kimi dəyərləndirildi. Türk Dövlətləri Təşkilatının Qəbələ Zirvəsində Prezident İlham Əliyevin çıxışı türk birliyinin strateji inkişaf perspektivlərinə dair mühüm mesajlar verdi. Bu, Azərbaycanın türk dünyasında aparıcı mövqeyə malik olduğunu və strateji əhəmiyyətini bir daha təsdiqlədi.

Bu dövrdə Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti isə sosial, humanitar və mədəni sahələrdə əldə olunan uğurların əsasını təşkil etdi. Onun rəhbərliyi ilə həyata keçirilən layihələr təhsilin, səhiyyənin, mədəniyyətin və humanitar diplomatiyanın inkişafına mühüm töhfələr verdi. Mehriban Əliyevanın fəaliyyəti müasir Azərbaycan qadınının intellektual, humanist və milli dəyərlərə sadiq simasını parlaq şəkildə təcəssüm etdirdi.

*Beləliklə, son 22 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında dövlətçiliyin möhkəmlənməsi, milli maraqlara əsaslanan siyasətin həyata keçirilməsi və beynəlxalq nüfuzun yüksəldilməsi istiqamətində fundamental nəticələr əldə olunub. Bu dövr müasir Azərbaycanın ən parlaq inkişaf mərhələlərindən biri kimi tarixə yazılıb.*

**Mahir SÜLEYMANLI,**
**Milli Məclisin deputatı**

## İlham Əliyevin liderliyi ilə...

**Oktyabrın 15-də cənab İlham Əliyevin ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 22-ci ili tamam olur. Respublikamızın tarixində mühüm siyasi hadisəyə çevrilən 2003-cü ilin prezident seçkilərində xalqımız bir daha müdrik və həm də tarixi seçimini edərək, Azərbaycana milli qurtuluş və inkişaf bəxş edən Heydər Əliyevin siyasi kursuna etimad göstərdi.**

Prezident İlham Əliyevin fəaliyyətinin mərkəzində respublikamızın inkişafı, iqtisadi və hərbi cəhətdən qüdrətlənməsi, beynəlxalq birlikdə mövqelərinin möhkəmləndirilməsi, xalqımızın sosial rifahının daha da yüksəldilməsi dayandı. Dövlətimizin başçısı ilk gündən sözlə əməlin vəhdətini yaratdı, özünün dediyi kimi, hər bir azərbaycanlının Prezidenti oldu, respublikamızın və xalqımızın maraqlarının qorunması bütün məqsədlərin fövqündə dayandı.

2003-cü ilin prezident seçkilərindən sonra keçirilən andiçmə mərasimində etdiyi proqram xarakterli nitqində cənab İlham Əliyev qarşıdakı dövr üçün respublikamızın prioritet hədəflərini müəyyən etmişdi. Ötən 22 illik tarix sübut etdi ki, bütün seçkilərdə xalqın birmənalı etimadını qazanan Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz həmin strateji hədəflərə doğru inamla çatıb. Ötən illərə nəzər salmaqla Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın hansı uğurlara nail olduğunu görmək mümkündür.

Bu illər ərzində respublikamızda sabitlik qorunub və daha da möhkəmləndirilib. Ulu Öndərin əsasını qoyduğu enerji strategiyası nəinki uğurla davam etdirilib, o cümlədən Prezident İlham Əliyevin uzaqgörənliyi ilə daha da zənginləşdirilib. Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin inşasını təmin edən Prezident İlham Əliyevin bu sahədə yürütdüyü qətiyyətli siyasət nəticəsində sonrakı dövrdə "Cənub qaz dəhlizi" kimi Azərbaycandan Avropaya qədər uzanan nəhəng enerji infrastrukturu yaradılıb. Mükəmməl siyasətin nəticəsidir ki, Azərbaycan Avropanın enerji gündəminin müəyyən edilməsində söz sahibi olan dövlət kimi çıxış edir. İndi respublikamız Avropa İttifaqı ölkələrinin bir qisminin strateji tərəfdaşıdır.

Azərbaycanın enerji siyasətinin daxili siyasətə təsirlərinə gəldikdə, ötən 22 ildə respublikamızın nail olduğu sürətli iqtisadi inkişafda və əhalinin sosial rifahının yüksəldilməsində neft və qaz gəlirlərinin əhəmiyyətli payı var. Hazırda respublikamızın bütün makroiqtisadi və fiskal göstəriciləri - ÜDM istehsalı, idxal-ixrac əməliyyatları, dövlət büdcəsinin gəlir və xərcləri, dövlət büdcəsindən ayrı-ayrı sahələrə ayrılan vəsaitlərin həcmi, pensiyalar, əməkhaqları 2003-cü illə müqasiyədə dəfərlə yüksəkdir. Ötən 22 ildə strateji valyuta ehtiyatlarımız 50 dəfə, dövlət büdcəsinin gəlirləri 32 dəfə artıb. Azərbaycan bu gün kosmosda peyki olan dövlətlər sırasında yer alır. Bütün bunlar Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi inkişaf siyasətinin, əsaslandırılmış islahatların, neft və qaz gəlirlərindən səmərəli istifadənin nəticəsidir. Prezident İlham Əliyevin hələ 2003-cü ildə dediyi "Azərbaycan gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəkdir. Neft strategiyasını davam etdirərək, qısa müddət ərzində ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik" fikrinin real həyatda yerini tutmasının təsdiqini görürük.

Prezident İlham Əliyevin 2003-cü ildə qarşıya qoyduğu əsas strateji hədəflər sırasında ordu quruculuğu və ərazilərimizin işğaldan azad olunması məsələlərini xüsusi qeyd etməliyik. "Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır", - deyən İlham Əliyev 22 il öncə onu da bəyan etdi ki, Azərbaycanın torpaqları mütləq işğaldan azad olunmalı, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bu iki strateji vəzifə ilk gündən Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzində oldu. Respublikamızın artan maliyyə imkanlarına uyğun olaraq ötən illərdə modern ordu quruculuğu prosesi həyata keçirildi, ən müasir silah sistemləri və hərbi texnikalar Silahlı Qüvvələrimizin arsenalına daxil edildi. Bu baxımdan Prezident İlham Əliyevin hələ respublikamıza rəhbərliyinin birinci dövrünün əsas reallıqlarından biri Azərbaycan Silahlı Qüvvələrinin işğalçı ordu üzərində böyük üstünlüyə malik olması idi.

Xalqımız bilirdi ki, sülh danışıqlarının nəticəsiz qalacağı təqdirdə Azərbaycan hərbi güc yolu ilə ərazilərini işğaldan azad edəcək. 2016-cı ilin Aprel döyüşləri və 2020-ci ilin iyulunda Tovuz rayonu istiqamətində Ermənistan ordusuna vurulan ağır zərbə göstərirdi ki, torpaqlarımızın işğaldan azad ediləcəyi tarix uzaqda deyil. 2020-ci ilin sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsində Prezident İlham Əliyev dövlətimizin qarşısında dayanan ən əsas strateji vəzifənin uğurla yerinə yetirilməsini təmin etdi. 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi və Qarabağın erməni separatizmindən xilas olunması Prezident İlham Əliyevin respublikamıza rəhbərliyinin ən böyük nailiyyətləridir. Həm Vətən müharibəsində, həm də antiterror əməliyyatlarında qazanılan zəfərlər yalnız müasir müstəqillik deyil, son bir neçə əsrlik tariximizin möhtəşəm uğurlarıdır.

Prezident İlham Əliyevin qətiyyətli siyasətinin nəticəsi olaraq artıq ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa edilib. İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq prosesi isə Prezident İlham Əliyevin respublikamıza müdrik rəhbərliyinin növbəti qürurdoğuran səhifəsidir.

Qürurla və fəxrlə qeyd etməliyik ki, Azərbaycanı inkişaf yoluna çıxaran, qalib dövlətə çevirən Prezident İlham Əliyev həm də qlobal səviyyədə ehtiram göstərilən lider, böyük nüfuz sahibi olan dövlət başçısıdır. Dövlətimizin başçısının 2-13 oktyabr tarixlərində iştirak etdiyi 4 mühüm tədbir - "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısı, Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü, MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası və Yaxın Şərq Sülh Sammiti bu həqiqətin növbəti təsdiqi oldu.

*Ötən əzəmətli 22 illik tariximiz göstərir ki, Prezident İlham Əliyev Azərbaycanın möhtəşəm uğurlarının müəllifidir. Cənab İlham Əliyev torpaqlarımızın azadlığının, bizə sonsuz sevinc yaşadan zəfərlərimizin memarıdır. Ona görə xalqımız Prezident İlham Əliyevlə hər zaman fəxr edəcək və onun liderliyi ilə yüksəlişin yeni nümunələrini yaradacaq.*

**Müşfiq MƏMMƏDLİ,**
**Milli Məclisin deputatı**

# MÖHTƏŞƏM 22 İL 2003 2025



# İlham Əliyevin sülh gündəliyi və strateji əməkdaşlıq vizyonu



**15 oktyabr 2003-cü il Azərbaycan siyasi tarixinə mühüm dönüş nöqtəsi kimi daxil olub. Xalqımız həmin gün İlham Əliyevi yüksək səs çoxluğu ilə Azərbaycanın Prezidenti seçdi. Prezident İlham Əliyev isə həm daxili, həm də xarici siyasət kursunun əsas hədəfini - torpaqlarımızın işğalına son qoymaq və bayrağımızı azad ediləcək ərazilərimizdə dalğalandırmaq olduğunu bəyan etdi.**

Ulu Öndər Heydər Əliyev də bu missiyanın İlham Əliyev tərəfindən yerinə yetiriləcəyinə dərindən inanırdı. Ümummilli Liderin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək" sözləri məhz Qarabağın azadlığına olan inamın ifadəsi idi. Prezident seçilməsindən 17 il sonra - 2020-ci ildə - Ali Baş Komandan kimi Qarabağ və Şərqi Zəngəzurda Zəfər qazanan İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndidə Azərbaycan bayrağını ucaldaraq bu Qələbəni tamamladı. Xalqımız 2003-cü ildə düzgün seçim etdiyinə bir daha əmin oldu.

Bu gün isə Azərbaycan qarşısına yeni məqsədlər qoyub: davamlı inkişaf və xarici təzyiqlərin neytrallaşdırılması, beynəlxalq arenada mövqelərinin möhkəmləndirilməsi. Dövlətin iqtisadi gücü və qüdrəti onun hərbi gücü qədər vacibdir ki, o öz xarici siyasətində sərbəst, prinsipial və ardıcıl kurs həyata keçirə bilsin.

Prezident İlham Əliyevin sülh gündəliyi regionda və onun sərhədlərini aşan böyük bir coğrafi arealda sabitliyin bərpasına və davamlı əməkdaşlığa xidmət edir. 2025-ci ilin avqustunda Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Ermənistanla əldə olunan razılaşma və onun sentyabrda BMT müstəvisində təqdimatı bu siyasətin real nəticəsinin qəbuludur. Prezidentin sülh və əməkdaşlıq təşəbbüsləri beynəlxalq səviyyədə özünü doğrultmuş təcrübə kimi dəyərləndirilir. Sülh və əməkdaşlıq gündəliyi müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində - BMT, ASB, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq platformalarda Prezident İlham Əliyevin prinsipial dövlət xadimi kimi tanıdıb. Bu kontekstdə 13 oktyabr tarixində Yaxın Şərq Sülh Sammitində Prezident İlham Əliyevin 20-dən artıq siyasi liderlə birgə iştirakı Azərbaycanın qlobal diplomatik müstəvidə nüfuzunun göstəricisidir. Belə ki, Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın və Misir Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Böyük Britaniya, Fransa, İspaniya, Türkiyə liderləri ilə birgə Yaxın Şərq Sülh Sammitində iştirakı Azərbaycanın Avrasiya siyasi arenasında strateji dialoq tərəfdaşı, etibarlı və dost ölkə olduğunu təsdiqləyir.

Azərbaycan Prezidentinin sülh gündəliyini intensiv şəkildə irəlilətməsinə dair ən tutarlı arqumentlərdən biri, son dörd ay ərzində keçirilmiş yüksəksəviyyəli görüşlərin intensiv qrafikidir. Avqust ayında Vaşinqtonda sülh sammiti, bundan əvvəl isə Abu-Dabidə baş tutmuş görüş, sentyabr ayında Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində ŞƏT+ formatında, oktyabrda Kopenhagendə Avropa Siyasi Birliyinin (ASB) Zirvə görüşündə, yenə oktyabrda Qəbələdə Türk Dövlətləri Təşkilatının sammitində və Müstəqil Dövlətlər Birliyinin Düşənbə toplantısında iştirak və bu sammitlər çərçivəsində keçirilən görüşlər və aparılmış danışıqlar Azərbaycanın bu istiqamətdə ardıcıl diplomatik səylər göstərdiyini nümayiş etdirir.

BMT Baş Assambleyasının tribunasında Azərbaycan Prezidentinin təqdim etdiyi "sülhü qazanmağın Azərbaycan təcrübəsi"nə ASB daxilində də maraq göstərilməsi təsadüfi deyil. Aİ Şurasının prezidenti Antonio Koşta ASB 7-ci Zirvə görüşündəki açılış nitqində Azərbaycan Prezidenti və Ermənistan Baş nazirini sülh prosesində atdıqları addımlara görə təbrik edərək, bu istiqamətdə Azərbaycanın sülh gündəliyinə verdiyi dəyəri xüsusi vurğulamışdır. Koşta həmçinin Azərbaycanı Avropa İttifaqı üçün dəyərli tərəfdaş adlandıraraq ölkəmizlə əlaqələri inkişaf etdirməyə sadiq olduqlarını "X" hesabında yazmışdır.

Bu kontekstdə Prezident İlham Əliyevin Danimarkanın paytaxtı Kopenhagendə Ermənistanın Baş naziri Nikol Paşinyanla keçirdiyi görüş Azərbaycanın sülh prosesinə sadiqliyini və sülh gündəliyinin reallaşdırılması istiqamətində ardıcıl fəaliyyətini bir daha təsdiqləyir. Azərbaycanın sülh gündəliyinə və Prezident İlham Əliyevin bu çərçivədəki siyasətinə verilən qiymət həm dövlətimizin sülhə və əməkdaşlığa sadiqliyini, digər tərəfdən isə de-fakto sülhün dayanıqlı sülhə çevrilməsi istiqamətində atılan praktiki addımları təsdiqləyir.

Prezident İlham Əliyevin BMT Baş məclisinin 80-ci sessiyasında çıxışı Azərbaycanın beynəlxalq münasibətlərdə tutduğu prinsipial mövqeyi, beynəlxalq hüquqa sadiqliyi, regional sülhə, sabitliyə və təhlükəsizliyə verdiyi töhfəni bir daha aydın şəkildə nümayiş etdirdi. İlham Əliyev illər boyunca BMT tribunasından Azərbaycanın üzləşdiyi işğal və təcavüz faktlarını gündəmə gətirdiyini xatırladaraq, bu gün artıq qalib dövlətin lideri kimi regionda sülhə və əməkdaşlığa töhfə verməyə hazır olduğunu bəyan etdi.

Bu, təkcə milli maraqların təmin olunması deyil, eyni zamanda beynəlxalq hüququn aliliyinin təsdiqi baxımından da mühüm presedent kimi qiymətləndirilir. Belə ki, beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunması, BMT Nizamnaməsinə görə, onun ali orqanlarından olan Təhlükəsizlik Şurasının üzərinə düşsə də, real addımlar atılmadı.

Postmünaqişə dövründə aparılan sülh danışıqlarını üçüncü qüvvələrin müdaxiləsindən qorumaq və vasitəçisiz uğurla başa çatdırmaq da sülh qazanmağın Azərbaycan modelinin əsas komponentlərindəndir. Regionda sülhü və təhlükəsizliyi hərbi, siyasi və diplomatik vasitələrlə təmin edən, "müharibəni udan və sülhü qazanan" dövlətin lideri bu təcrübəni, Azərbaycan təcrübəsini bölüşməyə hazır olduğumuzu bu universial təşkilatın ali kürsüsündən bəyan etdi.

Dövlət başçısının çıxışında əks olunan əsas mesajlar son beş ildə Zəfərimizdən sonra regionda yaranmış yeni geosiyasi reallıqların təməlində duran mühüm məqamları əhatə edir. Prezidentin vurğuladığı kimi, Azərbaycan uzun illər işğal və ədalətsizlikdən əziyyət çəkdiyi, ikili standartlarla üz-üzə qaldığı halda, BMT Nizamnaməsinə, müvafiq qətnamələrinə və beynəlxalq hüquq prinsiplərinə əsaslanaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etmişdir.

Prezident İlham Əliyevin "Gəlin birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı dünya quraq" çağırışı, qlobal miqyasda hüquq və ədalətə əsaslanan yeni beynəlxalq münasibətlər sisteminə ehtiyac olduğunu diqqətə çatdırır. Bu, həm inkişaf etməkdə olan ölkələrin, həm də münaqişə bölgələrinin ədalətli münasibətə ehtiyacı olduğuna dair mühüm mesajdır. Bu mesajın əhəmiyyəti həm də ona görə diqqət çəkir ki, BMT təşkilat olaraq Nizamnaməsinin 2-ci maddəsinə görə, üzv dövlətlərin suveren bərabərliyi prinsipinə əsaslanır.

Azərbaycan Prezidenti BMT tribunasından çıxış edərək ölkəsinin sülh təşəbbüslərinə sadiqliyini, dövlətlərarası münasibətlərdə qarşılıqlı hörmət və suverenliyə əsaslanan yanaşmanı dəstəklədiyini bir daha bəyan etdi. Bu yanaşmanın hazırkı dövrdə beynəlxalq təhlükəsizlik və davamlı inkişaf üçün strateji əhəmiyyəti böyükdür. Prezident İlham Əliyevin çıxışı BMT-nin ali tribunasında Azərbaycanın haqlı mövqeyinin və beynəlxalq hüquqa söykənən siyasətinin ifadəsi olmaqla yanaşı, qlobal ədalət, sabitlik və əməkdaşlıq çağırışının da bariz nümunəsidir. Prezidentin çıxışı Azərbaycan diplomatiyasının sülh yönümlü, prinsipial və konstruktiv xarakter daşıdığını bir daha sübut edir. Bu çıxış həm regional sabitlik, həm də beynəlxalq əməkdaşlıq üçün əhəmiyyətli bir sənəd kimi qiymətləndirilə bilər.

İkinci Qarabağ müharibəsindən və suverenliyimizin bərpasından sonra yeni yaranmış reallıqlar şəraitində ABŞ-lə yanaşı, həm də Avropa İttifaqı ilə münasibətlərimizdə intesivləşmə və yaxşılaşma müşahidə olunur. Azərbaycanın əsas ticarət tərəfdaşı olan Avropa İttifaqı siyasi münasibətlər müstəvisində zaman-zaman, xüsusən torpaqlarımız işğal altında olarkən Azərbaycana qarşı qərəzli mövqeyi ilə gündəmə gəlib. Təəssüf ki, Avropa Parlamenti qərəzli mövqeyindən bu gün də əl çəkməyib.

Amma Zəfərimiz nəticəsində yaranmış yeni reallıqların üstünlükləri Brüsseldə də qəbul olunur və bu, xüsusi ilə Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin ikinci kabinetinin ölkəmizə münasibətdə sərgilədiyi mövqedə müşahidə olunur. Bu kontekstdə genişlənməyə məsul komissarın sentyabr ayında Azərbaycana səfərinə son dövrlər Aİ rəsmiləri ilə Azərbaycan arasında intensivləşən səfərlər kontekstində qiymət vermək olar. May ayında Tiranada, oktyabr ayında Kopenhagendə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının sədri Ursula fon der Lyayenlə görüşləri baş tutub. Avqustda Aİ-nın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini cənab Prezident Bakıda qəbul edib. Sentyabrda Aİ-nin genişlənmə məsələləri üzrə komissarı ölkəmizə səfəri çərçivəsində həmçinin işğaldan azad edilmiş ərazilərə, Ağdam rayonuna səfər edib və orada minatəmizləmə fəaliyyəti ilə tanış olub.

Avropa İttifaqının postmüharibə dövründə barışıq istiqamətində geniş potensialı və təcrübəsi var. İkinci Dünya müharibəsindən sonra bu qurumun formalaşmasında iştirak edən 6 dövlət, ilk növbədə, müharibəyə səbəb ola biləcək resursları - kömür və polad sənayesinin idarəsini əlaqələndirdilər. Bizim regionda isə belə əlaqələndirici və sülhə və sabitliyə xidmət edən məsələlər sırasında tranzit-nəqliyyat infrastrukturu layihələri, enerji sahəsində əməkdaşlıq yer alır. Həmçinin insanlararası əlaqələr qurulması və etimad quruculuğu məsələlərində Aİ-nin təcrübəsindən yararlanmaq olar.

Aİ ilə münasibətlərdə yer alan çox mühüm məqamlardan biri logistika-nəqliyyat məsələsidir. Qara Dəniz Avropanı Cənubi Qafqazla ayrıcı yox, birləşdirən məkan olmalıdır. Qara dəniz Aİ ölkələrini eyni zamanda Gürcüstan və Azərbaycan vasitəsilə Mərkəzi Asiya ilə birləşdirir. Aİ-nin Mərkəzi Asiya ilə münasibətlərində də intensivləşmə müşahidə olunur. Brüssel Mərkəzi Asiya ölkələrinə münasibətdə "Qlobal Gateway" (Qlobal keçid) təşəbbüsü çərçivəsində əməkdaşlıq təklif edib. 2021-ci ildə start verilən "Qlobal Gateway" layihəsinin 300 milyard avroluq büdcəsi var və beynəlxalq müstəvidə 90 layihəni əhatə edir. 2030-cu ilədək tranzit infrastrukturun yaradılması məqsədilə Mərkəzi Asiya ölkələrinə 10 milyard avro investisiya yatırmaq istəyirlər. Aİ müəyyən xammalın, qiymətli metalların Mərkəzi Asiyadan idxalını planlaşdırır. Belə ki, Aİ Mərkəzi Asiyadan xüsusi ilə hərb sənayesində ciddi ehtiyac duyduğu qiymətli metalların və digər xammalın sabit, alternativ yollarla idxalında maraqlıdır. Bu sahədə tələb olunan 39 müxtəlif qiymətli metalın 9 növü Avropa ərazisində kritik həddə çatışmazlığı ilə ciddi narahatlıq yaradır.

Eyni zamanda Aİ ilə Çin arasında intensivləşən ticari münasibətlərdə tranzit ölkə kimi Azərbaycan Orta dəhlizin vacib hissəsi kimi mühüm rol oynayır. Bu həmçinin Zəngəzur dəhlizi (TRIPP) üçün uğurlu perspektiv vəd edir. İstənilən halda Aİ-nın yeni reallıqları nəzərə alaraq, öz siyasətində dəyişiklik etməsinin tam zamanıdır və bu istiqamətdə fəaliyyət sərgiləndiyi müşahidə olunur. Bu reallığı yaradan Azərbaycanın sülh gündəliyi və yeni reallıq şəraitində əməkdaşlığı müəyyən edən Prezident İlham Əliyevin strateji vizyonudur. Qalib Azərbaycanın təklif etdiyi əməkdaşlıq platformasında ayrı-ayrı aktorlar yer almaq istəyir və onun üçün də Bakıya səfərlər və ayrı-ayrı beynəlxalq platformalarda Prezident İlham Əliyevlə dialoq intensivləşib.

Məlum olduğu kimi, oktyabrın 7-də Qəbələdə "Regional sülh və təhlükəsizlik" mövzusunda Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşü keçirilib. Qəbələ Zirvə görüşünün regional sülh və təhlükəsizlik məsələlərinə həsr edilməsinə bir sıra mühüm amillər səbəb olub. Bu amillər həm regional, həm də qlobal miqyasda mövcud çağırışlardan, eləcə də üzv dövlətlərin xarici siyasətində sülh və sabitliyə verdikləri strateji önəmdən qaynaqlanır. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə regionda yeni siyasi reallıq formalaşdırıb. Bu reallığın əsasında dayanan sülh gündəliyi artıq Prezident İlham Əliyev tərəfindən BMT və ASB səviyyəsində təqdim olunaraq yüksək qiymətləndirilib. Belə ki, təhlükəsizliyin və dayanıqlı sabitliyin təmini ilə bağlı məsələlər təkcə türk dövlətləri arasında deyil, həm də ASB və BMT Baş Assambleyası kimi beynəlxalq platformalarda da müzakirə mövzusu olmuşdur. Prezident İlham Əliyevin bu tədbirlərdə təhlükəsizlik və dayanıqlı sabitliklə bağlı sülh gündəliyinin təqdimatı ciddi maraq doğurmuşdur.

TDT Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə isə yeni regional güc mərkəzi kimi formalaşmaqda olan TDT çərçivəsində təhlükəsizlik məsələsinin dövlət başçıları səviyyəsində gündəmə gətirilməsinə şahidlik etdik. Ortaq dəyərlər, dil, mədəniyyət, tarix və din bağları ilə birləşən, oxşar strateji maraqları olan dövlətlərin iqtisadi, enerji və siyasi əməkdaşlıqla yanaşı, təhlükəsizlik sahəsində əməkdaşlıq etmək və birgə hədəflərə nail olmaq istiqamətdə öz qətiyyətlərini ortaya qoyurlar. TDT-nin Qəbələ Zirvəsinin gündəminin yeni əməkdaşlıq sahələri üzrə formalaşdırılması ev sahibi dövlət kimi Azərbaycanın təşəbbüsü ilə, Prezident İlham Əliyevin sülh gündəliyindən qaynaqlandığı aydındır. Bu məsələnin uğur qazanması strateji müttəfiqlərimiz, qardaş türk dövlətlərinin verdiyi dəstəyin nəticəsində mümkün olmuşdur.

Prezident sözügedən sülh gündəliyinin TDT Qəbələ Zirvə Görüşünün çərçivəsində təqdim olunması yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından da mühüm əhəmiyyət daşıyır. Azərbaycanın evsahibliyi etdiyi hər bir Zirvə görüşü istər 2000-ci ildə Bakı, 2009-cu ildə Naxçıvan, 2013-cü ildə Qəbələ, 2024-cü ildə Şuşa, istərsə də bu il Qəbələdə keçirilən toplantı TDT-nin inkişafı baxımından xüsusi əhəmiyyəti ilə seçilib. Budəfəki Zirvə görüşü isə təhlükəsizlik, müdafiə sənayesi və hərbi əməkdaşlıq sahəsində çoxşaxəli əməkdaşlığın əsasını qoydu.

Prezident İlham Əliyevin ortaya qoyduğu sülh modeli hərbi, siyasi və diplomatik vasitələrlə sabitliyin yaradılması təcrübəsi artıq türk dünyası üçün örnəkdir. Bu model indi çoxtərəfli əməkdaşlıq formatında strateji müttəfiqlərimizlə bölüşülür. Ortaq tarix, dil və dini dəyərlər üzərində qurulan bu birliyin əsas məqsədi təhlükəsizlik və sabitlik sahəsində uzunmüddətli, institusionallaşmış əməkdaşlıq yaratmaqdır. Qəbələ Zirvə görüşü TDT tarixində təhlükəsizlik, müdafiə və sülh sahəsində yeni mərhələnin əsasını qoyan tarixi toplantı kimi qalacaq.

Müasir dövrdə regional və qlobal səviyyədə baş verən hadisələr və mövcud çağırışlar təhlükəsizlik və müdafiə məsələlərini beynəlxalq gündəliyin prioritet istiqamətlərindən birinə çevirib. TDT çərçivəsində keçirilən son sammit də bu istiqamətdə mühüm müzakirə platforması kimi çıxış etdi. Belə ki, Qəbələ görüşü zamanı ilk dəfə bu qədər açıq və səmimi şəkildə müdafiə sənayesi və təhlükəsizlik sahəsində əməkdaşlıq məsələləri əsas mövzuya çevrildi. Prezident İlham Əliyevin bu sahədə irəli sürdüyü təşəbbüslər həm regional, həm də beynəlxalq təhlükəsizlik müstəvisində əhəmiyyətli strateji addım kimi dəyərləndirilə bilər.

Xarici siyasət sahəsində bir sıra yeni hədəflər Qəbələ Bəyannaməsinin mətnində təsbit olunmuşdur. Belə ki, TDT-yə BMT Baş məclisi və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində müşahidəçi statusunun verilməsi üçün diplomatik səylərin artırılması zərurəti vurğulanmışdır. Eyni zamanda Afrika İttifaqı və Ərəb Dövlətləri Liqası ilə institusional əməkdaşlığın yaradılması qarşıya qoyulmuşdur. TDT+ formatının təsis olunması üçün bu təşkilata üçüncü dövlətlərin artan maraqlarının və əməkdaşlıq niyyətlərinin institutlaşdırılması məqsədinə xidmət edir. Xüsusi ilə TDT çərçivəsində çoxşaxəli və yeni əməkdaşlıq sahələrinin reallaşdırılması üçün möhkəm hüquqi əsasın yaradılması çox vacibdir. Bu mənada "Türk Dövlətlərinin strateji tərəfdaşlığı, əbədi qardaşlığı və dosluğu haqqında müqavilə"nin tezliklə imzalanması üçün dövlətdaxili hüquqi prosedurların tezləşdirilməsi üçün üzv dövlətlərə çağırış edilmişdir.

Ev sahibi kimi Azərbaycanın çıxış etdiyi təşəbbüslərə digər qardaş və strateji tərəfdaşlarımızın verdiyi dəstək nəticəsində bu hədəflər TDT Fəaliyyət Planının əsasını təşkil edəcəkdir. Hazırda həm regional, həm də qlobal miqyasda müşahidə olunan hibrid təhlükələr, enerji təhlükəsizliyi böhranları və münaqişə ocaqlarının aktivləşməsi yeni tipli əməkdaşlıq mexanizmlərinin formalaşmasını zəruri edir. Türk dünyasının coğrafi məkanında yerləşən bəzi ərazilər uzun illər müxtəlif münaqişələrin mərkəzində olub, eləcə də qonşuluqda olan ciddi münaqişələr təhlükəsizliyə və sabitliyə risklər törətməkdə davam edir. Məhz bu səbəbdən TDT ölkələrinin müdafiə və təhlükəsizlik sahəsində əlaqələndirilmiş fəaliyyəti regional sabitliyin əsas təminatına çevrilə bilər.

Regional sülhün və təhlükəsizliyin təmin edilməsi, dayanıqlı sabitliyə nail olunması hərbi və müdafiə sənayesi, təhlükəsizlik sahələrində əməkdaşlıqla yanaşı, iqtisadiyyat, nəqliyyat və digər əlaqəli sahələrdə də hərtərəfli əməkdaşlığı özündə əhatə edir. Çünki təhlükəsizlik çoxşaxəli, çoxsahəli əməkdaşlığı özündə ehtiva edən məsələdir.

Bu kontekstdə Zəngəzur dəhlizinin (TRIPP) reallaşması türk dövlətləri arasında iqtisadi və nəqliyyat təhlükəsizliyini gücləndirəcək, həmçinin Şərq-Qərb istiqamətində strateji üstünlük yaradacaq. Zəngəzur dəhlizi (TRIPP) vasitəsilə Türkiyədən Azərbaycan üzərindən Orta Asiyaya birbaşa, maneəsiz quru əlaqəsinin bərqərar olması yalnız ticarət dövriyyəsini deyil, "yaşıl enerji"nin ixracını və dəmir yolu layihələrinin icrasını da stimullaşdıracaq. Bu isə türk dövlətlərinin "Şərq-Qərb nəqliyyat dəhlizi"ndə artan çəkisini bir daha təsdiqləyəcək.

Mərkəzi Asiyadan Türkiyənin Avropa sərhədlərinədək uzanan böyük coğrafi arealda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasında türk dövlətlərinin və Azərbaycanın malik olduğu coğrafi mövqe və resurslar strateji əhəmiyyəti ilə seçilir. Bu coğrafi mövqenin strateji üstünlükləri və ondan irəli gələn nəqliyyat, logistika və tranzit sahəsində əməkdaşlıq imkanları və yaradılan infrastruktur Azərbaycanın və TDT-nin əhəmiyyətini qlobal səviyyədə artırır. Azərbaycanın ərazi bütövlüyü və suverenliyini bərpa etməklə yaratdığı yeni siyasi reallıq və buna uyğun təklif olunan əməkdaşlıq imkanları regionun cəlb ediciliyini daha da artırır.

Prezident İlham Əliyev BMT, ASB və TDT çərçivələrində ölkəmizin sülh gündəliyini və onun çərçivəsindəki iqtisadi, enerji, nəqliyyat-tranzit əməkdaşlıq imkanlarını təqdim etdi. Digər dövlətlər tərəfindən bu sülh və əməkdaşlıq gündəliyi təqdir olunur və onlar bu əməkdaşlıqda yer almaq istəyirlər. Nəqliyyat-tranzit təhlükəsizliyinin təmin olunması artıq ikitərəfli Azərbaycan-Ermənistan əməkdaşlıq müstəvisini aşaraq, regional və çoxtərəfli əməkdaşlıq kontekstində yer alan məsələdir. Şərq-Qərb, Orta dəhliz artıq təkcə iştirakçı dövlətlər deyil, həm də daha geniş coğrafiyada yer alan dövlətlərin iqtisadi-siyasi marağında olan bir məsələdir. Bu mənada Zəngəzur dəhlizinin, TRIPP marşrutunun reallaşdırılmasının Prezident Donald Trampın şahidliyi ilə əldə edilən tarixi Vaşinqton razılaşmasında yer alması onun beynəlxalq əhəmiyyətini bir daha təsdiqləyir. Ona görə də Ermənistanda Zəngəzur dəhlizinin necə adlandırılması, Zəngəzur dəhlizinin, TRIPP marşrutunun reallaşmasına Ermənistanda aparılan bu siyasi diskussiyalar geniş anlamda mənfi təsir edə bilməyəcək. Çünki bu məsələ Azərbaycan ərazi bütövlüyü və suverenliyini təmin etdikdən sonra yaratdığı yeni siyasi reallıqlar şəraitində regional sülhə, sabitliyə töhfə verən strateji əhəmiyyətli layihədir. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Zəngəzur dəhlizi (TRIPP) Şərq-Qərb, Orta dəhlizlə yanaşı, eyni zamanda Şimal-Cənub dəhlizinin vacib hissəsidir. Bu mənada onun reallaşdırılması hazırkı siyasi reallığın şərtləndirdiyi, əməkdaşlığın dərinləşdirilməsi iradəsindən ortaya çıxan məsələdir.

2022-ci ildən bəri Orta dəhlizlə yükdaşımaların təqribən 90 faiz artması bunu bir daha təsdiqləyir. Bu dəhliz Vaşinqton görüşünün yekun Birgə Bəyannaməsində də təsbit edildiyi kimi, dövlətdaxili, dövlətlərarası və beynəlxalq əhəmiyyətə malikdir. Zəngəzur dəhlizi (TRIPP) yalnız idxal-ixrac əməliyyatları baxımından deyil, həm də regionada rifaha, sabitliyə və təhlükəsizliyə töhfə vermək baxımından önəmlidir. Çoxşaxəli əməkdaşlığın Zəngəzur dəhlizi (TRIPP) vasitəsilə reallaşdırılmasında çoxsaylı dövlətin də maraqlı olmasını nəzərə alsaq, onun reallaşdırılması elə də uzaq olmayan zaman məsələsidir.

***Rizvan NƏBİYEV,***
***Milli Məclisin deputatı, siyasi elmlər doktoru***



# MÖHTƏŞƏM 22 İL 2003 2025

# İlham Əliyev Azərbaycanı "yaşıl enerji"nin istehsalı və ixracında da lider mövqeyə yüksəldir



**Dünyanın bir çox görkəmli siyasətçiləri və energetika mütəxəssisləri deyirlər ki, Heydər Əliyev olmasaydı, Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri olmazdı. Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin yeni neft strategiyasını uğurla davam etdirərək Azərbaycanın karbohidrogenlərinin dünyaya ixracının BTC ilə başlanan böyük yolunu daha da şaxələndirdi. Neft ölkəsi Azərbaycan həm də qaz ixracatçısına çevrildi. Və bu gün beynəlxalq aləmdə haqlı olaraq etiraf edilir ki, Avropanın enerji xəritəsini dəyişdirən "Cənub qaz dəhlizi" İlham Əliyevin meqalayihəsidir.**

Prezident İlham Əliyevin meqalayihələri "Cənub qaz dəhlizi" ilə bitmir. İndi biz Avropaya "yaşıl dəhliz" açmağı da hədəfləmişik və bu məqsədə doğru inamla irəliləyirik. Bərpaolunan enerji layihələrimizin sayı ildən-ilə artır. 2030-cu ilə qədər ölkəmizdə təxminən 6 qiqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi planlaşdırılır. Lakin bu, planlarımızın hamısı deyil, çünki 10 qiqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Xatırladaq ki, Azərbaycanın bərpaolunan enerjidə texniki potensialı quruda 135 qiqavat və dənizdə 157 qiqavat təşkil edir. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli İlham Əliyevin enerji siyasətinin prioritetlərindəndir. Ölkəmiz elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. Məlum olduğu kimi, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri məhz "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Bununla bağlı ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində ardıcıl iş aparılır. Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb.

Dövlətimizin başçısının neft-qaz sahəsində yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması indi "yaşıl enerji" ilə daha da möhkəmlənir. Ölkəmizdə bərpaolunan enerji sahəsinə getdikcə daha çox xarici şirkər sərmayə qoymaq təşəbbüsünü bəyan edir. Prezidentimizin Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında yaratdığı dostluq və etimad bu sahədə özünü ən önəmli layihələrin gerçəkləşməsi ilə göstərir.

BƏƏ-nin tanınmış "Masdar" şirkətinin sərmayəsi ilə Bakıda tikilən 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası artıq iki ildir fəaliyyətdədir. Bu, Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kilovatsaat elektrik enerjisi istehsal olunmaqla 110 milyon kubmetr həcmində təbii qaza qənaət edilməsi mümkündür. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. "Qaradağ" 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək.

2023-cü il oktyabrın 26-da "Qaradağ" stansiyasının açılış mərasimi çərçivəsində dövlətimizin başçısının iştirakı ilə Azərbaycan Hökuməti və Birləşmiş Ərəb Əmirliklərininn"Masdar" şirkəti arasında ümumi gücü 1000 MVt olan "yaşıl enerji" layihələri üzrə üç investisiya müqaviləsi imzalanıb. İnvestisiya müqavilələri Biləsuvar rayonunda 445 MVt gücündə, Neftçala rayonunda 315 MVt gücündə günəş-elektrik stansiyaları və Abşeron-Qaradağ rayonunda 240 MVt gücündə külək-elektrik stansiyası layihələrinin icrasını nəzərdə tutur. İnvestisiya müqavilələri 2022-ci ilin iyun ayında şirkətlə bərpaolunan enerji mənbələri üzrə 4 QVt gücündə "Meqa" layihələrin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı imzalanmış icra müqavilələrinin birinci mərhələsini əhatə edir. Keçən il iyunun 4-də isə Bakı Enerji Həftəsinin açılışı günü eyni zamanda sözügedən stansiyaların təməli qoyuldu. Hazırda bu layihələr öz icrasının müxtəlif mərhələlərindədir.

Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti isə qoyuluş gücü 240 MVt olan Xızı-Abşeron Külək-Elektrik Stansiyası layihəsini reallaşdırmaqdadır. Bundan əlavə, Azərbaycanın Energetika Nazirliyi ilə "ACWA Power" şirkətinin 200 MVt gücündə Batareya Enerji Saxlanc Sistemi (BESS), 200 MVt gücündə quruda külək stansiyası və digər layihələr üzrə də müqavilələri var.

Prezident İlham Əliyev uzaq Çini də Azərbaycana yaxın edib. Keçən ilin iyul ayında ŞƏT-in (Şanxay Əməkdaşlıq Təşkilatı) Astanada keçirilən 24-cü sammitində imzalanmış Azərbaycan-Çin strateji tərəfdaşlığının qurulmasına dair Birgə Bəyannamə ölkələrimizin qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığının inkişafına geniş imkan yaratdı. Bu ilin aprel ayında Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində imzalanan Birgə Bəyanatı isə əlaqələrin daha da dərinləşməsi və şaxələnməsinə daha geniş yol açdı. Bəyanatın bəndlərindən birində tərəflər iki ölkənin enerji keçidini, dayanıqlı sosial-iqtisadi inkişafını təşviq edərək bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirməyə və təmiz enerji sahəsində qlobal tərəfdaşlığın formalaşmasını birgə irəlilətməyə hazır olduqlarını bildirdilər. Bununla da həmin vaxtadək artıq başlanmış olan "yaşıl enerji" əməkdaşlığının qarşısında daha gur "yaşıl işıq" yandırıldı. Bərpaolunan enerji sahəsində əməkdaşlığa dair 6 sənəd imzalandı.

Ölkəmizdə həyata keçirilən ən iri neft-qaz və ixrac layihələrinin əməliyyatçısı olan BP şirkəti bu sahədə də ön sıralardadır. İndi bu şirkət işğaldan azad olunmuş Cəbrayıl rayonunda 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyasını inşa edir.

Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzur Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonası elan edilib. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması ən vacib məsələlərdəndir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Bu ərazilərdə həm günəş və külək, həm də hidroenerji potensialı böyükdür. Su-elektrik enerjisi xüsusi yer tutur. Bu yaxınlarda Kəlbəcərdə dövlətimizin başçısının iştirakı ilə istifadəyə verilmiş 3 yeni su-elektrik stansiyası da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərimizdə bu cür enerji obyektlərinin sayı 38-ə, ümumi gücü isə 307 MVt-a çatdırılıb.

Naxçıvan da Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonası elan olunub. Muxtar respublikanın inkişafı məqsədilə bir sıra prioritet istiqamət müəyyənləşdirilib ki, bunlardan biri də ərazinin zəngin enerji resurslarından səmərəli istifadə və "yaşıl enerji" zonası üzrə layihələrin icrasıdır. Hazırda icrası davam etdirilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da bu istiqamətdə müvafiq layihələr öz əksini tapıb. Həmçinin dövlət başçısının 23 dekabr 2024-cü il tarixli sərəncamına əsasən Naxçıvanda yeni istilik elektrik stansiyası tikiləcək.

Regional gündəlikdə də "yaşıl enerji" layihələri üzərində iş gedir. Təkcə Azərbaycanda deyil, Mərkəzi Asiya ölkələrində də günəş və külək-elektrik enerjisi stansiyaları yaradılır. Dövlətimizin başçısı bu istiqamətdə də əməkdaşlığı genişləndirir. Ötən il noyabrın 13-də Bakıda COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalamışlar. Həmin sənədə əsasən, Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi nəzərdə tutulur. Bu xətt Mərkəzi Asiyada istehsal olunan "yaşıl enerji"ni Azərbaycanın infrastrukturuna birləşdirəcək.

Xatırladaq ki, 2022-ci il dekabrın 17-də isə Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanmışdır. Bunun üçün Qara dənizin dibi ilə "yaşıl enerji" kabeli çəkiləcək. Yəni region təkcə Cənubi Qafqazı əhatə etmir, burada daha geniş coğrafiya əhatə olunur. Mərkəzi nöqtə isə məhz Azərbaycandır.

Prezidentimiz bu ilin iyul ayında Xankəndidə keçirilən 3-cü Qlobal Media Forumunda həmin layihələrin də uğurla nəticələnəcəyinə inam ifadə etmişdir: "Biz artıq bunu proqnozlaşdıra bilərik ki, Azərbaycan, Mərkəzi Asiya və Avropa ölkələri arasında imzalanmış sənədlər Azərbaycanın bir növ qovşaq olacağını nümayiş etdirir. Azərbaycan nəqliyyat, istehsal və paylama nöqtəsi olacaqdır. Bizim çox böyük artım potensialımız var".

Beləliklə, dünyanın iqlim və enerji yolunda taleyüklü bir mərhələyə daxil olduğu vaxtda Azərbaycanın "yaşıl enerji" zonaları, "yaşıl enerji" dəhlizləri, enerji saxlama, şəbəkə infrastrukturu və hidrogen sahəsindəki təşəbbüsləri qlobal iqlim hədəflərinə çatmaq üçün həlledici rol oynayır. Bu təşəbbüslər Azərbaycanı bərpaolunan enerjinin inkişafı və ixracında lider mövqeyə yüksəltməklə yanaşı, genişmiqyaslı ötürmə, uzaq potensial enerji mənbələrinin istehlak mərkəzləri ilə əlaqələndirilməsi, enerji təchizatı ilə tələbat arasında tarazlığın təmin edilməsi və böyük həcmdə "yaşıl enerji" güclərinin şəbəkəyə inteqrasiyası ilə qlobal miqyasda təmiz enerjinin inkişafını sürətləndirmək üçün unikal imkanlar yaradır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Anda sədaqət

**Quş qanadlı illər nə tez ötüb keçdi. Yaşanan illər sanki kinolentinə bənzəyir. Bəzən ılıq yaz mehi kimi, bəzən qarlı-çovğunlu rüzigar kimi öz axarıyla ötüb gedir. Bizə qalan isə xatirələrdi. Acılı, şirinli xatirələr...**

Qəribə bir adətdir. Nədənsə mühüm tarixi məqamlarla dönüb geriyə baxırsan, keçdiyin yola nəzər salırsan, qazandıqlarını, itirdiklərini təhlil edirsən, daha böyük hədəflərə qovuşmaq üçün yeni imkanlar arayırsan, nurlu sabahların möhtəşəm uğurlarına toparlanırsan. 15 oktyabr xalqımız və dövlətimiz üçün əlamətdar bir gündür, gerçək uğur tarixidir. 22 il əvvəl böyük Zəfərə, şanlı Qələbəyə, ərazi bütövlüyümüzün bərpasına, dinamik inkişafa, dayanıqlı ictimai-siyasi sabitliyə, dövlət və xalq olaraq məğlub durumdan çıxmağa aparan müqəddəs yolda ilk addım atıldı. Bu yolun başlanğıcı olan Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyev xalqın böyük əksəriyyətinin etimadını və etibarını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildi.

Arxada qalan 22 ildə xatırlanası, qürur duyulası çox hadisələr olub. Bir hadisəni yaddaşımızın "qızıl fondu"nda hələ də qoruyub saxlayırıq. Prezidentliyə namizədliyi irəli sürülmüşlər sırasında heç şübhəsiz ki, dahi Heydər Əliyev məktəbinin layiqli yetirməsi olan İlham Əliyevin buna hamıdan çox haqqı vardı. Namizəd olaraq İlham Əliyev regionlara səfərlər edir, seçicilərlə görüşlər keçirirdi. Bərdə rayonu ərazisində salınmış Türk "Qızıl ay" çadır düşərgəsinin sakinləri ilə keçirilən görüşdə biz də iştirak edirdik. Ağdam rayonundan məcburi köçkün Tünzalə Vəliməmmədova ilə prezidentliyə namizəd İlham Əliyev arasında maraqlı dialoq oldu. Səmimi söhbət zamanı İlham Əliyev isti yuvalarından, doğma evəşiklərindən perik salınıb, çadırlarda ağır şəraitdə yaşayan ağdamlı, laçınlı, şuşalı, kəlbəcərli, ağdərəli... soydaşlarına inamlı bir tərzdə dedi ki, Azərbaycanda bir çadır düşərgəsi də qalmayacaq. Biz torpaqlarımızı azad edəcəyik! Ermənistan silahlı qüvvələrinin dağıtdıqları kəndləri, şəhərləri yenidən quracağıq. Həm də daha gözəl, daha yaraşıqlı. Siz mütləq öz doğma yuvalarınıza qayıdacaqsınız. Biz birlikdə buna nail olacağıq!

22 il əvvəl İlham Əliyevin verdiyi söz bu gün könlümüzü qürurlandıran bir reallıqdır. Həmişə verdiyi sözə sahib çıxmaq Prezident İlham Əliyev üçün dəyişməyən xarakterdir və doğma, xalqı onu sözü bütövlüyünə, səmimiyyətinə, hər ailəyə, hər bir vətəndaşa ünvanlanan qayğı və diqqətinə görə çox sevir, hər məqamda böyük məhəbbət və ehtiramını bildirir. Yenilməz xalq-Prezident birliyini formalaşdıran da məhz bu əsas şərtlərdir.

Sözü ilə əməli bir olan, doğma xalqından güc alan lider sonda əsl qəhrəmana çevrilir. Xalq öz oğluna inanır, etibar edir, güvənir. Əmin olur ki, dövlət adlı gəminin sükanı etibarlı əldədir. İlham Əliyev rəhbərlik etdiyi dövləti fırtınalardan, qasırğalardan keçirməyə, qələbəyə qovuşdurmağa qadirdir. Çünki, şərəflə xidmət etdiyi doğma xalqından güc alır. Həmin gücün mənbəyi isə tükənməzdir, əbədidir.

Bu tarixi məqamda geri boylanıb yaşananları yada salmaq, xatirələri vərəqləmək gerçək bir könül xoşluğudur. İlham Əliyev xalqın böyük əksəriyyətinin səsi ilə ilk dəfə prezident seçildikdən sonra Milli Məclisdə andiçmə mərasimi keçirilirdi. Bütün ölkə diqqət kəsilmişdi. Yeni dövlət başçısının yüksək tribunadan bəyan edəcəyi fəaliyyət proqramını, müəyyən edəcəyi yeni hədəfləri hamı maraqla gözləyirdi. Prezident İlham Əliyev güclü məntiqə söykənən aydın və səlist nitqində xalq və dövlət üçün həyati əhəmiyyətli vəzifələrə önəm verdi. Heydər Əliyev siyasi kursunun uğurla davam etdiriləcəyini vurğuladı. Ərazilərimizin işğal altında qalmaması üçün qarşıya təxirəsalınmaz vəzifələr qoydu: "Azərbaycan torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqların işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram".

Müqəddəs andına sədaqətli olduğunu bütün şüurlu fəaliyyətiylə təsdiq edən Prezident İlham Əliyevin bu gün xalq qarşısında alnı açıqdır, üzü ağdır. O, Müzəffər Ali Baş Komandan kimi rəhbərlik etdiyi şanlı ordunun, qəhrəman Azərbaycan əsgərinin gücü, arxalandığı xalqın dəstəyi ilə Ermənistan silahlı qüvvələrini darmadağın etdi, erməni faşist ordusunu diz çökdürdü. Beləcə torpaqlarımızın 30 il davam edən işğalına son qoyuldu. Zaman Prezident İlham Əliyevin xilaskar adını Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazdı.

Bu gün vətənini, dövlətini, xalqını sevən hər bir azərbaycanlının qəlbində İlham Əliyev adlı bir məhəbbət abidəsi var. Səni zəfərə qovuşduran, sənə qələbəni ərmağan edən bir Müzəffər Sərkərdəni necə sevməyəsən. Vətən dediyimiz bu torpağın yaralarına məlhəm olub ərazi bütövlüyümüzü təmin edən, üçrəngli bayrağımızı Qarabağda qartalların qıy vurduğu zirvələrə sancan, xalqı tarixi xəcalətdən xilas edib, əyilmiş qəddimizi düzəldən, Cıdır düzündə yallı gedən, insanlığın üz qarasına çevrilmiş ünsürləri qovub "Şuşa! Sən azadsan!" deyən Xan qızının yurdunda hərarətli əlləriylə hər daşa-divara övlad məhəbbətiylə sığal çəkən, bəzən safqəlbli uşaq kimi kövrələn vətən sevdalı bir qəhrəmanın ətrafında sıx cərgələrlə necə birləşməyəsən?!.

Nə xoş bizlərə ki, bu gün azərbaycanlı olmağımızla qürur duyuruq. Mötəbər məclislərdə, beynəlxalq tədbirlərdə söz sahibiyik, dünyada sayılıb, seçilirik. Müstəqil, suveren, güclü-qüdrətli bir dövlətin Prezidenti kimi İlham Əliyevlə hesablaşırlar. İqtisadiyyatımız ildən-ilə güclənir. Regionun ən yenilməz gücünə çevrilmiş ordumuza dünyada maraq artıb. Ölkəmizdə sənaye yüksələn xətlə inkişaf edir, fabrik və zavodların sayı ildən-ilə artır, aqrar sektor bacarıqla sənaye təməli üzərinə keçirilir. Dövlət təhsilin, səhiyyənin, mədəniyyətin, idmanın inkişafına zəruri qayğısını əsirgəmir.

Bütün bu inkişafın, yüksəlişin, təqəqqinin gündən-günə vüsət olan miqyasında Qarabağın yenidən qurulmasına, müharibənin xarabalıqları üzərində yeni kəndlərin, şəhərlərin salınmasına, müasir infrastruktur yaradılmasına böyük önəm verilir.

22 ildir ki, Müzəffər Lider statusu qazanmış Prezident İlham Əliyevin açdığı yoldayıq. Bu, bizi Zəfərə qovuşduran, Qələbə sevincini yaşadan, zirvələrə aparan yoldur. Bu, tərəqqi, yüksəliş gerçək intibah yoludur. Bu yolun nə qədər müqəddəs və şərəfli olduğunu bir daha təsdiq etmək istəyirsənsə, Zəfər parkına qədəm qoy, şanlı ordumuzun qəhrəmanlıqlarını əks etdirən eksponatlara diqqətlə bax. Bu xoş ovqat yaradan ziyarətdən sonra doğma Bakımızın seyrinə çıx, dənizkənarı bulvarda, yaraşıqlı küçə və meydanlarda gəzib-dolaşan əcnəbi turistlərin paytaxtımız haqqında təəssüratlarını öyrən. Aldığın cavablar mütləq səni qürurlandıracaq. Bir az nəfəsini dərib yoluna davam et. Paytaxtdan bütün istiqamətlərə uzanan yeni çəkilmiş, müasir, rahat yollarla ölkəmizi gəz-dolan. Bar-bərəkət fəsli payızda ağ örpəkli tarlalar, bol məhsullu zəmilər, geniş meyvə bağları, yeni yaradılmış aqroparklar məmnunluğunu artıracaq. Möcüzə görmək, adrenalin yaşamaq istəyirsənsə, yolunu Qarabağa, Şərqi Zəngəzura sal. Burada gördüklərindən qətiyyən heyrətlənmə. 44 günlük savaşı Zəfərlə başa vuran Ali Baş Komandan İlham Əliyev indi Qarabağ və Şərqi Zəngəzurda müharibənin xarabalıqları üzərində yeni kəndlər, şəhərlər inşa edən, ana torpağın yaralarına məlhəm olan böyük inşaatçılar, qurucular ordusunun baş memarıdır.

Müharibədən sonrakı beş il ərzində işğaldan azad olunmuş ərazilərdə çox möhtəşəm tikinti, bərpa-quruculuq işləri görülüb. Çəkilən yollar, salınan körpülər Avropa standartlarından da üstündür. Kəlbəcərə gedən yolu yaxınlaşdıran məşhur Ömər aşırımının təhlükəsizliyini təmin edən tunelin tikintisi ən yaxın zamanda başa çatacaqdır. Dağların qoynunda, mürəkkəb relyefdə inşa edilmiş Füzuli və Laçın aeroportları qrafik üzrə uçuşlar həyata keçirir. Şuşada, Laçında, Ağdamda, Xankəndidə davamlı beynəlxalq tədbirlər keçirilir.

Hər kəsdə məmnunluq yaradan bir əsas məqam da var. Qalib ordunun Müzəffər Sərkərdəsi olaraq İlham Əliyev işğaldan azad edilən ərazilərdə üçrəngli bayrağımızı ucaltmaqdan necə qürurlanırdısa, bu gün Şuşada, Laçında, Ağdamda, Xankəndidə, Cəbrayılda, Xocalıda..... yeni yaşayış məntəqələrinin, məktəb və səhiyyə müəssisələrinin, fabrik və zavodların açılış mərasimlərində də haqlı eyni qürur hissini keçirir və sevimli xalqımıza da xoş ovqat bəxş edir.

Əsrin təxminən beşdəbiri olan zaman kəsimində uğurlarımız çox olsa da, çətinliklər də yaşadıq. Qarabağ savaşında qəhrəman oğullar itirdik, qurbanlar verdik. Amma sarsılmadıq, yenilmədik. İçimizdəki böyük inam sonda bizi Qələbəyə qovuşdurdu. Biz müdrik xalq olaraq 22 il əvvəl doğru seçim etdik, inandığımız, güvəndiyimiz gənc bir liderə arxalandıq. Ən böyük hakim olan zaman tarixin ən ağır sınaqlarında sübut etdi ki, biz yanılmamışıq. Seçdiyimiz yol ən doğru yoldur. Bu, İlham yoludur, Zəfər yoludur. Bu yolda atacağımız hər addımın bizi daha işıqlı sabahlara, yeni qələbələrə qovuşduracağına inamımız sonsuzdur!

***Lazım QULİYEV,***
***"Azərbaycan"***



# MÖHTƏŞƏM 22 İL 2003 2025



# Qürur günü

## 2 il öncə Ali Baş Komandan Xankəndi, Xocalı, Xocavənd və Ağdərədə dövlət bayrağımızı qaldırmışdır

**Yaşadığımız müasir tariximizin şərəfli səhifələrindən olan 44 günlük Vətən müharibəsi günümüzün, zamanımızın bir çox reallıqlarını kökündən dəyişdi. İkinci Qarabağ müharibəsində cəsur zabit və əsgərlərimizin qəhrəmanlığı sayəsində qazanılmış Zəfər, 2023-cü il sentyabrın 19-20-də keçirilən antiterror əməliyyatı Qarabağda və Şərqi Zəngəzurda kök salmış erməni terrorizminə, separatizminə və vandalizminə son qoydu.**

Ölkəmizə sülh gətirən, hamımıza böyük sevinc və qürur bəxş edən bu Zəfər bir daha dünyaya xalqımızın suverenlik arzusunun dönməzliyini, Silahlı Qüvvələrimizin düşmənin bütün təxribat əməllərinə qətiyyətlə cavab vermək əzmində olduğunu göstərdi.

Azərbaycanın əbədi-əzəli əraziləri olan Qarabağ erməni separatçılarından, erməni faşizmindən azad olunduqdan sonra Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 2023-cü il oktyabrın 15-də - ölkəmizə ilk dəfə prezident seçildiyi gündə təntənəli şəkildə Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərində Azərbaycanın dövlət bayrağını ucaltdı. Xüsusən bir zamanlar Qarabağ separatçılarının ölkəmizə qarşı məkrli planlar hazırladığı Xankəndi şəhərində dövlət bayrağımızın ucaldılması ölkəmiz, xalqımız üçün tarixi gün kimi yaddaşlara yazıldı. Ali Baş Komandan Xankəndidə bayrağımızı ucaldarkən çıxışı zamanı da 15 oktyabr 2023-cü ili tarixi bir gün kimi qiymətləndirmişdir. Dövlətimizin başçısı demişdir ki, bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağı qaldırıldı: "Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi. Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək. İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma birnömrəli vəzifə qoymuşdum ki, Azərbaycan bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır".

Amma bu Zəfər asanlıqla qazanılmamışdı. Bunun üçün zaman-zaman uğurlara hesablanmış zəruri addımlar atılmış, mühüm işlər görülmüşdür. Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən daxili və xarici siyasət nəticəsində dövlətimizin gücü, qüdrəti artmış, dünyadakı mövqeyi möhkəmlənmişdir. Dövlətimizin başçısı Xankəndidəki çıxışında bu mühüm məsələyə toxunaraq demişdir: "Bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır. Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik".

Uzun illərdən bəri torpaqlarımızda müxtəlif zamanlarda terror və soyqırımlar törətmiş erməni separatizminin kökünün kəsilməsindən sonra Prezident İlham Əliyev tərəfindən Qarabağın və Şərqi Zəngəzurun şəhərlərində Azərbaycan bayrağının qaldırılması parlaq qələbəmizin gözlənilən məntiqi sonluğu idi. Bayrağımızın işğal altında olan bütün ərazilərdə dalğalandırılmasını əsas vəzifəsi hesab edən dövlətimizin başçısı ədalətsiz, ikili siyasət yürüdən böyük gücləri diplomatik masada, Ermənistanı isə döyüş meydanında məğlubiyyətə uğratmışdı.

Prezident İlham Əliyev Xankəndidəki çıxışı zamanı Azərbaycan xalqının birliyini, məğlubedilməz gücünü, onun övladlarının qəhrəmanlığını da xüsusi vurğulamışdır. Dövlətimizin başçısı demişdir ki, bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır: "Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir".

Prezident İlham Əliyev çıxışında xalqımıza böyük Zəfər sevinci yaşatmış, ərazi bütövlüyümüzü və suverenliyimizi təmin etmiş antiterror əməliyyatlarından da bəhs etmişdir: "Keçən ay antiterror əməliyyatı qaçılmaz idi. Azərbaycan xalqı yaxşı bilir və əminəm dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. "Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın".

Arxada qalmış illər ərzində bir çox tarixi hadisələrə şahidlik etdik. Şərqi Zəngəzurda və Qarabağda üçrəngli bayrağımızı qaldırdıq. Qürur və iftixar dolu bu mənzərələri izləyən xalqımız bir daha əmin oldu ki, bizim qüdrətli liderimiz var. O lider ki, müdrik və qətiyyətli siyasəti ilə canlı əfsanəyə çevrilib.

Xalqımız həmişə Prezident İlham Əliyevə yüksək etimad göstərib. Dövlətimzin başçısı Xankəndidəki çıxışında bu məsələyə də toxunmuşdur: "Azərbaycan xalqı mənə 20 il bundan əvvəl böyük etimad göstərmişdir və bu illər ərzində mən bunu hər zaman hiss etmişəm, bu inam daha da artmışdır. Bu gün vaxtilə - hələ işğal dövründə dediyim sözlər və xalq tərəfindən təkrarlanan sözlər mənim üçün ən böyük mükafatdır. Mən o vaxt demişdim ki, nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm. İkinci Qarabağ müharibəsi dayananda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm. O gündən üç il keçməmiş biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan bayrağı altında. "Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər".

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2023-cü il oktyabr ayının 15-də qədim şəhərlərimiz olan Xankəndi, Xocalı, Xocavənddə, Ağdərədə Zəfər bayrağını qaldırması yaddaşlarda əbədi yaşayacaq böyük tarixi əhəmiyyətli hadisədir. Artıq qəhrəmanlıq dastanına çevrilmiş həmin günü qürur və fəxrlə qeyd edirik.

Prezident İlham Əliyevin 2024-cü il sentyabrın 18-də imzaladığı sərəncama əsasən, hər il sentyabrın 20-də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə günü təntənəli şəkildə qeyd edilir. Həmin gün işğaldan azad olunmuş Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərində indi quruculuq, abadlıq və yenidənqurma işləri aparılır. Dövlətimizin başçısı mütəmadi olaraq bu şəhərləri ziyarət edir, aparılan quruculuq işləri ilə tanış olur, zəruri tapşırıq və tövsiyələr verir, qərarlar qəbul edir.

Tarix heç nəyi unutmur, heç nəyi yaddan çıxarmır. Hadisələri səhifələrində olduğu kimi qoruyub saxlayır. Saxlayır ki, müxtəlif zamanlarda baş vermiş həmin hadisələri gələcək nəsillər öyrənsinlər, xatırlasınlar və onunla qürur duysunlar. Prezident İlham Əliyevin 15 oktyabr 2023-cü ildə Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərində dövlət bayrağımızı ucaltması da xalqımızın və tariximizin yaddaşından heç vaxt silinməyəcək hadisədir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## "Xankəndi, Ağdərə, Xocavənd və Xocalı şəhərlərinin Baş planları yekunlaşmaq üzrədir"

**Azad olunmuş ərazilərin öyrənilməsi, dəyərləndirilməsi və məskunlaşma ərazilərinin müəyyənləşdirilməsi istiqamətində effektiv və ədalətli işlər həyata keçirilib. Bu prosesdə bütün müvafiq dövlət qurumları ilə sıx əməkdaşlıq edilib.**

AZƏRTAC xəbər verir ki, bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini İlqar İsbatov 30-cu Yubiley Xəzər İnşaat Həftəsi çərçivəsində keçirilən "Qarabağın dirçəlişi və Azərbaycanın yeni inkişaf modeli" mövzusuna həsr edilən panel görüşündə çıxışı zamanı söyləyib.

O bildirib ki, müvafiq qurumlarla aparılan müzakirələrdə məşğulluq, iqtisadi inkişaf və gələcək layihələrin icrası məsələləri də diqqət mərkəzində olub. Nəticədə ilkin planlama məhsulu hazırlanaraq təqdim edilib.

"Planlama sənədləri Azərbaycan qanunvericiliyinə uyğun olaraq üç mərhələdə həyata keçirilir: ümumi planlar, Baş planlar və müfəssəl planlar. Bütün işğaldan azad edilmiş ərazilərdə bu üçmərhələli planlaşdırma aparılıb. Hazırda bütün işğaldan azad olunmuş ərazilərin ümumi planı tamamlanıb. Digər dörd şəhər Xankəndi, Ağdərə, Xocavənd və Xocalı üzrə Baş planlar yekunlaşmaq üzrədir və razılaşdırma prosedurlarından sonra təsdiq olunacaq. Bu planlar əsasında növbəti dövrlərdə tikinti-quruculuq işləri düşünülmüş və məqsədyönlü şəkildə aparılacaq", - deyə İlqar İsbatov vurğulayıb.

## Xocalının Şuşakənd və Təzəbinə kəndlərinə çatan ailələrə evlərinin açarları təqdim olunub







**İşğaldan azad edilmiş ərazilərə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Böyük qayıdış davam etdirilir.**

Oktyabrın 14-də respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdamdan Xocalının Şuşakənd və Təzəbinə kəndlərinə yola salınıb.

Dünən köç karvanı ilə Xocalı rayonunun Şuşakənd və Təzəbinə kəndinə çatan ailələrə yeni evlərinin açarları təqdim olunub.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Şuşakənd kəndinə 27 ailə - 116 nəfər, Təzəbinə kəndinə isə 27 ailə - 117 nəfər köçürülüb. Doğma yurda köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Açarların təqdimat mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov sakinləri doğma yurda qayıdış münasibətilə təbrik edib və onların rahat yaşamaları üçün bütün zəruri sosial infrastrukturun yenidən qurulduğunu, kommunal xidmətlərin tam təmin olunduğunu deyib.

Kənd sakinləri açarları alaraq yeni evlərində məskunlaşıblar.

Onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.



# MÖHTƏŞƏM 22 İL 2003 2025



# 20 gündə 5 konfrans

## İlham Əliyevin mühüm tədbirlərə dəvət edilməsi onun dünya siyasətindəki rolunun daha da güclənməsinin göstəricisidir

**Son 22 ildə uğurlu inkişaf yolu keçən Azərbaycan bu gün tarixinin ən qüdrətli dövlətinə çevrilib. Dünya təcrübəsində çox az ölkəni nümunə göstərmək olar ki, cəmi 22 illik zaman ərzində belə möhtəşəm uğurlara imza atsın. Cənubi Qafqazın lider ölkəsinin belə qısa zamanda əldə etdiyi uğurları şərtləndirən ən mühüm amil, əlbəttə ki, siyasi və iqtisadi müstəqillikdir.**

Son illərdə Prezident İlham Əliyevin tam müstəqil siyasət yürütməsi ölkəmizi dünyada etibarlı tərəfdaşa, söz və güc sahibnə çevirib. Bunun nəticəsidir ki, hazırda Azərbaycan dünyada sosial-iqtisadi cəhətdən inkişaf etmiş, sabit, təhlükəsiz və müasir həyat səviyyəsinin təmin olunduğu ölkə kimi tanınır, beynəlxalq aləmdə nüfuzu əhəmiyyətli dərəcədə artıb.

Əgər belə olmasaydı, Azərbaycan beynəlxalq təşkilatların forumlarında, konfranslarında təmsil olunmaz, İlham Əliyev isə ən mötəbər təşkilatların dünyanı narahat edən problemlərin müzakirəsinə həsr olunmuş konfranslarına dəvət edilməzdi. Ümumiyyətlə, İlham Əliyevin fəaliyyəti o qədər şaxəli, o qədər çoxvektorludur ki, onu tam şəkildə araşdırıb izah etmək üçün xeyli zaman lazımdır.

Bu gün İlham Əliyev şəxsiyyətinə, liderliyinə, geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, o, təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, o, ümumiyyətlə, dünya miqyasında tanınan, qlobal liderliyi etiraf olunan nüfuzlu siyasətçidir.

Məhz İlham Əliyev yürütdüyü diplomatiya ilə iki əsrlik münaqişəni, otuz illik müharibəni sonlandıraraq Cənubi Qafqaza sülh gətirib. Bu gün dünyanın müxtəlif bölgələrində davam edən münasiqişələrin, müharibələrin dayandırılması üçün İlham Əliyev kimi liderlərin məsləhətinə, diplomatik gedişlərinə ehtiyac duyulur. Məhz buna görə də istənilən münaqişənin dayandırılması, sülhün əldə olunması üçün keçirilən forum və konfranslara İlham Əliyev xüsusi qonaq kimi dəvət edilir.

Ümumiyyətlə, bu gün elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud problemlərin həlli yolları barədə fikirlər səsləndirməsin. Yəni İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən bütün qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Buna misal olaraq İlham Əliyevin Qoşulma Hərəkatının sədri kimi irəli sürdüyü qlobal təşəbbüsləri, mühüm təklifləri göstərmək olar.

Gəlin, son 3 həftə ərzində Azərbaycan Prezidentinin iştirak etdiyi qlobalmiqyaslı toplantılara nəzər yetirək.

Sentyabrın 25-də Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası;

Oktyabrın 2-də Danimarkada "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısı;

Oktyabrın 7-də Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşü;

Oktyabrın 10-da Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclası;

Oktyabrın 13-də ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammiti.

Göründüyü kimi, Azərbaycan Prezidenti son 20 gün müddətində 5 mötəbər toplantıda iştirak edib.

Bu, ilk növbədə Prezidentin gərgin, eyni zamanda nəhəng, müxtəlif coğrafiyaları əhatə edən zəngin iş qrafikinin əyani təzahürüdür.

Bu, İlham Əliyevin praqmatik siyasəti, hadisələrə baxışı, diplomatik gedişləri, tövsiyələri fonunda onun dünya liderləri sırasında birgə addımladığının təsdiqidir.

2003-cü il oktyabrın 15-də Azərbaycan xalqının böyük etimadını qazanaraq Prezident seçilən İham Əliyev həmin gündən etibarən 2020-ci ilin sentyabr ayına qədər bütün beynəlxalq təşkilatların tribunasından Azərbaycan həqiqətlərini dünyaya car çəkdi.

Bu ilin sentyabrın 25-də dünyanın ən böyük siyasi təşkilatı olan BMT-nin ali kürsüsünə çıxan dövlətimizin başçısı çıxışına məhz bu məqamla başladı və bildirdi ki, uzun illər ərzində bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışıb. İndi isə qələbəyə və sülhə aparan uzun yoldan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyindən danışır.

Prezident ABŞ-yə səfəri çərçivəsində çox mühüm görüşlər keçirdi. Qarşı tərəfin xahişi ilə İlham Əliyevlə keçirilən müxtəlif formatlı görüşlərdə Prezident beynəlxalq şirkətləri, təşkilatları işbirliyinə dəvət etmişdi.

Oktyabrın 2-də İlham Əliyev Danimarkanın paytaxtı Kopenhagen şəhərində keçirilən "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısına dəvət edilmişdi.

Bu səfər çərçivəsində İlham Əliyev qarşı tərəfin xahişi ilə Kopenhagendə Fransa Respublikasının Prezidenti Emmanuel Makron, Niderland Krallığının Baş naziri Dik Sxof, Ukrayna Prezidenti Volodimir Zelenski, İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni və Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşlər keçirib.

"Avropa Siyasi Birliyi"nin plenar iclaslarında və ondan sonra keçirilən "dəyirmi masa"larda isə Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya-Ukrayna müharibəsi, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və hibrid təhlükələr kimi mövzular müzakirə olundu.

Oktyabrın 7-də Qəbələ şəhəri Türk Dövlətləri Təşkilatının liderlərinin toplantısına evsahibliyi etdi. Bu, ilk növbədə Azərbaycan regionlarının yüksəlişinin əyani təzahürü idi. Vaxt var idi, beynəlxalq tədbirlərə paytaxtımız Bakı şəhəri evsahibliyi edirdi. İndi isə yüksəliş mərhələsi paytaxtdan rayonlarımıza, bölgələrimizə keçib. Bu gün Şuşa, Xankəndi, Qəbələ, Gəncə şəhərləri də beynəlxalq konfranslara, idman yarışlarına yüksəksəviyyəli evsahibliyi edirlər.

TDT-nın Zirvə görüşündəki çıxışında da dövlət başçısı bir daha vurğuladı ki, bu gün Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz bizi bir ailə kimi birləşdirir.

MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün oktyabrın 9-da Düşənbəyə səfər edən İlham Əliyevin burada Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə təkbətək görüşü olub. Prezidentlərin görüşündə iki ölkə arasında gərginlik yaratmış səbəblərə aydınlıq gətirilib. Buna əsaslanaraq deyə bilərik ki, Azərbaycanla Rusiya arasında münasibətlər normal məcraya dönür.

Oktyabrın 10-da Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi. İclasda çıxış edən Prezident İlham Əliyev bildirdi ki, bu gün Tacikistan ilə Azərbaycan arasında ikitərəfli münasibətlər ardıcıl inkişaf edir. Münasibətlər qardaşlıq, dostluq, qarşılıqlı dəstəyə əsaslanır və böyük inkişaf potensialına malikdir.

Dövlət başçısı çıxış edərək humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə toxunub. Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhərinin bu il MDB-nin mədəniyyət paytaxtı kimi namizədliyini dəstəklədiklərinə görə MDB dövlət başçılarına təşəkkürünü bildirib.

Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün oktyabrın 12-də Misirdə işgüzar səfərdə olub.

Oktyabrın 13-də Beynəlxalq Konqres Mərkəzində sammit keçirilib.

Sammitdə Prezident Donald Tramp Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton görüşünə toxunaraq deyib: "Budur, mən bu yaxınlarda bu şəxs üçün müharibəni bitirdim. Azərbaycan, işimi bəyəndinizmi? Bəs, Sizin həmkarınız haradadır? Budur, buradadır. Siz ikiniz artıq yola gedirsiniz, elə deyilmi? Onlar 32 il müharibə etdilər, biz isə bir saata bu məsələni həll etdik, elədirmi? İndi onlar yola gedirlər, bu yaxşıdır, düşünürəm ki, bu əladır".

Son 20 gündə İlham Əliyevin fərqli coğrafiyalarda, fərqli formatda keçirilən sammit və konfranslarda iştirakı bir daha onu deməyə əsas verir ki, Azərbaycan Prezidenti müstəqil siyasəti ilə qlobal lider statusuna sahiblənib. İlham Əliyevin adı dünyada təşəbbüskar, sülh və yardımsevər diplomat, ölkəsini cəmi 22 ildə tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident kimi çəkilir.

Prezidentin beynəlxalq tədbirlərdə iştirakı və Azərbaycanı dünyada yüksək səviyyədə təmsil etməsi ölkəmizin mövqeyinin yalnız bölgə deyil, həm də dünya miqyasında gücləndiyini təsdiqləyir. Əminliklə deyə bilərik ki, Azərbaycanın müstəqil xarici siyasətinin əsas prinsiplərinə sadiq qalaraq, dünya siyasətindəki müsbət təsirini artırmaq məqsədilə İlham Əliyev beynəlxalq aləmdə daha da yüksək mövqelərə çatacaq və bu yol Azərbaycanın strateji maraqlarının daha da irəliləməsinə xidmət edəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Qlobal diplomatiyada söz sahibi

**Oktyabrın 13-ü tarixində beynəlxalq ictimaiyyətin gözü Misirdə keçirilən və yalnız Yaxın Şərqin deyil, dünyanın gələcək taleyinin necə olacağı ilə bağlı əksər suallara cavab tapıla biləcəyi Sülh Sammitinə yönəlmişdi. Qəzza bölgəsinin gələcəyi ilə bağlı təşkil olunan və dünya siyasətində aparıcı rola malik dövlətlərin rəhbərlərinin iştirak etdiyi Şarm-əl-Şeyxdəki zirvə görüşündə ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Azərbaycan Prezidenti İlham Əliyev də iştirak etdi.**

BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirərək Cənubi Qafqazda davamlı sülhə yol açan dövlətin rəhbəri olaraq Prezident İlham Əliyevin Yaxın Şərq Sülh Sammitində iştirak etməsi heç də təsadüfi xarakter daşımırdı.

Bu, daim ədalətə söykənən, sülhü təşviq edən müdrik və humanist siyasət yürüdən Azərbaycan Prezidentinə qlobal ehtiramın göstəricisi idi. Gerçəklikdir ki, məhz dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət sayəsində bu gün dünya Cənubi Qafqazda de-fakto əldə olunan və örnək götürüləcək sülhdən danışır, ondan misallar çəkir.

Şarm-əl-Şeyxdə keçirilən Sülh Sammitində Azərbaycan liderinə olan rəğbət, dünyanın super gücə malik ölkəsi ABŞ-nin rəhbəri Donald Trampın cənab İlham Əliyevə şəxsi diqqət və səmimi dostluq münasibəti göstərməsi də buna bariz nümunələrdəndir.

## Azərbaycan nümunəsi

Ötən iki onillik ərzində sürətli inkişaf yolu qət edərək milli maraqlarını qətiyyətlə təmin edən ölkəmizin rəhbəri İlham Əliyevin gerçəkləşdirdiyi müstəqil və zərgər dəqiqliyi ilə ölçülüb-biçilmiş siyasət nəticəsində Azərbaycan dünyanın hər addımını böyük maraq və diqqətlə izlədiyi nüfuzlu və sayılıb-seçilən dövlətə çevrilib. Hazırda istər qonşu, istərsə də dünyanın digər ucunda yerləşən əksər ölkələrin ikitərəfli münasibətlər qurmaqda maraqlı olduğu və regionun aparıcı dövləti olan Azərbaycanın beynəlxalq miqyaslı məsələlərin həllində oynadığı aktiv rol da ön plana çıxır. Yeni və ədalətli dünya nizamının qurulması naminə atdığı addımlarla, eyni zamanda bəşəri sülhün bərqərar olması üçün əməli işlər görməsi ilə tanınan Azərbaycanın vasitəçiliyi sayəsində aralarında ciddi ziddiyyətlər olan, hətta müharibə ərəfəsində olan bəzi ölkələr münasibətlərini normallaşdırıb. Ən ümdəsi Azərbaycan 30 ildən çox qan-qada yuvası olan Cənubi Qafqaza sülh gətirib, əməkdaşlıq mühitinin formalaşdırılması üçün yollar açıb.

Regionda uzunmüddətli barışın ilk həlledici addımı 8 avqustda - tarixi Vaşinqton sülh sammitində atıldı. Ağ Evdə Ermənistan-Azərbaycan arasında Birgə Bəyannamənin imzalanması, sülh sazişinin mətninin paraflanması məhz Prezident İlham Əliyevin Cənubi Qafqazda davamlı sülh üçün göstərdiyi şəxsi səylərin nəticələridir. O da mümkün idi ki, avqustun 8-də iki ölkə arasında sülh müqaviləsi imzalansın. Ancaq Ermənistan konstitusiyasının preambula hissəsində müstəqillik bəyannaməsinə istinadən ölkəmizə qarşı ərazi iddialarının olması buna imkan yaratmadı.

Azərbaycan liderinin sülh missiyasını, bu istiqamətdə həyata keçirdiyi qətiyyətli siyasəti təqdir edən Donald Tramp Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişinin mətni paraflananda Prezident İlham Əliyevin şəxsi məziyyətlərinə belə vurğu etmişdi: "Siz güclü və ağıllı insansınız".

Eləcə də sentyabrın 23-də Nyu Yorkda Prezident Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbulda Ağ Ev rəhbəri bir daha ölkəmizin lideri barədə yüksək fikirlərini, İlham Əliyevlə fəxr etdiyini söyləmişdi: "Mən Sizinlə, həqiqətən, fəxr edirəm. Siz çox gözəl insansınız".

Təbii ki, dünyanın siyasət və iqtisadiyyat nəhəngi olan ölkəyə rəhbərlik edən bir şəxsin Azərbaycan Prezidenti haqqında dediyi bu səmimi və yüksək fikirlər Donald Trampın İlham Əliyevin şəxsiyyətinə olan ehtiramının təzahürü və Onun bəşəri sülhün bərqərar olması üçün həyata keçirdiyi işlərə verilən əlahiddə dəyər kimi qiymətləndirilməlidir.

## Amerika-Azərbaycan münasibətlərində yeni səhifə

"Deyə bilərəm ki, bu gün Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi. Əlbəttə ki, Azərbaycanın milli maraqlarının qorunması üçün Amerika Birləşmiş Ştatları ilə bu səviyyədə münasibətlərin qurulması çox önəmli məsələdir".

Bu il avqustun 8-də Ağ Evdə əldə edilən tarixi nailiyyətlərlə əlaqədar Azərbaycan media nümayəndələrinə müsahibə verən Prezident İlham Əliyev səfərin yüksək nəticələri barədə məlumat verdi.

Həmin tarixdə dövlətimizin başçısının ABŞ liderinin dəvəti ilə Vaşinqtona işgüzar səfəri ölkələrimiz arasında əlaqələrin keyfiyyətcə yeni mərhələyə yüksəldilməsi ilə əlamətdar oldu. Sözügedən səfərdə ABŞ və Azərbaycan arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsində mühüm addım atıldı.

Ölkələrimiz arasındakı ikitərəfli əlaqələr Prezident Donald Trampın ABŞ-yə hər iki rəhbərliyi dönəmində müsbət dinamika qazanıb. Həmçinin ölkə liderləri İlham Əliyev və Donald Tramp arasındakı səmimi münasibətlərə dayanaraq inkişaf edən bu əlaqələr gündən-günə daha da möhkəmlənir.

Vaşinqton səfəri zamanı Tramp Ağ Evin rəmzi açarını dövlətimizin başçısına təqdim etməsi ilə ölkələrimiz arasındakı əlaqələrin yüksək etimaddan doğduğuna rəmzi işarə vurdu. Dövlətimizin başçısının Vaşinqtona işgüzar səfəri zamanı ABŞ Prezidentinin "Azadlığa Dəstək Aktı"na 907 saylı düzəlişin icrasının dayandırılması haqqında sənəd imzalaması iki ölkə arasında münasibətlərin dostluğa əsaslanmasını bir daha göstərdi.

Səfər çərçivəsində "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalandı.

Bütün bunlar Amerika-Azərbaycan əlaqələrinin yüksələn xətlə inkişafının göstəricisidir.

## Yaxın Şərqdə Azərbaycandan ilhamlanan sülh

Bütün bunlara nəzərən demək olar ki, Misirdə keçirilən Yaxın Şərq Sülh Sammitində Prezident Donald Trampın Azərbaycan lideri İlham Əliyevə xüsusi rəğbət və diqqət göstərməsi təbii idi.

Göründüyü kimi, Yaxın Şərqdə sülh prosesinə töhfə verən ölkələr arasında Azərbaycanın olması vacib əhəmiyyət daşıdı. Yürütdüyü çoxvektorlu və balanslaşdırılmış siyasəti Azərbaycanı həm Qərb, həm də Şərq ölkələri üçün etibarlı və güvənilir tərəfdaşa çevirir. Digər tərəfdən də ədalətli sülhü özü bərqərar edən və dünyada multikulturalizmin, tolerantlığın unikal ünvanı kimi tanınan ölkəmizin Qəzza bölgəsinin gələcəyi ilə bağlı təşkil olunan və dünya siyasətində aparıcı rola malik dövlətlərin iştirak etdiyi Şarm-əl-Şeyxdəki taleyüklü zirvədə olması xüsusi məna kəsb etdi. Bu, həm də Prezident İlham Əliyevin qlobal liderlik qabiliyyətinin, dünyada söz sahibi olmasının növbəti təsdiqi idi.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Bakıda "Məhkəmə hakimiyyəti və dövlətin digər iki qolu arasında münasibətlər" mövzusunda beynəlxalq konfrans keçirilib






**Oktyabrın 14-də Bakı Konqres Mərkəzində Beynəlxalq Hakimlər Assosiasiyasının (IAJ - International Association of Judges) 67-ci Baş Assambleyası çərçivəsində "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş "Məhkəmə hakimiyyəti və dövlətin digər iki qolu arasında münasibətlər" mövzusunda beynəlxalq konfrans təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə dünyanın 71 ölkəsindən 300-ə yaxın nümayəndə - hakimlər, vəkillər, hökumət rəsmiləri və beynəlxalq təşkilatların təmsilçiləri, eləcə də tanınmış hüquqşünas-ekspertlər iştirak ediblər.

Konfransda əvvəlcə "Azərbaycanda məhkəmə hakimiyyəti və dövlətin digər iki qolu arasında münasibətlər"ə dair videoçarx nümayiş olunub.

Tədbirdə Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev çıxış edərək bildirib ki, demokratik cəmiyyətin əsas təməllərindən biri hüquqi dövlətdir: "Hüquqi dövlət quruculuğunda isə hakimiyyətlərin bölgüsü prinsipinin həyata keçirilməsi əsas şərtdir. Şarl Monteskyenin məşhur "Qanunların ruhu" əsərində qeyd etdiyi kimi, məhkəmə hakimiyyəti qanunvericilik və icra hakimiyyətlərindən ayrılmadığı təqdirdə, heç bir azadlıqdan söz gedə bilməz. Müasir konstitusion quruluşun fundamental əsaslarından birini dövlət hakimiyyətinin qanunvericilik, icra və məhkəmə qollarına ayrılması təşkil edir. Bu amil təmərküzləşmənin və hakimiyyətdən sui-istifadənin qarşısını alan, insan və vətəndaş hüquq və azadlıqlarının, qanunun aliliyinin və demokratiyanın təminatına xidmət edən zəruri şərtdir. Hakimiyyət bölgüsünü təmin edən əsas element isə hər bir hakimiyyət qolunun malik olduğu səlahiyyətlərdir. Məhz müxtəlif hakimiyyət orqanlarına məxsus səlahiyyətlərin bir-birinə münasibətindən asılı olaraq hakimiyyət bölgüsünün nə dərəcədə düzgün və möhkəm olduğunu müəyyən etmək mümkündür. Hakimiyyətlərin bölgüsü prinsipinə uyğun olaraq, məhkəmə hakimiyyəti müstəqil hakimiyyət qoludur. Məhkəmələr demokratik və hüquqi dövlətlərdə hüquq və azadlıqlarının, cəmiyyətin təməl dəyərlərinin qoruyucusudur. Əlbəttə ki, hakimiyyətin heç bir qolu təkbaşına mövcud ola bilməz, onlar digər qollarla vəhdətdə mövcud olur. Bu vəhdət onların səlahiyyətlərinin bölgüsünü təmin etməklə yanaşı, hakimiyyətin balanslı idarəçiliyinin həyata keçirilməsinə şərait yaradır. Eyni zamanda çəkindirmə və tarazlaşdırma mexanizmi istənilən dövlət hakimiyyəti orqanları tərəfindən sui-istifadəni istisna edir".

Ramiz Rzayev vurğulayıb ki, məhkəmə hakimiyyəti əsas tarazlaşdırıcı mexanizm kimi dövlət hakimiyyəti sistemində qanunvericilik və icra hakimiyyətlərinin hüquq çərçivəsində fəaliyyət göstərmələri üçün onların işini istiqamətləndirir, dövlət hakimiyyəti orqanları arasındakı səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələri həll edir: "Maraqlı faktdır ki, konstitusiya mətnlərində və doktrinalarda hakimiyyət bölgüsünü təşkil edən qolları sadalayarkən, məhkəmə hakimiyyəti qanunvericilik və icraedici hakimiyyətdən sonra sadalandığı üçün onu çox vaxt "üçüncü qol" adlandırırlar. Lakin bu, heç bir halda onun əhəmiyyətini və ya hakimiyyətin digər qollarına münasibətdə müstəqilliyini azaltmır. Üstəlik, qanunvericilik və icra hakimiyyətlərinin qarşılıqlı asılılığı parlament və ya prezident respublikası idarəetmə formasından asılı olaraq daha çox, ya da daha az ola bilər. Amma istənilən idarəetmə formasında məhkəmə hakimiyyəti digər qollardan eyni dərəcədə ayrı olur".

Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov çıxışında demokratik dövlətdə hakimiyyətlərin bölgüsünü, sadəcə, bir nəzəriyyə deyil, demokratiyanı canlı saxlayan, təmin edən və vətəndaşları hakimiyyətin bir mərkəzdə təmərküzləşməsindən qoruyan tarazlıq mexanizmi olduğunu deyib: "Hakimiyyət bölgüsü hər şeydən əvvəl təsisatlar haqqında anlayışdır, səlahiyyətlərin bölündüyü, tarazlandığı və məsuliyyət daşıdığı konstitusion qaydanın yaradılması deməkdir. Həmin strukturun sütunlarından biri kimi məhkəmə hakimiyyəti olduqca mühüm rol oynayır. Onun məqsədi qanunu ədalətlə, qorxu və ya üstünlük olmadan tətbiq etmək, eyni zamanda icraedici və qanunverici hakimiyyət qolları ilə qarşılıqlı hörmətə əsaslanan konstruktiv dialoqu qorumaqdır. Əsl demokratiyada bu qollar rəqib deyil, onlar xidmətdə tərəfdaşdır, hər birinin fərqli vəzifələri var, lakin hamısı eyni məqsədi rəhbər tutur: ədalətin və qanunun aliliyinin qorunması yolu ilə xalqa xidmət etmək. Lakin hakimiyyət bölgüsü təkcə təsisatlarla bağlı deyil. O, həm də fərdlərlə bağlıdır. Hər bir təsisatın arxasında onu idarə edən insanlar dayanır. Həmin təsisatların dürüstlüyü, onları idarə edən və orada xidmət edən şəxslərin dürüstlüyündən doğur. Heç bir qanun, onu tətbiq edənlərin mənəvi gücü və vicdanı ilə idarə olunmasa, həqiqətən ədalətli ola bilməz və heç bir sistem dözə bilməz. Məhkəmə hakimiyyətinin müstəqilliyi bir imtiyaz deyil, bu, şəxsi məsuliyyətdir. Həmin mexanizm vətəndaşları lazımsız mühakimədən qoruyur, hakimiyyətin qanun qarşısında məsuliyyət daşımasını təmin edir və qanunun ədalətə sadiq qalmasına zəmanət verir. Eyni zamanda həmin məsuliyyət məhkəmə hakimini borcuna, vicdanına və peşə etikasına bağlayır. Bundan əlavə, bu, qərəzsizliyi, yəni ağıl və məntiqi kölgələyən emosiyalardan, simpatiya və antipatiyadan uzaq qərar vermək qabiliyyətini tələb edir. Məhz buna görə də məhkəmə hakimiyyətinin gücü təkcə qanunlarla və təsisatlarla deyil, həm də bu sistemdə xidmət edənlərin xarakteri və iradəsi ilə ölçülür. Çünki məhkəmənin müstəqilliyi məhkəmə zalında deyil, hakimin daxili dürüstlüyündən və mənəvi inamından başlayır. Bugünkü konfrans bizə bu əbədi prinsiplər üzərində düşünmək üçün dəyərli bir fürsət təqdim edir. Bu gün burada toplaşdığımız üçün söhbət təkcə institutlardan deyil, həm də bizdən - hakimlərdən getməlidir. Hakimiyyət bölgüsünün qorunmasında bizim şəxsi rolumuz nədir? Bizim borclarımız nələrdir? Cəmiyyət bizdən nə gözləyir? Bu baxımdan Azərbaycan bu yolda xeyli irəliləyiş əldə edib. Məhkəmə hakimiyyətinin müstəqilliyinin konstitusion qarantı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemində dərin və davamlı islahatlar aparılıb. Bu islahatlar məhkəmələri qanunçuluğun keşikçiləri və ədalət mühakiməsinin yekun hakimi kimi gücləndirib. Məhkəmələr, sadəcə, hökm çıxaran qurumlara deyil, etimad yaradan təsisatlara çevrilib".

İnam Kərimov vurğulayıb ki, ədalətə gedən yol heç vaxt tamamlanmır: "Qlobal məhkəmə icmasının üzvləri kimi hamımız ciddi çağırışlarla üzüzəyik. Onların arasında populizm və dezinformasiyanın artması, məhkəmə qərarlarına təsir göstərmək cəhdləri, eləcə də ictimai etimadın möhkəmləndirilməsi zərurəti var. Texnologiyanın, süni intellektin və sosial medianın sürətli inkişafı həm yeni imkanlar, həm də risklər yaradır. İqlim dəyişikliyi isə məhkəmə hakimiyyətinin üzərinə yeni və mürəkkəb öhdəliklər qoyur".

Avropa İnsan Haqları Məhkəməsinin hakimi Lətif Hüseynov qeyd edib ki, məhkəmə hakimiyyəti və dövlətin digər iki qolu arasında münasibətlər çox aktual, eyni zamanda mürəkkəb bir mövzudur: "Hakimiyyət bölgüsü bir konsepsiya kimi sadəcə funksiyaların bölgüsü demək deyil, bu, əslində, cəmiyyətin maraqları əsasında məsuliyyətli yanaşmadır. Bu gün artıq bir hakimiyyət qolu digər hakimiyyət qolu arasında heç bir dominant mövqedə ola bilməz. Tarazlıq pozularsa, bu, xüsusilə məhkəmə hakimiyyətinin müstəqilliyinə zərbə vura bilər. Məhkəmə hakimiyyəti digər qollar arasında münasibətləri, dialoq və əməkdaşlığı ehtiva edir. Həmçinin məhkəmə hakimiyyəti hər hansı lazımsız təmaslardan və dövlət təsirindən azad olmalıdır. Hakimiyyətin üç qolu arasında dialoq qaçılmaz və zəruridir. Bu gün məhkəmə hakimiyyəti bəzən Monteskye qanunlarının ruhunda qeyd olunan formadan da artıq şəkildə fəaliyyət göstərir. Bu gün insan hüquqları ilə bağlı məhkəmələrdə xeyli işlər ortaya çıxır. Hakimlərin masasında belə işlərin sayı çoxdur. Hakimiyyət qolları arasında münasibətlərdən danışırıqsa, bu müasir dövlətin sütunları kimi deyil, bu günün reallığı kimi qəbul edilməlidir. Avropa İnsan Haqları Məhkəməsi hakimiyyət bölgüsünü şübhə altına almayıb. Ancaq hər zaman qarşılıqlı tənzimləmənin əsas olduğu vurğulanıb".

Beynəlxalq Hakimlər Assosiasiyasının Prezidenti Duro Sessa bildirib ki, məhkəmə hakimiyyətinin Avropa üzrə Şurası 2025-ci ildə Riqa Bəyanatı qəbul edib: "Bu, çox mühüm və narahatlıq doğuran bir bəyanat idi. Bəyanata əsasən demək olar ki, Avropada qanunun aliliyi prinsiplərinin ciddi şəkildə pozulması ilə bağlı nümunələr var. Bu, çox geniş vüsət alan faktdır. Avropanın bəzi dövlətlərində məhkəmə hakimiyyəti ilə əməkdaşlıq həyata keçirilmir, məsləhətləşmələr aparılmır. Bu da onları zəruri islahatlardan kənarda qoyur. Bir sözlə, Avropada vəziyyət kifayət qədər ciddidir. Biz bunu etiraf etməli və buna qarşı mübarizə aparmalıyıq. Avropa Şurasında məhkəmə hakimiyyəti ilə bağlı ən birinci sənədlər hakimlərin fəaliyyəti ilə bağlı xartiyadır. Xartiyada qeyd olunur ki, hakimlərin müstəqilliyinin səviyyəsi heç zaman öz hüdudlarından kənara çıxmalı deyil. Yəni biz məhkəmə hakimiyyətinin müstəqilliyini yüksək səviyyədə təmin etməliyik, lakin o, məlum olan səviyyəni keçməli deyil. Ümumiyyətlə, ədalətli məhkəmə araşdırması hüququ İnsan hüquqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsi ilə təmin olunur. Hakimlərin müstəqilliyi azadlığın, insan hüquqlarına hörmətin və qanunun qərəzsiz tətbiqinin təminatı kimi qiymətləndirilməlidir. Hakimin qərarı heç cür bu və ya digər təsirə məruz qala bilməz. Bu, qanuna əsaslanan bir qərardır. Əfv məsələlərinə hətta qanunvericilik və icra hakimiyyəti heç bir müdaxilə edə bilməz. Hakimlərin qərarlarının təfsilatı müstəqil şəkildə həyata keçirilməli hər hansı bir stereotipdən uzaq olmalıdır".

Beynəlxalq Hakimlər Assosiasiyasının Birinci vitse-prezidenti və İbero - Amerika Qrupunun Prezidenti Volter Barone deyib ki, hazırda ispandilli Amerika Qrupunda məhkəmə hakimiyyəti ilə bağlı müstəqillik və əməkdaşlıq həssas balansın saxlanılmasında çətinliklərlə üzləşir: "İspandilli ölkələrdə məhkəmə hakimiyyəti ilə bağlı müşahidə edilən gərginliklər var. Bu dövlətlərin Konstitusiyasında məhkəmə hakimiyyətinin müstəqil qol olduğu qeyd edilir. Nəzəriyyədə üç hakimiyyət qolu ahəngdarlıq əsasında fəaliyyət göstərməlidir. Hər birinin limiti var və buna hörmətlə yanaşılmalıdır. Praktikada ispandilli ölkələrdə məhkəmə hakimiyyəti ən zəif hakimiyyət qoluna çevrilib. Latın Amerikasında məhkəmə hakimiyyəti icra və qanunverici orqanların təzyiqinə məruz qalır. Hakimlər, sadəcə, qanunu tətbiq etdiyinə görə hücuma məruz qalırlar. Hakimlər illik danışıqlar aparırlar ki, öz vəsaitlərini əldə edib fəaliyyətlərini icra edə bilsinlər. Hakimlərin təyinatına siyasi təzyiqlərin olması da məhkəmə qərarlarına təsir edir".

Beynəlxalq Hakimlər Assosiasiyasının vitse-prezidenti və Afrika Qrupunun Prezidenti Marsel Koassi çıxışında Afrika təcrübəsindən danışıb. Bildirib ki, Afrika ölkələrində ədliyyə hakimiyyətinin hesabatı büdcə avtonomluğunu təmin etmiş şəffaf yanaşmanın bariz nümunəsinə çevrilir: "Həmçinin ədliyyə hakimiyyəti tərəfindən təqdim edilən hesabat parlament tərəfindən həyata keçirilən nəzarət mexanizminə töhfə vermiş olur. İstənilən hakim tam sərbəst və azaddır, bu, fundamental keyfiyyətin bir zəmanətidir. Afrikada ədliyyə və digər hakimiyyət qolları arasında əlaqələr sürətlə inkişaf etməkdədir. Çoxtərəfli əməkdaşlıq prioritet olmalıdır. Real demokratiyanın həyata keçirilməsi təkcə ədliyyə hakimiyyətində deyil, digər hakimiyyət bölgülərində baş verməlidir".

Daha sonra təltifetmə mərasimi keçirilib. Azərbaycanın ədliyyə naziri Fərid Əhmədov, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov və Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev Beynəlxalq Hakimlər Assosiasiyasının fəxri medalı ilə təltif olunublar.

Konfransın davamında BMT-nin hakimlərin və vəkillərin müstəqilliyi üzrə xüsusi məruzəçisi professor Marqaret Sattertueyt videomüraciətində qeyd edib ki, hakimiyyətin siyasi qollarının qanunsuz hərəkətləri məhkəmə müstəqilliyinə ən güclü təhdidlərdən biridir. Bu zaman siyasi fəaliyyət və iradə məhkəmə müstəqilliyinin artırılması üçün vacibdir: "BMT-nin İnsan Hüquqları Çərçivəsi dövlətin digər iki qolundan müstəqil olan bir məhkəmə sisteminin mövcudluğunu tələb edir. İnsan hüquqlarının və daha geniş mənada demokratiyanın müdafiəsi üçün üç mühüm ilkin şərt var: qanunun aliliyinə, hakimiyyət bölgüsünə və məhkəmə sisteminin funksiyasına və müstəqilliyinə hörmət. Əgər hakimlər müstəqil deyillərsə, onlar qanunu güclü siyasi aktorlara bərabər tətbiq etməkdə və ya hökumətin təzyiqi qarşısında fundamental demokratik hüquqları müdafiə etməkdə çətinlik çəkə bilərlər. Struktur və funksional olaraq siyasi qurumlardan asılı olan ədliyyə sistemləri daha çox siyasi müdaxilə və hətta ələkeçirilmə riski altındadır. Beləliklə, BMT nöqteyi-nəzərindən məhkəmə sisteminin digər dövlət səlahiyyətlərindən struktur və funksional müstəqilliyi necə təmin edilə bilər? İnsan Hüquqları Komitəsi bu struktur tələblərdən bəzilərini qeyd edərək vurğulayıb ki, daxili qanunvericilik ədliyyə işçilərinin təyin edilməsi, mükafatlandırılması, vəzifədə qalması, yüksəldilməsi, fəaliyyətinin dayandırılması və vəzifədən azad olunması, habelə onlara qarşı tətbiq edilən intizam tənbehləri üçün aydın prosedurlar və obyektiv meyarlar müəyyən etməlidir. Müvafiq qaydada seçilmiş icra və ya qanunvericilik orqanı daxili hüquqi strukturları prosesdə bütün konstitusiya və ya qanuni tələblərə, o cümlədən beynəlxalq insan hüquqları hüququ ilə müəyyən edilmiş tələblərə cavab verərsə dəyişə bilər. Bununla belə, müstəqil və qərəzsiz məhkəmədə olan mütləq hüquq qalır və heç bir istisnaya məruz qala bilməz".

Daha sonra sual-cavab sessiyası təşkil olunub.

Sessiyadan sonra Avropa İnsan Haqları Məhkəməsinin hakimi Lətif Hüseynov beynəlxalq konfransa yekun vurub.

# QMİ sədri Nyu Yorkda BMT rəsmiləri və beynəlxalq təşkilatların nümayəndələri ilə görüşüb






**Qafqaz Müsəlmanları İdarəsinin sədri (QMİ) Şeyxülislam Allahşükür Paşazadə ABŞ səfəri çərçivəsində BMT Baş katibinin müavini Migel Anxel Moratinosla görüşüb.**

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Migel Anxel Moratinos Şeyxülislam A.Paşazadəni təşkilatın ofisi və işçi heyəti ilə tanış edib. Sonra tərəflər arasında qarşılıqlı maraq doğuran məsələlər və gələcək üçün birgə fəaliyyət ətrafında fikir mübadiləsi aparılıb.

M.A.Moratinos Azərbaycan xalqını Ermənistanla sülhün bərqərar olması münasibətilə təbrik edib. Bildirib ki, BMT-nin Sivilizasiyalar Alyansı olaraq bundan sonra da Azərbaycanla sıx əlaqələri davam etdirmək niyyətindədirlər.

Tərəflər həmçinin gələn il Azərbaycanda Qafqaz Müsəlmanları İdarəsi, Müsəlman Ağsaqqalları Şurası və BMT-nin Sivilizasiyalar Alyansının təşkilatçılığı ilə keçiriləcək İslamofobiya ilə mübarizə konfransını, eləcə də BMT-nin Sivilizasiyalar Alyansının bu ilin dekabr ayında Səudiyyə Ərəbistanında təşkil edəcəyi növbəti qlobal forumu müzakirə ediblər.

Bundan başqa, QMİ sədri "Dinlər Sülh Uğrunda" Təşkilatının həmprezidenti və Ümumdünya Şurasına üzv seçilməsi ilə əlaqədar rəhbərlik etdiyi nümayəndə heyəti ilə birlikdə təşkilatın Nyu Yorkdakı baş ofisini ziyarət edib.

Nümayəndə heyətini təşkilatın Baş katibi Frensis Kuria qarşılayıb, onlara rəhbərlik etdiyi qurumun strukturu və fəaliyyəti barədə ətraflı məlumat verib.

Şeyxülislam isə F.Kurianı Azərbaycandakı multikulturalizm və dinlərarası harmoniya mühiti haqqında məlumatlandırıb, bu mühitin formalaşmasında Ulu Öndər Heydər Əliyevin müstəsna rolundan, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısından, ölkəmizdə fəaliyyət göstərən Dini Konfessiyaların Məşvərət Şurası haqqında danışıb.

Baş katib "Dinlər Sülh Uğrunda" təşkilatının Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq sahəsində malik olduğu böyük təcrübədən bəhrələnəcəyini qeyd edib.

# "Birlik - 2025" birgə təliminin açılış mərasimi olub



**Özbəkistanın Səmərqənd vilayətində Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan və Özbəkistan hərbçilərinin iştirakı ilə baş tutan "Birlik - 2025" birgə regional təliminin oktyabrın 14-də açılış mərasimi keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tədbirin rəsmi hissəsində iştirakçı ölkələrin Dövlət himnləri səsləndirilib.

Mərasimdə çıxış edənlər bu cür birgə təlimlərin qarşılıqlı təcrübə mübadiləsi baxımından vacibliyini vurğulayıb, təlim iştirakçılarına uğurlar arzulayıblar.

Sonra tədbir iştirakçılarına konsert proqramı təqdim edilib, özbək və digər xalqların milli mahnıları ifa olunub.

Sonda təlimdə iştirak edən hərbi qulluqçuların tribuna önündən təntənəli keçidi olub.





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

ZƏFƏR gündəliyi
15 oktyabr
2020-ci il

## İlham ƏLİYEV: "Biz Zəfər marşındayıq"

**Oktyabrın 14-dən 15-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində əvvəlki günlərdə olduğu kimi vəziyyət gərgin olaraq qalıb.**

Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərib. Qoşunlarımız tərəfindən həyata keçirilən uğurlu tədbirlər nəticəsində qarşı tərəf ciddi itki verib və cəbhənin müxtəlif istiqamətlərində geri çəkilməyə məcbur edilib.

### Düşmənin canlı qüvvəsi, döyüş texnikası, silah-sursatı, yanacağı tükənib

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd "Tor-M2KM" zenit raket kompleksi, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-20, 1 ədəd D-30 və 2 ədəd D-1 haubitsa topu, bir neçə PUA-sı və avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin müvəqqəti işğal etdiyi ərazilərdəki qüvvə və ehtiyatlarına ağır zərbə vurulub. Düşmənin canlı qüvvəsi, döyüş texnikası, silah-sursatı, yanacağı tükənib.

### Tərtərdə dəfn mərasimi zamanı əraziyə ağır artilleriyadan atəş açılıb



Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atəşə tutublar. Tərtər rayonunda dəfn mərasimi zamanı əraziyə ağır artilleriyadan atəş açılıb. Ölən və yaralananlar olub.

### "Düşmənin 1 milyard dollardan çox dəyərində hərbi texnikası məhv edilib"

Prezident İlham Əliyev Rusiyanın "Ria Novosti" Agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib.

Ali Baş Komandan döyüş əməliyyatlarının nəticələri ilə bağlı verilən suala cavabında deyib ki, Azərbaycan Ordusu düşmənin dərin eşelonlaşdırılmış müdafiə xəttini yarmağa nail olub: "Bəzi sahələrdə hətta 4 müdafiə xətti vardı. Lakin ərazinin relyefi, dağ relyefi, əlbəttə, müdafiə olunmaq üçün əks-hücumla müqayisədə daha münasibdir. Bu günə qədər onlarca yaşayış məntəqəsi, o cümlədən Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun kəndlərinin çox hissəsi, Füzuli rayonunun kəndlərinin əksəriyyəti, strateji əhəmiyyətli Suqovuşan qəsəbəsi işğaldan azad edilib. Biz işğalçıları Murovdağ silsiləsindəki strateji yüksəkliklərdən çıxarmışıq və ölkəmizin ərazi bütövlüyünün bərpası üzrə uğurlu əməliyyatı davam etdiririk".

Prezident deyib ki, təkcə pilotsuz zərbə uçuş aparatları vasitəsilə düşmənin 1 milyard dollardan çox dəyərində hərbi texnikası məhv edilib.

### Ali Baş Komandandan növbəti müjdəli xəbər

Prezident xalqa növbəti xoş xəbəri çatdırıb. İlham Əliyev özünün rəsmi "X" səhifəsində yazıb: "Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"




### Mehriban ƏLİYEVA: "Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində paylaşım edib:

"Nə dərəcədə insaniyyətdən kənar, rəhmsiz və mənəvi tənəzzülə uğramış olmalısan ki, dəfn mərasimi zamanı qəbiristanlığı qəsdən atəşə tutasan? Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram. Həlak olanların ailələrinə və doğmalarına başsağlığı verirəm. Allah rəhmət eləsin".

### İlham ƏLİYEV: "Bayrağımızı artıq şəhərlərimizi əhatə edən dağlara sancırıq"

Prezident İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibə verərək bir daha Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından danışıb. Prezident qeyd edib ki, döyüş meydanında əsas hədəf strateji yüksəklikləri işğalçılardan azad etmək və böyük əraziləri nəzarət altına almaqdır:

"Bizim uğurlu əməliyyatımız davam edir. Bu günə qədər, - əlbəttə ki, hər gün bu rəqəmlər dəyişir, - təqribən 40-a yaxın, ya da ki, 40-dan çox yaşayış məntəqəsi - şəhərlər və kəndlər işğalçılardan azad edilmişdir. Yaxın vaxtlarda növbəti sevincli xəbərlər, xoş xəbərlər gələcəkdir".

Ali Baş Komandan əməliyyatların tədricən, vahid bir planlama əsasında aparıldığını və bütün hədəflərin seçildiyini söyləyib.

Prezident bir daha Ermənistana mesaj ünvanlayıb: "Ermənistan tərəfi, sadəcə olaraq, bu reallıqla hesablaşmalı və təcavüzünü dayandırmalıdır, atəşkəsə əməl etməlidir və qalan torpaqlardan da öz xoşu ilə çıxmalıdır ki, qan tökülməsin və bundan sonra bu məsələ sülh yolu ilə həll edilsin. Biz indi torpaqlarımızı azad edirik. Biz bayrağımızı artıq şəhərlərimizi əhatə edən dağlara sancırıq, şəhərlərimizdə mövcud olan binalara sancırıq, biz zəfər marşındayıq".

### İlham Əliyevdən fransız jurnalistin təxribatçı sualına diplomatik cavab

"France 24" televiziya kanalına müsahibə verən Prezident İlham Əliyev bir daha həqiqətləri söyləyib. Ermənistanın humanitar atəşkəsə əməl etmədiyini vurğulayan İlham Əliyev bəzi təxribatçı suallara da diplomat və Ali Baş Komandan kimi cavab verib.

Jurnalistin "Siz deyirsiniz ki, atəşkəs müəyyən olunandan sonra Azərbaycan tərəfindən heç bir zərbə endirilməmişdir? Hətta hərbi hədəflərə də?" sualını Prezident belə cavablandırıb: "Xeyr, hərbi hədəflərə zərbələr endirilmişdir. Biz bunu təkzib etmirik. Lakin bu təbiidir, çünki biz özümüzü müdafiə etməli idik. Atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əks halda Ermənistan üstünlüyə malik olacaq və öz məqsədinə çatacaq. Əslində, onlar elə bunu etməyə çalışırlar. Onlar azad edilmiş əraziləri geri götürməyə cəhd edirlər. Xüsusilə onlar Hadrut şəhərini geri götürməyə cəhd ediblər. Lakin uğursuzluğa düçar oldular. Mənim onlara məsləhətim belədir və mən artıq Ermənistan hökumətinə və həmçinin Ermənistan xalqına açıq şəkildə mesajımı ünvanlamışam ki, onlar azad edilmiş əraziləri geri götürmək cəhdlərini dayandırmalıdırlar. Bu, yalnız yeni qurbanlara səbəb olacaq və qan tökülməsinə gətirib çıxaracaqdır".

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

**Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş zabit və əsgərlərlə etdiyimiz söhbətləri bu gün də olduğu kimi xatırlayırıq. Azərbaycan xalqı 30 ilə yaxın işğalda qalmış əraziləri uğrunda vuruşan belə cəsur, qorxmaz oğullarla həmişə fəxr edəcək, döyüşçülərimizin qəhrəmanlığını, igidliyini heç vaxt unutmayacaq.**



## Ön cəbhəyə 5 il əvvəlki ezamiyyətdən qalan xatirə

Söhbətimiz zamanı ürəyi Vətən eşqi ilə döyünən gizir Rəşid Tanrıverdiyev iştirakçısı olduğu gərgin döyüşlərdən qısaca söz açaraq dedi ki, torpaqlarımızın azadlığı uğrunda vuruşmaqdan qürur duyur: "Hərbçi kimi bu bizim ən müqəddəs borcumuzdur. Fəxr edirəm ki, biz həmin borcu böyük şərəf və ləyaqətlə yerinə yetiririk. Əks-həmlə əməliyyatlarının ilk günlərindən döyüşə qələbə əzmi ilə atılmışıq. Bu əzmlə də döyüşlərimizi davam etdiririk. Yurdumuzun azadlığı uğrunda savaş başlayar-başlamaz uzun illər erməni işğalında qalmış kəndlərimizin bir neçəsini azad etdik. Yaşayış məntəqələri uğrunda gedən döyüşlərdə əsgərlərimiz çox cəsarətlə vuruşdular. Hərbçilərimizin döyüş hazırlığı yüksək səviyyədədir. Mən özüm də dəqiq atəş zərbələri ilə mövqelərimizə yaxınlaşan bir neçə düşməni məhv etdim. Vaxt keçdikcə yağıların zəiflədiyi, sıralarının seyrəldiyi açıq-aydın hiss olunurdu. Elə buna görə də düşmən əks-həmlələrimiz qarşısında yalnız bir-iki saat dayana bildi. Bu müddət ərzində dəqiq atəş zərbələri ilə yağıların bir neçə zirehli texnikasını və xeyli canlı qüvvəsini məhv etdik. Azad olunandan sonra ehtiyatla kəndlərdən birində mövqe tutduq. Burada gördüklərimizdən dəhşətə gəldik. Yer-göy erməni zülmündən qan ağlayırdı. Daşnaklar kənddəki bütün evləri uçurub dağıtmış, yerlə yeksan etmişdilər. Evlərdən yalnız bünövrə və bir qalaq daş qalmışdı. Bu yaşıma qədər belə dəhşətli, tükürpərdici səhnə görməmişdim. Amma illər əvvəl bu yerlər axarlı-baxarlı olmuşdu. Xalqımızın övladları əsrlər boyu bu kəndlərdə yaşayıb ömür sürmüşdülər, qurub-yaratmışdılar. Yağılar kənddə yalnız özlərinin qaldıqları bir neçə evi uçurmamışdılar. Gördüyümüz bu dəhşətli mənzərələr ermənilərə olan nifrət hissimizi daha da artırdı".

Döyüşdən yenicə qayıtmış əsgər Mübariz Yaralıyevin də ovqatı yüksək idi. Savaşdan qalib çıxmış əsgər sözündən bilinir, hərəkətindən görünürdü. Üz-gözündən sevinc yağan Mübariz artıq qalib ordunun qalib əsgəri idi. Onu dinləmək bizə könül xoşluğu verdi.

- Kiçik yaşlarımdan yurdumuzu işğal etmiş, Xocalıda xalqımıza qarşı soyqırımı törətmiş ermənilərə qarşı nifrətlə, qəzəblə böyümüşəm, - deyə əsgər Mübariz Yaralıyev sözə başladı. - Bütün bu qanlı hadisələr baş verəndə yaşım az idi, dünyanı dərindən dərk etmirdik. Böyüdükcə əsrlər boyu xalqımıza qənim kəsilmiş erməniləri tanıdıq, onların qanlı əməllərini ətraflı öyrəndik. Öyrəndikcə də düşmənə nifrətimiz artdı. Orta məktəbdə oxuyanda müəllimlərimiz dəfələrlə bizi Şəhidlər xiyabanına ziyarətə aparırdılar. Şəhidlərimizin qanı yerdə qala bilməzdi, düşməndən mütləq qisas alınmalıydı. Qisasları alınandan sonra onların ruhları rahatlıq tapacaqdı. Elə ilk əks-həmlə əməliyyatı zamanı ermənilərə sarsıdıcı zərbələr vurduq. Düşmən mövqelərimiz üzərinə hücum çəkəndə, güllələrini üstümüzə yağdıranda elə zənn etdi ki, qorxuya düşüb geri çəkiləcəyik. Bilmirdilər ki, biz qorxu hissini çoxdan unutmuşuq, intiqam hissi ilə döyünən ürəkdə qorxu hissi ola bilməzdi. Qəsbkarların atəşinə elə atəşlə də cavab verirdik. Gərgin döyüş xeyli davam etsə də, işğalçılar bir addım da olsun irəliləyə bilmirdilər. Komandirlərim, əsgər dostlarım güllələri işğalçıların üzərinə dolu kimi yağdırırdılar. Hazırlığımız yüksək olduğuna görə güllələrimiz hədəfdən yayınmırdı. Mövqelərimizdə möhkəm dayanmışdıq. Məqsədimiz qısa müddət ərzində düşmənin hücumlarının qarşısını almaq idi. Nəyin bahasına olursa olsun, üstümüzə hücum çəkmiş erməniləri dayandırmalıydıq. Yaranmış şəraitə uyğun olaraq komandirlərimiz əsgərlərə müxtəlif əmr və tapşırıqlar verirdilər. Biz də onları yerinə yetirirdik. Atəş zərbələrimiz sərrast olduğundan düşmən həm canlı, həm də zirehli texnika sarıdan itkilər verirdi. İşğalçılardan qat-qat üstün olduğumuz açıq-aydın görünürdü. Bir azdan komandirimiz düşmən üzərinə əks-hücuma keçmək barədə əmr verdi. Qəsbkarlar əvvəlcə geri çəkilmək istəmirdilər. Amma çox keçmədi ki, hücumlarımızın gücündən qorxuya düşərək tələm-tələsik mövqelərindən çıxıb qaçmağa başladılar. Erməni işğalçıları silah-sursatlarını, meyitlərini mövqelərində atıb qaçırdılar. Yağıların postlarına baxanda çox heyrətləndik. Düşmən burada çox böyük möhkəmləndirmə işləri aparmışdı. Zənn etmişdi ki, bununla Azərbaycan əsgərinin qarşısını ala biləcək. Amma nə qədər bərkitmə işləri aparsa da, qəsbkarlar qarşımızda duruş gətirə bilmədilər.

Silahını sinəsinə sıxmış gizir Rəşad Əlyarov da yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə öndə vuruşur. Sərrast atəşlə neçə-neçə qəsbkarı məhv edib. Döyüşlərdən zəfərlə, uğurla dönüb. Söhbətimiz zamanı Rəşad dedi ki, illərdən bəri özünü "məğlubedilməz" hiss edib torpaqlarımızı işğalda saxlayan ermənilər qarşımızda dayana bilmədilər: "Azərbaycan əsgəri, sözün həqiqi mənasında, onlara qan uddurdu. Qəfil əks-həmlələrimizlə erməniləri yurdumuzdan qovuruq. Hər gün irəli gedirik, hər gün torpaqlarımızı azad edirik. Bu gün Azərbaycan Ordusu bütün cəbhəboyu erməni işğalçılarına sarsıdıcı zərbələr vurur. Qürur duyuram ki, mən qalib bir ordunun qalib əsgəri kimi bu tarixi döyüşlərdə iştirak edirəm. Biz öz torpaqlarımızın azadlığı uğrunda vuruşuruq, biz uzun illər ermənilər tərəfindən pozulan, tapdanan haqq-ədalət uğrunda vuruşuruq".

Rəşad söhbətinə davam edərək onu da dedi ki, düşmən müqavimət göstərməyə çalışsa da, buna gücü çatmır, bizimlə bacarmır: "Qısa çəkən atışmalardan sonra yenə də geri çəkilir. Hər gün yağıların canlı qüvvəsini məhv edir, zirehli texnikalarını yandırırıq. Geri çəkilməkdə davam edən işğalçılar getdikcə zəifləyir. Yaxın günlərdə onları tam süquta uğradacağıq. Onda silahı yerə qoyub ağ bayraq qaldıraraq məğlub olduqlarını etiraf edəcəklər. Çox keçməyəcək ki, vətənimizin bütövlüyü uğrunda gedən döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə başa çatacaq. Erməni işğalçıları məhvə məhkumdur, çünki tarix boyu heç vaxt özlərinin olmayan Qarabağa sahib çıxmaq istəyirlər. İştahaları, arzuları özlərindən böyükdür. İnşallah Azərbaycan əsgəri onların işğalçılıqdan qaynaqlanan bu arzularını gözündə qoyacaq".

Əsgər Anar Həsənov iştirak etdiyi döyüşlərdən danışdı. Bildirdi ki, Qarabağın azadlığı uğrunda İkinci Qarabağ müharibəsinin davam etdiyi şərəfli günləri heç vaxt unutmayacaq: "30 ilə yaxın erməni işğalında qalmış torpaqlarımızın azad edilməsi xalqımıza böyük sevinc bəxş edəcək. Uzun illərdən bəri işğal altında qalmış ərazilərimiz addım-addım azad olunur. Azərbaycan Ordusunun zabit və əsgərləri bu döyüşlərdə böyük igidlik və qəhrəmanlıqlar göstərirlər. Əvvəlki illər, əvvəlki günlər özlərini "məğlubedilməz" hesab edən erməni işğalçıları əks-həmlələrimiz qarşısında çox duruş gətirə bimədilər. Onların mövqelərini ələ keçirəndə orada düşmənin xeyli silah-sursatını, meyitlərini qoyub qaçdığını görürdük. Döyüş meydanlarında qəsbkarların onlarla tankını, rabitə qurğularını, toplarını vurub sıradan çıxardıq. Bu sarsıdıcı zərbələrimiz erməniləri iflic vəziyyətinə saldı. İş o yerə çatdı ki, döyüşməyə silah-sursat tapa bilmədilər. Yaranmış bu çaşqınlıqdan ermənilər başlarını itirdilər. Hətta hara, hansı istiqamətə hərəkət edəcəklərini belə bilmədilər".

Gənc zabit Orxan Yusubov müharibənin ilk günlərindən ön sıralarda döyüşür. Həmin günlərdən söz açan Orxan dedi ki, bölüyümüzün əsgərləri əks-həmlə əməliyyatlarında cəsarətlə vuruşdular: "Neçə illərdir torpaqlarımızı işğalda saxlamış düşmən qarşımızda dayana bilmədi. Həm canlı qüvvələrini, həm də döyüş texnikalarını, artilleriya qurğularını itirərək geri çəkilməyə məcbur oldu. Qarabağ heç vaxt ermənilərin olmayıb. Ermənilər özləri də bunu bilirdilər. Amma müxtəlif saxtakarlıqla, gizli yollar və vasitələrlə Qarabağı işğal edib Ermənistana birləşdirmək istəyirdilər. Buna yol verə bilməzdik. Erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayan kimi qüdrətli Azərbaycan Ordusu bütün cəbhəboyu uğurlu əməliyyatlarını davam etdirərək dayanmadan irəlilədi. Silahlı Qüvvələrimizin zabit və əsgərləri torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə böyük hünər və qəhrəmanlıqlar göstərdilər. Məğlub olan düşmən silah-sursatını, artilleriya qurğularını, zirehli texnikalarını atıb qaçdı. Mənim üçün çox sevindiricidir ki, bölüyümüzün əsgərləri də bu döyüşlərdə fəal iştirak etdilər, igidlik göstərdilər".

Vətən torpaqlarının azadlığı uğrunda gedən döyüşlərdə cəsarətlə vuruşan zabit və əsgərlərlə söhbətdən ürəyimiz dağa döndü, qürur hissləri keçirdik. Bir daha əmin olduq ki, ürəyi yurda məhəbbətlə döyünən oğullarımız iştirakçısı olacaqları bütün döyüşlərdə böyük uğurlar qazanacaqlar. Bu uğurlar sonda bizi böyük Qələbəyə qovuşduracaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

*(Əvvəli qəzetin 11-14 oktyabr tarixli saylarında)*

# Ruben Vardanyanın məhkəməsində ifadələr dinlənilib



**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi oktyabrın 14-də davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş Xəyal Canbaxışovun hüquqi varisi - atası Xeyrulla Canbaxışov bildirib ki, övladı Ağdərədə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin atdığı minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində həlak olub.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Elşad Şeydayev Kəlbəcərdə düşmənin təxribatı nəticəsində qolundan və ayağından xəsarətlər aldığını deyib.

Zərərçəkmiş Kamiz İbayev Kəlbəcərdə dumana düşərək azması nəticəsində Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən əsir götürüldüyünü söyləyib. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zaman o bildirib ki, gözləri bağlanılaraq aparılıb, harada saxlanılması barədə məlumatı olmayıb. K.İbayev əsirlikdə olduğu müddətdə ona müxtəlif işgəncələr verildiyini, pis rəftara məruz qaldığını və döyüldüyünü deyib.

Zərərçəkmiş şəxs təqsirləndirilən R.Vardanyanın vəkili Avraam Bermanın suallarına cavabında əsir götürülən zaman Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən saxlanıldığını, əsirlikdə olduğu müddətdə R.Vardanyanı görmədiyini bildirib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş Taleh Rzayev Ağdərədə düşmənin minaatandan atdığı mərminin partlaması nəticəsində yaralandığını bildirib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş Zaur Ələkbərov Xocavənd rayonunda düşmənin artilleriya silahından atdığı mərminin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını bildirib. Hadisə zamanı ondan başqa daha bir neçə şəxs yaralanıb.



Zərərçəkmiş Qismətpaşa Abbaszadə dövlət ittihamçısı Fuad Musayevin suallarına cavabında Ağdamda düşmənin açdığı atəş nəticəsində xəsarət aldığını söyləyib. Qeyd edib ki, hadisə zamanı daha bir şəxs də yaralanıb.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş Telman Adıgözəlov Xocavənddə düşmənin açdığı artilleriya atəşi nəticəsində yaralandığını bildirib.

Zərərçəkmiş Elvin Məmmədov Ağdamda Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində ağır xəsarətlər aldığını söyləyib. Aldığı xəsarətlər səbəbindən 23 gün komada qalıb. Hazırda ikinci qrup əlildir.

Rövşən Hacıbalayev Ağdərə rayonunun Sırxavənd kəndi ərazisində yerləşən Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılan artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində xəsarət aldığını deyib.

Teymur Cəfərov Laçında düşmənin açdığı atəşlər nəticəsində yaralandığını bildirib. Hadisə zamanı bir nəfər həlak olub, bir neçə nəfər isə yaralanıb.

Aqil Quliyev Ağdamda düşmənin açdığı atəşlər nəticəsində yaralandığını bildirib.

Xəqani Quliyev ifadəsində Ağdamda düşmənin açdığı atəş nəticəsində güllə xəsarəti aldığını söyləyib.

Dəyanət Mərdanlı da Ağdamda düşmən təxribatı nəticəsində yaralandığını deyib.

Zərərçəkmiş Sərxan Rəhimov Ağdamda tibb xidməti avtomobili ilə yaralıları təxliyə etməyə gedən zaman Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində yaralandığını bildirib. Zərərçəkmiş deyib ki, təxliyə maşınının üzərində onun tibbi nəqliyyat vasitəsi olmasını göstərən nişan olmasına baxmayaraq, atəşə tutulub. Nəticədə özü və digər şəxslər yaralanıb. Təxliyə etməli olduqları yaralı şəxslər isə vaxtında tibbi yardım göstərilmədiyindən vəfat ediblər.

Anar Seyidov, Türkan Cəfərov və Pərviz Adıgözəlov müxtəlif istiqamətlərdə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəşlər nəticəsində müxtəlif xəsarətlər aldığını bildiriblər.

Zərərçəkmiş şəxs Məhərrəm Kərimli ifadəsində Ağdam-Ağdərə istiqamətində düşmənin açdığı snayper atəşi nəticəsində qol nahiyəsindən yaralandığını bildirib. M.Kərimli R.Vardanyanın sualına cavabında onu sosial şəbəkələr vasitəsilə tanıdığını söyləyib.

Sonra zərərçəkmiş şəxslər barəsində məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası oktyabrın 21-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə 2025-ci il üçün abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Akademik Əhəd Canəhmədovun "Kainat haqqında düşüncələr" əsəri Türkiyədə nəşr olunub

**Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti, Milli Aviasiya Akademiyasının Nəqliyyat mexanikası kafedrasının müdiri, dünyaşöhrətli alim, akademik Əhəd Canəhmədovun yaradıcısı olduğu mühəndislik fəlsəfəsi elmi üzrə yazdığı silsilə kitablar, o cümlədən "Kainat haqqında düşüncələr: mühəndislik fəlsəfəsindən yanaşma" (elmi-fəlsəfi traktat) dünya alimlərinin böyük marağına səbəb olub.**

AZƏRTAC xəbər verir ki, dünyanın görkəmli alimlərinin bu elm sahəsinə olan böyük diqqətini nəzərə alaraq, bu günlərdə Türkiyənin Ankara şəhərində fəaliyyət göstərən Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Elmi şurasının qərarı ilə yuxarıda adı qeyd olunan kitab türk dilinə çevrilərək "Evren Üzerine Düşünceler: Mühendislik Felsefesiyle Yaklaşım" adı altında nəfis şəkildə, böyük tirajla nəşr edilib.



Əsər Türkiyənin və türk dünyasının önəmli universitet, akademiya və digər elm və təhsil müəssisələrinə hədiyyə olaraq göndərilib.

Kitabın elmi redaktoru və ön sözün müəllifi Beynəlxalq Mühəndislik Akademiyasının prezidenti, akademik Boris Qusev, Türkiyə türkcəsinə uyğunlaşdıranlar isə professor Elçin İsgəndərzadə və Ayişə Nəbilidir.

Qeyd edək ki, Əhəd Canəhmədov xarici ölkələrin bir sıra akademiyalarının həqiqi üzvü, 50-dən çox monoqrafiyanın, kitab və dərsliyin, 3 elmi kəşfin, 500-ə yaxın elmi məqalənin və patentin müəllifidir. Rusiyanın Əməkdar mühəndisidir. O, "Elm Cəngavəri" rütbəsinə layiq görülüb. Elm və təhsil üzrə bir sıra beynəlxalq müsabiqələrin laureatıdır. Onun fundamental əsərləri ingilis dilinə tərcümə edilib, ABŞ, Almaniya, Türkiyə və digər ölkələrdə nəşr edilib və beynəlxalq səviyyədə tanınıb. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Alim xarici ölkələrin bir çox orden və medallarına da layiq görülüb.

# Ombudsmanın nümayəndələri Ağdərədə aşkarlanmış kütləvi məzarlığı yerində araşdırıblar

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ermənistan tərəfindən törədilmiş insanlıq əleyhinə və müharibə cinayətlərinin qurbanlarının, o cümlədən itkin düşmüş şəxslərin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsini daim diqqət mərkəzində saxlayır.

Ombudsman Aparatından AZƏRTAC-a bildirilib ki, işğaldan azad olunmuş ərazilərdə aparılan qazıntılar zamanı aşkarlanan kütləvi məzarlıqlar Ermənistan tərəfindən törədilmiş müharibə cinayətlərini bir daha sübut etməkdədir.

Bu istiqamətdə həyata keçirilən tədbirlər və aparılan axtarışlar nəticəsində son günlərdə bir sıra mühüm faktlar üzə çıxıb. Belə ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının topladığı məlumatlar və şahid ifadələri əsasında Ağdərə rayonunun Ballıqaya kəndi ərazisində, döyüş mövqeyi olmuş yüksəklikdə aparılan axtarışlar nəticəsində Azərbaycan hərbi qulluqçularına aid olduğu ehtimal edilən 10-dan çox insan qalığı aşkarlanıb.



Beynəlxalq humanitar hüquqa əsasən, itkin düşmüş şəxslərin taleyi barədə məlumatların toplanması və onların yaxınlarının həqiqəti bilmək, məlumat almaq hüquqları təmin edilməlidir. Azərbaycan ombudsmanı itkin düşmüş soydaşlarımızın taleyi haqqında məlumatların əldə edilməsi, o cümlədən Ermənistanın törətmiş olduğu müharibə cinayətləri nəticəsində pozulmuş insan hüquq və azadlıqlarının bərpası istiqamətində müvafiq tədbirlər, faktaraşdırıcı missiyalar həyata keçirməkdədir. Ombudsmanın həyata keçirmiş olduğu növbəti faktaraşdırıcı missiyası çərçivəsində Aparatın əməkdaşları Müqalib Mahmudov və Sevinc Şener tərəfindən Ağdərə rayonunun Ballıqaya kəndi ərazisində müvafiq araşdırma aparılıb və faktoloji materiallar toplanılıb.

Kütləvi məzarlıqlardan toplanmış materiallar əsasında monitorinqin nəticələrinə dair ombudsman tərəfindən müvafiq hesabat hazırlanaraq ictimaiyyətə və beynəlxalq təşkilatlara təqdim ediləcək.

## ALLAH RƏHMƏT ELƏSİN!

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Rövnəq Abdullayevə əzizi

**ADƏM ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Rövnəq Abdullayevə əzizi

**ADƏM ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Aydın Əli oğlu Əliyev Rövnəq Abdullayevə əzizi

**ADƏM MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Aydın Əli oğlu Əliyev sabiq səhiyyə naziri, professor

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Rövnəq Abdullayevə əzizi

**ADƏM ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əli, Mobil, Rafiq, Arif, Hacı Müşfiq və Nail Hüseynovlar, Hacı Araz Kərimov, Əlövsət Əliyev, Fazil Allahverdiyev, İlham və Tural İbrahimovlar, Şahin Aslanov, İlham Həsənov, Hidayət, Müstəqim, Mircəfər və Mircəlil İsmayılovlar Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyevə (Rəhimoğluna) əzizi

**QƏNİRƏ XUDU QIZI İSMAYILOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4093
Sifariş 2092

Qiyməti 60 qəpik